ELXAN ELATLI

Milli Qəhrəman Mübariz İbrahimov haqqında roman



# Qisas gecəsi

84(5Aze)-4
E 42

ELXAN ELATLI

# QİSAS GECƏSİ

(ROMAN)

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 62454

«İDEAL-PRİNT»
BAKI – 2011

**Elxan Elatlı**

E42 **QİSAS GECƏSİ.** Bakı,
**"İDEAL-PRİNT"**, 2011, 176 səh.

**Əsasən detektiv əsərlər müəllifi kimi tanınıb sevilən Elxan Elatlının «Qisas gecəsi» romanı Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun qısa həyatından və şərəfli döyüş yolundan bəhs edir. Roman gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsində öz müsbət rolunu oynamağa qadirdir.**

E $\frac{4702060200}{122}$

© **"ELXAN ELATLI"**
© **"İDEAL-PRİNT"**

***«Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən sevgisi, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı.***

***Mübariz bütün gənclərimiz üçün örnəkdir, nümunədir».***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

# MÜƏLLİFDƏN

***Necə oldu ki, əfsanəvi qəhrəman Mübariz İbrahimov haqqında roman yazmaq qərarına gəldim.***

*Vətənpərvərlik mövzusunda qələmə aldığım kriminal-detektiv «Qan ləkəsi» və «Cəhənnəmdən gələn səs» romanları geniş oxucu kütləsi arasında yayılandan sonra bəzi oxucuların internetdəki yazılarında, mənimlə telefon danışıqlarında belə suallarla qarşılaşdım:*

*– Leopard kimi oğullar, həqiqətən, Azərbaycanda varmı?*

*Doğrusu, bu sual məni təəccübləndirirdi. Məgər əfsanəvi Mehdi Hüseynzadə, İsrafil Məmmədov, Gəray Əsədov, Ramil Səfərov, nəhayət, məcburən qoşulduğumuz indiki müharibədə böyük şücaətlər göstərmiş yüzlərlə qəhrəmanlarımız bizim millətin övladları deyilmi?..*

*İmkanım olduğu qədər cavab verirdim ki, əlbəttə var, həm də belələri çoxdur. İnanan da olurdu, inanmayan da...*

*19 iyun 2010-cu ildə , 22 yaşlı gizir Mübariz İbrahimovun göstərdiyi qeyri-adi igidliyin xəbəri bütün Azərbaycana yayıldı. Ürəyində Vətən sevgisi olan hər bir vətəndaş kimi, bu xəbər məni də titrətdi, həyəcanlandırdı. Eyni zamanda, təsvirəgəlməz bir qürur hissi duydum.*

*Kimsə mənə dedi ki, Leopardın qəhrəmanlığına inamsız*

*yanaşanların şübhəsinə Mübariz son qoydu, Azərbaycanda, doğrudan da, əsl qəhrəmanların olduğunu öz əməli ilə sübut etdi.*

*Hörmətli prezidentimiz, cənab İlham Əliyevin Mübarizin əməlinə dərhal verdiyi yüksək qiymət də məni az təsirləndirmədi.*

*Fikirləşdim ki, bu qəhrəman haqqında bir roman yazım. Çünki hər hansı bir şəxsiyyətin qəlblərdə uzun illər yaşamasında və sevilməsində bədii əsərin nə qədər böyük rola malik olduğunu yaxşı bilirdim.*

*Amma bircə gün sonra tərəddüd etməyə başladım. Öz qələminə hörmət bəsləyən yazıçı üçün hamının tanıdığı, qohum-əqrabası, dostları sağ olan, bu günün adamından roman yazmaq çox çətin və risqli bir işdir. Əlbəttə, əgər söhbət həqiqi bədii əsərdən gedirsə.*

*Mübariz də bu gün hamının tanıdığı bir qəhrəmandır. Onun haqqında hələlik yalnız sənədli oçerk yazmaq olardı ki, o da, mənim fikrimcə, quru alınacaqdı. Oxucuların qəlbinə bir o qədər də yol tapa bilməyəcəkdi. Bir də ona görə ki, Mübariz artıq öz qeyrəti ilə, qeyri-adi qəhrəmanlığı ilə hamının ürəyinə yol tapmışdı və yazılan əsər bunların yanında sönük görünəcəkdi.*

*Aradan bir qədər keçdi. «Respublika» qəzetinin baş redaktoru, professor Teymur Əhmədovun yanında idim. O, «Cəhənnəmdən gələn səs» romanımı hissə-hissə qəzetdə verəcəyindən danışırdı. Söhbət əsnasında birdən-birə mənə dedi:*

*– Sən detektiv yazan yazıçı kimi tanınsan da, səndə vətənpərvərlik mövzusu gözəl alınır. Yaxşı olar ki, Mübariz İbrahimov haqqında da nəsə yazasan.*

*Bu barədə fikirləşəcəyimi dedim...*

*Ancaq, fikirləşdikcə mövzu mənə daha çətin görünürdü.*





*Birincisi, Mübarizin özü və göstərdiyi qəhrəmanlıq barədə ölkədə çox müxtəlif şaiyələr dolaşırdı. Əsl həqiqətə yaxınlaşmaq heç də asan olmayacaqdı. İkincisi də, mən yalnız bədii əsər, əsl roman yazmaq istəyirdim ki, belə əsəri də, təkrar edirəm, bu günün adamı, bu günün hadisəsi haqqında yazmaq çox çətindir.*

*Bir həftə ötdü. Düşünürdüm ki, Teymur müəllim mənə dediyi sözü, bəlkə də, unudub. Başqa bir işlə əlaqədar yanına getmişdim. Elə kabinetə daxil olub görüşən kimi professor dilləndi:*

*– Hə, Elxan, nə qərara gəldin? Mübariz haqqında roman yazırsan, ya yox?*

*Tam səmimiyyətlə qeyd edim ki, mənim professor Teymur Əhmədova çox böyük hörmətim var. Bu gözəl insan çox az rast gəlinən müdrik, təəssübkeş, sözübütöv, vətənpərvər ziyalılarımızdan biridir.*

*Onun «Respublika» qəzeti və «Füyuzat» jurnalının baş redaktoru, filologiya elmləri doktoru, yorulmaz tədqiqatçı kimi çoxşaxəli fəaliyyəti dövlətimizin, millətimizin tərəqqisinə yönəlmiş əvəzsiz fəaliyyətdir.*

*Teymur Əhmədovun «Erməni xəyanəti» kitabı mənfur düşmənlərimizin tarixi iç üzünü təkzibedilməz faktlarla açıb göstərir. Mənim bildiyimə görə, Müdafiə nazirliyi tərəfindən hərbi məktəblərə və hərbi hissələrə yayılmış bu kitabı Mübariz də oxuyubmuş.*

*Bu nüfuzlu və hörmətli ağsaqqala nə deyə bilərdim?..*

*– Yazacam, Teymur müəllim! – dedim.*

*Teymur müəllim bundan çox razı qaldı və dərhal qəzetin əməkdaşları vasitəsilə, o vaxtadək Mübariz haqqında müxtəlif qəzet və jurnallarda yazılmış yazıları mənim üçün tapdırdı. Mənə bəzi məsləhətlər və xeyir-dua verib yola saldı.*

*Evdə materiallarla tanış oldum. Bu zaman çox yerdə bir-birini təkzib edən fikirlərə rast gəlirdim. Amma müəllifləri heç də qınamırdım. Bu vətənpərvər qələm sahibləri Mübarizin qeyrətli hərəkəti qarşısında öz borclarını yerinə yetirməyə tələsmiş, beləliklə, bəzi faktları dəqiqləşdirə bilməmişdilər.*

*Həmin vaxt həyat yoldaşım Sevda xanım da mənə çox ürək-dirək verirdi. Deyirdi ki, sən istəsən, Mübarizi duya bilərsən, olduğu kimi canlandıra bilərsən. Gənc Mübarizin ölümü ona çox pis təsir etmişdi.*

*– Elə bilirəm, Mübariz ürəyimin bir parçasıdır, – deyirdi.*

*Ömrünün əlli beş ilini gənclərin təlim-tərbiyəsinə həsr etmiş atam da kimdən yazacağımı eşidən kimi rayondan zəng vurub fikrimi alqışladı.*

*Oktyabrın 17-də Mübarizin həmyerlisi olan Çingiz müəllimlə birlikdə Biləsuvara getdim. Onunla və bizi öz «Mersedes»ində rayona aparan Rasim adlı oğlanla tanışlığım biləsuvarlılara hörmətimi bir az da artırdı. Hamısı səmimi, mehriban...*

*Əliabad kəndində Mübarizin atası Ağakərim bəyin qonağı olduq. Çingiz müəllim məni təqdim edib, nə məqsədlə gəldiyimi deyəndə ev sahibi bizi böyük hörmətlə qarşıladı.*

*Çay gətirdilər, daha sonra nahar süfrəsi açdılar. Meyidi hələ də geri qaytarılmamış qəhrəmanın ailəsində yas əhval-ruhiyyəsi soyumamışdı. Amma mənə elə gəlirdi ki, yasa yox, çoxdan tanıdığım əziz qohumumun, dostumun evinə qonaq gəlmişəm.*

*Biz orada olanda Bakıdan, Mingəçevirdən və başqa bölgələrdən dəstə-dəstə adamlar gəlib, qəhrəmanın atasına ayaqüstü başsağlığı verərək getdilər.*

*Ağakərim bəy Mübariz haqqında bütün suallarıma təmkinlə, dəqiq cavab verdi. Həyat yoldaşı Şamama xanım isə bizə heç yaxınlaşmırdı. Biz Mübarizin şəkilləri ilə bəzənmiş həyətdə, uzun masanın arxasında əyləşmişdik. Şamama xanımı yalnız hərdən hüznlü halda yanımızdan keçib gedəndə görürdüm. Qərara gəldim ki, ona heç bir sual verməyəcəyəm. Çünki, onun ürəyindəkiləri, onsuz da, bir yazıçı kimi, duyurdum və Mübariz kimi oğul itirmiş ananın ayrılıq dərdi qarşısında bütün sorğu-sualları mənasız hesab edirdim.*

*Axşamüstü araşdırmalarımı bitirdim. Mübariz haqqında qeydlər kitabına mən də öz ürək sözlərimi yazdım və Ağakərim bəylə vidalaşıb oradan çıxdıq.*

*Bakıya qayıdandan sonra üzərində işlədiyim detektiv romanı bir kənara qoyub, Mübariz haqqında yazacağım əsərin süjet xəttini düşünməyə başladım.*

*Hörmətli yazıçımız Mustafa Çəmənlinin «Mübariz» sənədli povestini də onda oxudum. Bu kitabı da Teymur müəllimin tapşırığı ilə «Respublika» qəzetinin əməkdaşı Rauf İlyasoğlu tapıb vermişdi mənə.*

*Sonra Mirzə Cəfərov və Müşfiq Mirzənin «Elin Mübariz oğlu» kitabı ilə tanış oldum. Bir çox lazımi adamlarla görüşüb söhbət etdim, məlumatlar topladım.*

*Romanda Mübariz surətinin bitkin yaradılması üçün onun son döyüşdən qabaq ata-anasına yazıb qoyduğu məktubun da böyük əhəmiyyəti oldu. Bu məktub onun xarakterini daha dəqiq açırdı mənim üçün.*

*Öz məntiqimi və təxəyyülümü də köməyə çağırıb, yavaş-yavaş əsl həqiqətə yaxınlaşdım. Bu zaman beş il əvvəl yazdığım, lakin heç yerdə dərc etdirmədiyim beş benddən ibarət «İrəli de, komandanım!» şeirim yadıma düşdü. Onu tapıb bir də oxudum. Qərara gəldim ki, romanın süjetini elə bu şeirin ruhu üzərində quracam. Çünki bu ruh Mübarizin ruhuna çox yaxın idi.*

*Başqa yazıçıları bilmirəm, amma mən həmişə əsas qəhrəmanlarımın surətini musiqinin köməyi ilə yaradıram. Bu mahnı, yaxud musiqi parçası bəzən təsadüfi olur və çoxları onunla surət arasında əlaqə görmür. Mən isə seçdiyim musiqini dinlədikcə yaratmaq istədiyim surəti beynimdə canlandıra bilirəm.*

*İşə başladığım gün televiziyada Aşıq Veysəlin sözlərinə bəstələnmiş «Gündüz-gecə» türküsünü eşitdim. Mübarizin də sevmiş olduğu bu türkü ürəyimdə qəhrəmanımın yaşadığı 22 illik ömürlə uyuşdu və mənə çox təsir etdi.*

*Təsadüfən həmin anda mənə zəng vuran tanış oxucumdan xahiş etdim ki, bu mahnını mənim üçün tapsın. Mübariz barədə roman yazmaq istədiyimi bilən oxucum elə o gün türk müğənnisinin ifasında səslənən həmin mahnını tapıb gətirdi. Demək olar ki, romanı əvvəldən axıra kimi bu türkünün sədaları altında yazdım:*

*– Dünyaya gəldiyim anda,*
*Yürüdüm ayrı zamanda.*
*İki qapılı bir handa,*
*Gediyorum gündüz-gecə...*

*İki həftə idi ki, əsərin üzərində işləyirdim. Bir ailə dostumuz məni qızının toyuna dəvət etdi. Əvvəlcə getmək istəmədim. Birincisi, toy məclislərinə çox nadir hallarda gedirəm. İkincisi də bütün beynim və qəlbim Mübariz barədə düşüncələrlə dolmuşdu. Məktəbdə dərs keçəndə də, yol gedəndə də ancaq onu fikirləşirdim.*

*Məlum oldu ki, getməsəm yaxşı alınmayacaq və getdim. Şadlıq sarayında oturub, süfrəyə əlimi uzatmadan gözlərimi rəqs meydançasına dikmişdim. Bir-birini əvəz edən oynaq musiqi sədaları zalı başına götürmüşdü. Toy adamları bəxtəvərcəsinə rəqs edirdilər. Mən isə onlara baxsam da yalnız Mübariz barədə düşünürdüm.*





*Birdən saata baxdım. Saat on bir olmuşdu. Yadıma düşdü ki, iyunun 18-i gecəsi, həmin bu saatda Mübariz artıq silahlanıb səngərdən çıxmışdı və Tərtərin qaranlıq çölləri ilə düşmənin üstünə gedirdi.*

*Düşündüm ki, həmin gün, həmin saatda bir çox şadlıq saraylarımızda, sözsüz ki, belə dəbdəbəli toy məclisləri olub. Sevinci, fərəhi aşıb-daşan gənclər, qocalar ortaya çıxıb beləcə rəqs ediblər.*

*Nədənsə yaman təsirləndim. Sanki, qaranlıq çöllə düşmənə doğru irəliləyən Mübarizi lap aydınca gördüm.*

*Niyə təsirləndim bu düşüncələrdən? Toy olmamalıdır, yəni? Əlbəttə, olmalıdır. Mübariz kimi oğullar səngərdə ona görə dayanır, düşmənlə ona görə vuruşur ki, arxada toy olsun, şadlıq olsun, hamı əmin-amanlıq içində öz işini görə bilsin.*

*Məni nəyin təsirləndirdiyini heç özüm də bilmədim. Amma həmin anda qəhrəmanımı duydum və ürəkdən sevdim. O, birdən-birə doğma adamıma çevrildi.*

*Artıq əsərin üzərində işlədikcə Mübarizi duyurdum. Hətta, özümü bəzən onun yanında – qanlı döyüşlərin içində hiss edirdim. Beləliklə, iki ayın gərgin düşüncələri təsirsiz ötüşmədi. Dekabrın 6-da, iş yerimdə halım birdən-birə pisləşdi. Təcili yardım çağırdılar. Sonra Türk-Amerikan tibb mərkəzində müayinə olundum. Baş həkim Ramiz Əliyevin və digərlərinin qayğısı ilə müalicə başladı. Dedilər ki, nəyə görəsə gərginlik keçirmisən, beynini yormusan. Daha onlara demədim ki, iki aydır erməni vəhşilikləri ilə dolu fikirlərlə yatıb-dururam. Demədim ki, iki aydır Mübarizin müqəddəs ruhu ilə danışıram.*

Həmin günlər mənə göstərdikləri qayğıya görə, bir çox oxucularıma, məktəb kollektivimə, eyni zamanda, adını çəkdiyim tibb mərkəzinin kollektivinə öz dərin təşəkkürümü bildirirəm. Doğrudan da, bu mehriban insanlar çox qayğı göstərdilər mənə.

Hələ romanın üzərində işləməyə təzəcə başlayanda bir xoşagəlməz məlumat almışdım ki, onu da burada qeyd etməyi lazım bilirəm. Mötəbər mənbədən mənə zəng vurub, bir nəfərin «Xəyanət» romanımı, demək olar, yalnız adını dəyişməklə öz adına çap etdirdiyini bildirdilər. 2005-ci ildə yazdığım, oxucular tərəfindən çox sevilən, yazıçı kimi tanınmağımda böyük rolu olmuş «Xəyanət» romanımı...

Sonra həmin saxta kitabı oxuyub heyrətə gəlmiş digər oxuculardan xəbərlər gəldi. Nə qədər sakit və təmkinli olsam da, bu məsələ təsirsiz ötüşmədi və hətta üzərində işlədiyim «Qisas gecəsi» romanının keyfiyyətinə də öz mənfi təsirini göstərdi. Deməli, belə işlər də var imiş bizdə. Mübariz kimi oğullarımız səngərdə Vətən yolunda canından keçəndə kimlərsə ucuz şöhrət, karyera qazanmaq üçün hər cür çirkin yollara əl atırlar. Nə isə...

Bu başabəla müharibə lap təzə başlayanda mən Şamaxıda müəllim işləyirdim. Mən də heç kəsə bildirmədən, işimi atıb, ailəmi, bir yaşlı körpə qızımı taleyin öhdəsinə buraxaraq bir qrup şamaxılı gənclə Qarabağı qorumağa getmişdim. Uzun bir vəsiyyətnamə də yazıb qoymuşdum evdə.

Deməli, gözümün qarşısına almışdım ki, mənə düşmən gülləsi dəyə bilər və ölə bilərəm. Amma, nədənsə, sağ qalacağıma ümidim daha çox idi.

Mübariz İbrahimov isə... O, yüz faizli ölümə getmişdi. Bacardığı qədər düşmən əsgəri öldürüb, sonra ölməyə. Bu, fikrimcə, qəhrəmanlığın ən yüksək zirvəsidir. Belə qəhrəmanlığı hər adam edə bilməz.





Düşmənə xeyli itki verib özü də şəhid olan Mübarizin cəsədini, nəhayət ki, ölümündən dörd ay on səkkiz gün sonra özümüzə qaytardılar. Onun və daha bir qəhrəmanımız Fərid Əhmədovun. Onların cəsədləri doğma Bakımızda torpağa tapşırıldı. Amma, yalnız cəsədləri... İnanıram ki, müqəddəs ruhları Allahın dərgahında, mübarək adları isə xalqımızın qəlbində əbədi yaşayacaq.

Mən isə Mübariz İbrahimova həsr etdiyim bu romanla şəhidlərimizin ruhu qarşısında borcumun lap kiçik bir hissəsini yerinə yetirmiş sayıla bilərəmsə, özümü çox xoşbəxt hesab edərəm.

**Elxan Elatlı**

# Vətənin dar günündə ürəyim dözmür...

*Mübariz*

## PROLOQ

Azərbaycan... Bir xain millətin ucbatından başı həmişə olmazın müsibətlər, bəlalar çəkmiş qədim türk yurdu.

Azərbaycanın bir parçası Biləsuvar...

Biləsuvarın Əliabad kəndi...

1988-ci ilin soyuq fevral ayında bu kənddə bir oğlan uşağı dünyaya göz açdı. Qonur gözlü, ay parçası kimi yaraşıqlı bu körpənin dünyaya gəlişindən Dünya xəbər tutmadı. Çünki o ən adi bir insan övladı kimi, sadə bir türk ailəsində doğulmuşdu.

1988-ci il...

Bu həmin o il idi ki, zaman-zaman, fürsət düşən kimi Azərbaycanın kürəyinə bıçaq saplamağa adət etmiş mənfur ermənilər tərkibində olduqları Sovet imperiyasının zəifləməsindən istifadə edib yenidən





quduzlaşırdılar. Vaxtilə həmin imperiyanın əliylə Azərbaycandan qopardıqları geniş və bərəkətli torpaqlarla kifayətlənməyib, yeni türk torpaqları ələ keçirmək, Azərbaycan xalqının başına daha ağır faciələr gətirmək üçün hazırlığa başlayırdılar.

Amma, deyəsən, həmin vaxt dünya bundan da xəbərsiz idi...

Seyid Ağakərim sübh namazından sonra yataq otağına keçib bir gün əvvəl doğulmuş körpəni qucağına götürdü. Bu, onun iki oğlundan sonra gələn üçüncü övladı idi. İlk dəfə diqqətlə uşağın üzünə göz gəzdirdi. Onda özünə də, həyat yoldaşına da bənzər cəhətlər gördü. Körpə çox sakit idi. Gözlərini atasına zilləyib maraqla baxırdı.

Birdən onun vaxtından əvvəl oyanmış gözlərindəki parıltı gənc atanın diqqətini cəlb etdi. Bu, o biri oğlanlarında görmədiyi yeni, tamamilə fərqli bir şey idi. Uşağı yuxarı qaldırıb bir daha baxdı. Yox, səhv etməmişdi. Uşağın gözlərinin dərinliklərində qəribə bir işıq var idi. Dönüb, bir qədər həyəcanlanmış halda arvadını səslədi:

– Şamama!

Yuxudan ayılsa da hələ yatağından qalxmamış Şamama xanım başını ona tərəf çevirdi:

– Nədi, Ağakərim?

– Bu uşağın gözlərində nəsə tamam fərqli bir şey var.

– Nə var ki?

– Elə bil gözləri nur saçır. Bir sən də bax!

Çarpayıya yaxınlaşıb körpənin üzünü anasına tərəf çevirdi. Bənizi bir qədər avazımış Şamama xanım balasını məhəbbətlə süzüb:

– Uşaqdı də... Qəşəng gözləri var. – dedi.

– Yox, bir yaxşı-yaxşı bax! – Ağakərim əl çəkmədi.

– Hə... – Şamama xanım astadan, təəccüblə dilləndi. – Balaca işıq var gözlərinin dibində.

Ağakərim daha heç nə deməyib, uşağı anasına verərək həyətə çıxdı. Hava təzə-təzə işıqlanırdı. Yaman soyuq idi. Tövləyə tərəf getdi ki, uşağın sağ-salamat doğulması üçün qurban dediyi qoyunu çıxarıb kəssin. Hələ arvadının hamiləliyi məlum olan gündən bu erkəyi Allah yolunda qurban demişdi.

Tövləyə çatanda qapını açıq görüb heyrətləndi. Yəni axşam qapını bağlamamışdımı? Tez içəri girib işığı yandırdı. Gördüyü mənzərə çox acınacaqlı idi. İyirmiyə qədər qoyun-quzu döşəməyə sərilib qalmışdı. Hamısı da boğazından parçalanmış halda...

Başa düşdü ki, bu canavarların işidir. Qış girəndən ac olduqları üçün hər gecə həyətlərə soxulurdu-



F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. №



lar. Axşam başı gəlib-gedənlərə qarışdığı üçün tövlənin qapısını bağlamağı unutmuşdu. Bu da ehtiyatsızlığın nəticəsi...

Birdən gözü tövlənin o biri başında, küncə sığınıb ona baxan qoyuna sataşdı. Bu, yeni doğulan körpəsi üçün qurban dediyi həmin erkək idi. Tövləyə soxulan quduz canavarlar təkcə bu heyvana toxunmamışdılar.

Gözlərinə inanmırmış kimi, bir xeyli dayanıb, salamat qalmış qoyuna baxdı. Sonra tövlədən çıxıb yenicə işıqlaşmağa başlayan həyətdə əllərini göyə açdı:

– Böyüklüyünə min şükür, pərvərdigarım!

Deməyə başqa söz tapmadı. Yenidən evə girib yataq otağına keçdi. Beş yaşlı Bəhruzla üç yaşlı Rəşad sakitcə uyuyurdular. Bir günlük körpə isə gözlərini geniş açıb tavana baxırdı. Adətən yeni doğulan insan övladı az qala bir həftə ətrafında gördüklərinə diqqət yetirə bilmir, üç günlüyündə anasını, on günlüyündə atasını tanıyır. Bu uşaq isə..

Ağakərim səliqə ilə bələnmiş oğlunu qucağına götürüb bir daha zəndlə üzünə göz gəzdirdi. Yox, bu uşaqda nəsə var idi. Elə bir şey var idi ki, Ağakərim hələlik bunu dillə ifadə etməkdə çətinlik çəkirdi.

Gözlərini ona zilləmiş körpənin başı birdən sinəsinə əyildi. Sanki, ömrü boyu Allahdan sonra ikinci



F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 62454

qibləgahı hesab edəcəyi atasının qarşısında baş əymək istəyirdi.

Ağakərim yalnız oğlunun eşidə biləcəyi bir səslə astadan pıçıldadı:

– Ürəyimə damıb ki, sən böyük adam olacaqsan, oğlum! Qurbanı olduğum Allah həmişə sənin üstündə olsun! Elə bir oğul olasan ki, mənim də, ananın da, elimizin-obamızın da başını uca eləyəsən!

Sonra isə Şamama xanıma tərəf dönüb, ucadan:
– Uşağın adını Mübariz qoyuram! – dedi.





# BİRİNCİ BÖLÜM

## *«Ermənistanın Azərbaycana hərbi təcavüzü davam edir...»*

*(Azərbaycandakı televiziya kanallarının hər gün təkrar etdiyi məlumatdan)*

2010-cu ilin mart ayı idi. Bakıda yazın gəlişi özünü yavaş-yavaş göstərsə də havalar soyuq keçirdi. Səkilərdə ora-bura tələsən adamların əksəriyyəti qalın qış paltarlarını hələ soyunmamışdılar.

Amma bu soyuqluq müvəqqəti idi. Bir azdan yaz, daha sonra isə isti yay fəsli gələcəkdi. Səkilərdə, avtobus dayanacaqlarında, bazarlarda görünən insanların üzündəki soyuqluq isə tezliklə keçib gedənə oxşamırdı. Bu adamlara diqqətlə baxılsaydı, hamısının daxilində yatıb qalan acı kədəri oxumaq olardı. Qocaların da, orta yaşlıların da, cavanların da...

Qocalar dünyanın haqsızlığından gileylənirdilər. Tezcə ölüb getmək istəyirdilər bu dünyadan. Orta yaşlılar qocalara paxıllıq edirdilər. Çünki qocalmağa o qədər də ümidləri yox idi. Cavanlar isə cavanlıqlarından bezmişdilər. Qeyrətlilər torpaqlarının düşmən

əsarətində olmasından xəcalət çəkirdilər, o birilər isə barlara getməyə pul tapmadıqlarından.

İşləri pis getməyən, kefi kök, hətta harınlamış adamlar da az deyildi bu şəhərdə. Amma onların gözəl üzlərini görmək üçün mütləq bahalı restoranlara getmək, ya da küçələrin kənarında dayanıb, gəlib-keçən bahalı maşınların içinə baxmaq lazım gəlirdi.

Gəzintidən hərbi məktəbə qayıdan iki kursantın üzündə isə təntənəli bir həyəcan oxunurdu. Onlar Silahlı Qüvvələrin Təlim-tədris mərkəzində kurs keçərək gizir rütbəsi almışdılar və iki gündən sonra keçiriləcək püşkatmada hansı hərbi hissəyə göndəriləcəkləri məlum olacaqdı. Elə, deyəsən, bu dəqiqə həmin püşkatma barədə danışırdılar. Nisbətən alçaqboylu, sarışın gənc əl-qolunu ölçə-ölçə deyirdi:

– Mübariz, inan ki, sənin gücünün onda biri məndə olsaydı, onların ağız-burnunu əzişdirərdim. Püşkatmada Bakıya düşmək üçün Allaha yalvarırlar. Ancaq mənim üçün heç bir fərqi yoxdur. Təki Murovdağ olmasın. Soyuğa dözümüm azdır, ona görə. Yoxsa, indi ciddi müharibə getmir, onsuz da. Atəşkəsdir.

Mübariz adlandırılan oğlan yoldaşından ciddi siması, idmançılara məxsus qəddi-qaməti ilə seçilirdi. Olduqca cəlbedici bir görünüşü var idi. Bu cəlbedicilik onun yerişində də özünü göstərirdi. Qartal qanadlarını xatırladan möhkəm əzələli qollarını yelləyərək təmkinli və inamlı addımlarla yeriyirdi.





Ani olaraq yoldaşına baxıb başını buladı:

– Mən elələrini heç başa düşə bilmirəm. Rahat yer axtaracaqdılarsa, bəs onda niyə gizir olmaq istəyiblər? Amma mən heç inanmıram içimizdə eləsi olsun. Şəxsən mən deyəcəyəm ki, püşkatma-filan lazım deyil, məni Murova göndərin.

– Sənin deməyinə kim baxacaq? – sarışın oğlan çiynini çəkdi. – Bəxtinə hara düşsə, ora da göndərəcəklər.

– Hər halda... – Mübariz bir anlıq fasilə verdi. – Neçə gündü hər namazda Allaha dua edirəm ki, ən çətin yerə düşüm. Səngərə... Həm də atəşkəs ən çox hansı bölgədə pozulursa, oraya.

– Guya elə yerə düşəndə nə edəcəksən ki?

– Demişəm axı sənə!? Vuruşmaq istəyirəm.

– Birincisi, gedən kimi səni səngərə buraxmayacaqlar. Azı dörd-beş ay təlim keçməlisən. İkincisi də bizimkilər atəşkəsi pozmur. Həmişə onlar atəşə başlayırlar. Bizimkilər də elə səngərdən onlara cavab verirlər. Belədə sən təsadüfən birini ya vura bilərsən, ya da yox. Bu səndən asılı deyil.

Mübarizin dodaqlarından kinli bir istehza keçdi:

– Əlimə birinci imkan düşən kimi onların üstünə gedəcəm. Bu mənim çoxdankı arzumdur. Lap uşaqlığımdan bəri...

– Özbaşınasan? – yoldaşı kinayə ilə gülümsədi. – Ya canından bezmisən?

– And içmişəm, o şərəfsizlərdən qisas alacam. Həm də elə bir qisas ki... Göstərəcəm onlara! Qoy görsünlər, analar necə oğullar doğub. Qabağımda dayana bilməyəcəklər. Görəcəksən!

– Pah! Yaxşı, görək! Lap guya səni buraxacaqlar ki, get vuruş!

– Allah mənimlədir! Qalır bircə atam... O da razılıq versə... Yəni, onun xeyir-duasını almasam, çətindir. Bircə qabağımı kəsən odur. Amma onun da razılığını alacam. Mütləq alacam! Qisasımı almayana qədər ürəyim rahat olan deyil. Dözə bilmirəm daha...

– Bəsdir, qurtar sən Allah!

– Dedim də sənə, görəcəksən! Daha doğrusu, eşidəcəksən!

– Düzünü soruşsan, mən də vuruşmaq istəyirəm. Uşaqlarımızın çoxu istəyir. Amma, necə deyim...

Tini buruldular. Mübariz yoldaşının sözünü kəsib, onu saxladı:

– Səlim, bir bu qadına bax! Biz bayaq burdan keçəndə o yox idi.





Onlar məktəbin lap yaxınlığında idilər. Beş-altı addım qabaqda, daş hasarın kölgəsində orta yaşlı bir qadın qoltuq ağacına söykənib dayanmışdı. Onun sol ayağı dizdən bir qədər aşağı yox idi. Ancaq bu qadının acınacaqlı görkəminin səbəbi təkcə bu deyildi. Nimdaş, zövqsüz geyimi, başına bağladığı örpəyin altından çıxan pırtlaşıq, ağ saçları, qırışmış sifəti və kədərli gözləri onun necə bir bədbəxt insan olduğunu daha aydın göstərirdi.

– Hə... – Səlim cavab verdi. – Deyəsən, dilənçidir.

– Bir ayağı yoxdur... – Mübariz köksünü ötürdü və pul çıxarmaq üçün əlini kursant pencəyinin cibinə saldı.

Qadının bərabərinə çatanda onun əcaib baxışlarını görüb diksindi. Mübarizin üzünə zillənmiş bu baxışlardakı ağrı-acı, kədər və heyrət qorxuncluq dərəcəsinə çatmışdı. Qadının boynundan asılmış körpə uşaq yumruğu boyda kirli torba onun görkəmindəki qəribəliyi bir az da artırırdı. Görəsən, bu balaca torbanın içində nə var idi ki, qadın ona ip bağlayıb medalyon kimi boynundan asmışdı?!.

Pencəyinin cibində xırda pul tapmadı. Əlinə gələn beş manatlıq kağız pulu tərəddüd etmədən qadına uzatdı. Qadın pula baxmadan arıq, bir dəri – bir sümük qalmış əlini yuxarı qaldırdı və titrəyən barmaq-

larını Mübarizin üzünə toxundurdu. Bunu görən Səlim yerində qurcuxub bir addım geri çəkildi. Amma Mübariz yerindən tərpənmədi. Qadının baxışlarında elə bir şey görmüşdü ki, üzünü kənara çəkib onun qəlbini qırmaq istəmədi.

Qadın barmaqlarını oğlanın üzündə gəzdirib, sonra əlini aşağı saldı. Mübarizin irəli uzatdığı pulu indi görübmüş kimi xırıltılı səslə:

– Mən dilənçi deyiləm, oğul, səhv salmısan. – dedi.

Mübariz əməlli-başlı pərt oldu:

– Bağışlayın siz Allah, bilmədim...

Addımlarını sürətləndirib qadından aralandı.

– Biabır olduq! – deyə onunla yanaşı addımlayan Səlimin üzünə baxmadan dilləndi.

– Sənin nə günahın var ki? – yoldaşı ona təskinlik verdi. – İndiki dilənçilərin çoxundan daha pis gündədir.

– Gərək mən diqqətli olaydım. O əlini açmamışdı, axı!?

– Amma gözünü sənə yaman zilləmişdi. – Səlim dedi. – Doğrusu, mən bir az qorxdum. Bura bax, onun yaxasındakı torbanı gördün? O nədir, görəsən? Pul qabı?

– Elə pulqabı olar? – Mübariz kinayə ilə dedi.





– Bəs nə olar onun içindəki?

– Mən haradan bilim...

Səlim taqqıltı səsi eşidib geriyə boylandı və Mübarizin qolunu dümsüklədi:

– Arxaya bax, arvad dalımızca gəlir!

Mübariz dönəndə şikəst qadının qoltuq ağacını bərkdən asfalta vura-vura, bacardığı qədər sürətlə onlara tərəf gəldiyini gördü. Qadının baxışlarındakı dəhşətli ifadə hələ uzaqdan onu sarsıtdı. Bu dəfə həmin baxışlarda səssiz bir nalə var idi, fəryad var idi. İçindən sanki bir gizilti keçdi.

– Niyə dayandın, gəl gedək! – Səlim dedi.

Onlar demək olar ki, məktəbin qapısına çatmışdılar.

– Yox, dayan görək, bu nə istəyir...

Səlim bir qədər qorxsa da, nədənsə gülümsədi:

– Sənin dalınca cavan qızların düşdüyünü çox görmüşdüm. Amma beləsini...

Mübariz sərt hərəkətlə dönüb yoldaşına baxdı:

– Danışığına fikir ver, anamız yaşında qadındır!

Qadın gəlib onlara yetişdi. Sürətlə yeridiyi üçün tənginəfəs olmuşdu. Qoltuq ağacına söykənsə də, ayaq üstə güclə dayanırdı. Mübariz onun qolundan tutdu:

– Nə olub, ay ana? Bəlkə sənə bir kömək lazımdır?

– Yox... – qadın güclə dillənib yenə susdu. Arıq, qurumuş sinəsi həyəcandan qalxıb-endikcə balaca, kirli torba yerində yırğalanırdı.

Mübariz də söz tapmadığı üçün susub dayandı. Əgər bu qadına heç nə lazım deyildisə, bəs niyə belə inadla onun arxasınca düşmüşdü? Niyə heyrətli baxışlarını onun üzündən çəkmirdi?

– Adın nədir, bala? – qadın birdən acıqlı səslə soruşdu.

Amma, yox! Bəlkə də onun heç bir acığı yox idi Mübarizə qarşı. Səsi də acıqlı deyildi. Dərd, qubar, bir də heyrət var idi səsində.

– Adım Mübarizdir...

– Haradansan?

Mübariz bu sualdan heç vaxt xoşlanmazdı. Həmişə yoldaşlarına da deyirdi ki, qolu-qanadı kəsilib-tökülmüş bir yaralı Azərbaycanımız var, onu da özümüz hissə-hissə kəsib bölürük. İndi də bir qədər ciddi ahənglə:

– Nə fərqi var ki?! – dedi. – Azərbaycanlıyam. Türkəm.

Qadının birdən-birə gözləri doldu:

– Daha niyə hirslənirsən? Mən bədbəxt də azərbaycanlıyam. Ancaq doğulduğum torpağım, elim-obam da var. Zəngilandanam... Yazıq vətənim! Erməni dığaları indi belədən-belə tapdalayıb keçirlər üstündən. Ağlaya-ağlaya qalıb torpağım.





Bir qədər sakitləşdi. Başını döndərib Səlimə, sonra yenə Mübarizə baxdı:

– Maşallah, pələng kimi oğlansan. Azərbaycanın oğulları hamısı pələng kimidir. Hamısı qəhrəmandır. Ancaq yenə bilmək istədim, haranın suyunu içmisən?

Mübariz kobud cavabına görə peşman olub qızardı:

– Biləsuvardanam...

– Hə... – qadın başını tərpətdi. – Deməli, Biləsuvar pələngisən. Maşallah, bu paltar da yaman yaraşır sənə. Atan-anan var?

– Bəli, var.

– Allah qurbanlarını qəbul eləsin!

Qadının danışığı da özü kimi, baxışları kimi qəribə idi. Səlim Mübarizin qoluna toxundu:

– Gedək!

Mübariz yoldaşına əhəmiyyət verməyib, bacardığı qədər mehribanlıqla dilləndi:

– Ana, bəlkə bizdən istədiyin bir şey var? Nə edə bilərəm sənin üçün?

– Var! – qadın birdən səsini qaldırdı.

Gözləri az qalırdı yerindən çıxsın. Boynundan asılmış torbanı qamarlayıb nalə çəkdi:

– Zəngilanı istəyirəm sizdən! Zəngilanı! Qoymayın düşməndə qalsın. Alın verin mənə! Tabım qalmayıb daha! O biri rayonları da alın, qoymayın onlarda qalsın! Ya bacarırsınız məni aparın Zəngilana, diri-diri basdırın orada! Bezmişəm daha! Dağılsın belə dünya! Dağılsın belə zəmanə!

Qadının ağzı köpüklənməyə başladı. Bundan qorxuya düşmüş Səlim bir daha Mübarizin qolundan dartdı:

– Gəl gedək, işimiz-gücümüz var!

– Gedin! – qadın bir az da səsini qaldırıb, qurumuş əlini havada yellədi. – Gedin işinizə-gücünüzə! Gedin ananızın qucağına, tumarlasın başınızı! Gedin pul yığın, ev tikin, maşın alın, kef eləyin. Bir gün gəlib sizin də əlinizdən alacaqlar hamısını. İki mərtəbəli evim qaldı Zəngilanda. Hər şeyim qaldı. Ərim qaldı, körpə balam qaldı... Mən gedib almalıyam o torpaqları bu tək ayağımla! Gedin də, nə durmusuz? Gedin, işinizə-gücünüzə!

Mübariz təəssüflə köksünü ötürüb ondan aralandı və Səlimlə birlikdə hərbi məktəbin qapısına tərəf





addımladılar. Qapıya çatanda dözməyib yenə arxaya baxdı. Qadın da asta-asta onların dalınca gəlirdi.

Məktəbin həyətinə girdilər.

– Gedək, yeməyimizi yeyək. – Səlim dedi.

Mübariz yaman fikirli görünürdü.

– Sən get, mən də gələcəm.

Səlim ondan ayrılıb yeməkxanaya tərəf getdi. Mübariz isə, sanki, yerində quruyub qalmışdı. Şikəst qadının dediklərini heç cür beynindən çıxara bilmirdi. Görəsən, niyə onun dalınca düşmüşdü bu bədbəxt qadın? Nə istəyirdi? Niyə elə qəribə danışırdı? «Allah qurbanlarını qəbul eləsin...» Nə demək istəyirdi bu sözlərlə?

Heç belə alqış eşitməmişdi indiyədək. Bu qadın Mübarizin ata-anasını tanımırdı. Nə bilirdi ki, onlar nəsə qurban deyiblər, ya yox... «Allah qurbanlarını qəbul eləsin...»

Hələ ona pələng də dedi. Biləsuvar pələngi... Əslində, şikəst qadının bu sözləri gənc, həm də güclü və hazırlıqlı döyüşçü olan Mübarizin xoşuna gəlmişdi. Amma onun fikrincə, bu ifadə ilə indiki mövcud vəziyyət arasında böyük bir uyğunsuzluq var idi. Çünki, pələngin oylağında heç vaxt çaqqal-çuqqal gəzib ağalıq edə bilməzdi və əgər hazırda vəziyyət belə idisə, deməli, bu hal dünyanın ən məntiqsiz, ən qəribə əməli sayılmalıydı.

# İKİNCİ BÖLÜM

*Uzun, incə bir yoldayım,*
*Gediyorum gündüz-gecə.*
*Bilmiyorum nə haldayım,*
*Gediyorum gündüz-gecə...*

**Aşıq Veysəl**

Dəhşətli Xocalı faciəsi baş verəndə, Azərbaycanın rayonları dalbadal, xaincəsinə işğal olunanda o hələ uşaq idi, ağlı kəsmirdi. Amma böyüdükcə xain düşmənlərin Vətəninin, millətinin başına gətirdiyi faciələri eşitdi və qəlbində bu düşmənlərə nifrət toxumları cücərməyə başladı.

Qisas eşqini də elə o vaxtdan gəzdirirdi ürəyində. Altı, ya yeddi yaşı olardı. Bir gün Yaqub dayısı ilə söhbətdə yana-yana dedi:

– Kaş ki böyük olaydım, bir dənə də avtomatım olaydı. Gecə vaxtı gedib erməni əsgərlərinin hamısını qırardım.

Dayısı güldü:

– Yaxşı kino danışırsan. Belə kinolardan mənim də xoşum gəlir.





Balaca Mübariz o vaxt yaman incimişdi:

– Mən düzünü deyirəm, dayı. Avtomatım olsa, vallah, gedərəm...

Onda hərbi işə, sanki, anadangəlmə bir həvəs var idi. Sonra bir müddət idmana yönəldi bu həvəs. On üç yaşı olanda böyük qardaşı Bəhruza qoşulub Biləsuvar şəhərindəki boks dərnəyinə getdi. İdmanla ciddi məşğul olmağa başladı.

Düşmənlərə nifrəti isə getdikcə artırdı. Onların işğal olunmuş rayonlarda törətdiyi vəhşilikləri eşitdikcə qəlbi alovlanır, qisas arzusu güclənirdi. Xocalıda insanların diri-diri yandırılması, başlarının, burunlarının, qulaqlarının kəsilməsi, meyidlərin təhqir edilməsi səhnələrini gözləri önündə canlandıranda damarlarında qanı donurdu, sanki.

Amma susub hər şeyi ürəyinə salırdı. Neyləyə bilərdi axı? Uşaq idi hələ. Gününün bir hissəsi məktəbə gedib-gəlmək, dərslərini hazırlamaq, qoyun-quzuları otarmaqla keçirdi. Qalan vaxtlarını isə idmana həsr edirdi. Küçəyə-filana çıxmaqla, tay-tuşlarına qoşulub harasa getməklə heç arası yox idi. Həyətin bir küncündə ordan-burdan tapıb gətirdiyi dəmir-dümürlə turnik, ştanq, paralel qollar və başqa idman alətləri düzəltmişdi. Bütün boş vaxtlarını bu balaca idman meydançasında keçirir, durmadan məşq edir-

di. Məqsədi isə aydın idi: Boks yarışlarında Azərbaycanın bayrağını göylərə qaldıracaqdı.

Əsgərlik yaşı çatanda onu da hərbi xidmətə çağırdılar. Bakıda Daxili Qoşunların xüsusi təyinatlı hərbi hissəsində xidmət etdi. Orada bir az da bişib-bərkidi, silahlarla davranmağı dərindən öyrəndi, əlbəyaxa döyüşün sirlərinə yiyələndi. Xidməti başa vuranda artıq əsl döyüşçü kimi yetişmişdi. Heç nədən, heç kəsdən qorxusu yox idi.

Hələ əsgərliyə getməmiş də, tay-tuşları arasında bir münaqişə olanda həmişə haqqı-ədaləti müdafiə edirdi. Mən acizin dostu, zalımın qənimiyəm, deyirdi. Hərbi xidmət müddətində də bu xarakterinə sadiq qaldı. Əsgərlər arasında hər hansı qarşıdurma baş verəndə mütləq acizin, haqlının tərəfində dururdu. Belə hallarda bəzən kimlərisə vurub yerində oturtmağa məcbur olmuşdu. Əsgərlər də, komandirlər də onu sevirdilər. Ancaq, təbii ki, qulaqburması verdiyi əsgərlərdən ona qarşı kin saxlayanlar da var idi.

* * *

Xidmətini bitirib hərbi hissədən çıxdığı gün yaxınlıqdakı xəlvət səkidə iyirmiyə qədər şəhər uşağı





qarşısını kəsdi. Dərhal bildi ki, bu cavanları kim yığıb gətirib onun üstünə. Bir fağırı müdafiə edərkən həmin əsgər yoldaşını əzişdirməyə məcbur olmuşdu. O isə... Yəqin qisasını bu günə saxlayıbmış...

Dəstənin önündə üzdən narkomana bənzəyən bir oğlan dayanmışdı. Əlində tutduğu bıçağı oynadaraq:

– Mübariz sənsən, alə? – deyə soruşdu.

– Hə, mənəm, – Mübariz sakitcə dedi. – Nə lazımdır?

– İndi görəcəksən nə lazımdır. Özünə çox arxayınsan, deyəsən.

Mübariz gülümsədi:

– Bu saat vuruşmağa yaman həvəsim var. Amma, sizinlə yox! Kaş sizdən də bir az çox erməni gələydi üstümə.

– Başından böyük danışma, alə!

Oğlan bunu deyib Mübarizi vurmağa cəhd göstərdi. Elə həmin anda da Mübariz fənd işlədib bıçağı onun əlindən aldı. Çənəsinə endirilmiş yumruğun təsirindən səntirləyən oğlanı arxadakı yoldaşları tutmasaydı, yəqin ki, yıxılacaqdı.

Mübariz bıçağı kənara tullayıb, əlbəyaxa döyüş vəziyyəti aldı:

– Vallah, sizə yazığım gəlir...

Elə bu vaxt haradansa xəbər tutmuş beş-altı əsgər hərbi hissənin darvazasından çıxıb, qaçaraq kö-

məyə gəldilər. Onlardan biri Mübarizin qarşısını kəsən dəstəyə üzünü tutub:

– Deyəsən, sümüklərinizin sınmağını istəyirsiniz, hə? – dedi.– Heç bilirsiniz kimə sataşırsınız? Bu oğlan peşəkar boksçudur. Nə qədər ki, şil-küt olmamısınız, yaxşısı budur, əkilin burdan!

Bu sözlərdən sonra daha Mübarizin yumruqlarını işə salmasına ehtiyac qalmadı. Qorxuya düşmüş cavanlar çəkilib getdilər.

* * *

İndi 2010-cu ilin mart ayı idi...

Mübariz hərbi məktəbin həyətində məqsədsiz halda o baş-bu başa gezişirdi. Fikirləri tamam qarışmışdı. Daha çox isə bayaq arxasınca düşüb darvazanın qarşısına qədər gəlmiş şikəst qadın barədə düşünürdü.

Düz on səkkiz il əvvəl, 1992-ci ilin martında isə...

İyirmidən çox erməni yaraqlısı Xocalıdan əsir alınmış iki azərbaycanlı türk gəncini dövrəyə almışdılar. İyirmi – iyirmi beş arası yaşları olan bu gənclərin ikisi də boylu-buxunlu, qüvvətli gənclər idilər.

Erməni dəstəsinin başçısı olan saqqallı kişi onların qarşısında durub, görünməmiş bir həyasızlıqla, gülə-gülə deyirdi:

– İndi bizim üçün öz əsgər marşınızı oxuyacaqsınız! Başlayın, görək!

Əsirlərin hər ikisini insafsızcasına döymüşdülər. Birinin üzündəki yaradan qan axırdı. Saqqallıya nifrətlə baxıb, birinci olaraq, o dilləndi:

– Ay sən öləsən!

Onları yenə döyməyə başladılar.Üstlərinə tökülüb, təpiklə, dəyənəklə haraları gəldi vururdular.

Sonra hər ikisini ayağa qaldırıb, əsgər marşını oxumağı bir daha tələb etdilər. Əsir gənclər isə inad göstərib susurdular. Başçı birdən nə düşündüsə, üzü yaralanmış gənci qarşısına gətizdirdi. Aşağı əyilərək öz ayaqqabısının üstünə tüpürdü və gəncə:

– Diz üstə çök, yala bunu! – dedi.

Əsir gənc üz-gözünü ikrahla turşutdu:

– Nə dedin, it oğlu?!

– Yala dedim bunu! – Başçının gözləri iblisanə gülüşlə parıldadı.

Gəncin hər iki qolundan bərk-bərk tutmuşdular. Sinəsi qəzəbdən sürətlə qalxıb-enir, ürəyi sanki köksünə sığışmırdı:

– Sənin nəslinin – kökünün..!

Saqqallı, sanki, onun söyüşlərini eşitmirdi. Çox sakit idi:

– Yalamasan, bu saat başını qoyun başı kimi kəsəcəm!

Hiss olunurdu ki, qüvvətli gəncə daha çox əzab verən çarəsiz vəziyyətdə olmasıdır. Dartınıb onu tutanların əlindən çıxmaq istəsə də, döyülüb zəiflədiyi və xeyli qan itirdiyi üçün bu alınmırdı. Birdən başını qaldırıb, gözləri ilə səmada nəsə axtararaq, dəli kimi çığırdı:

– Bu nə gündür qaldıq, Allah?! Haradasan sən?! Gör bir kim mənə nə deyir! Kim!? Öz torpağımda məni təhqir edirlər, Allah, haradasan?!

Başçı, deyəsən, gəncin naləsindən narahat olmuşdu. O da bir anlıq başını qaldırıb səmaya baxdı. Sonra isə əsəbi halda:

– Qara-qışqırıq salma burada! – dedi. – Onsuz da səsini eşidən yoxdur. Tez ol, qurumamış yala bunu dilinlə!

Ayağını bir az da qabağa sürüşdürdü. Qollarından tutanlar gəncin başından aşağı basırdılar ki, əyilib komandirin ayaqqabısındakı tüpürcəyi yalasın. Gənc isə inad göstərib özünü dik saxlamağa çalışırdı.

Birdən başını silkələyib düşmənlərinin əlindən





çıxartdı. Qəzəb və nifrətlə başçıya baxıb qışqırmağa başladı:

– Heç darıxmayın, bizimkilər mənim qisasımı alacaqlar. Sizin ananızı ağlar qoyacaqlar! Eşidirsən?! Sizin kökünüzü kəsəcəklər! – Nəfəsi tükəndiyi üçün bir anlıq fasilə verdi. – İndisə, öldürün məni! Öldürün, donuz qarnından çıxanlar! Öldürün! Sizin hamınızın...! Öldürün! Nə durmusunuz, öldürüüün!!!...

Birdən səsini kəsib, qəflətən saqqallı başçının üzünə tüpürdü. Bundan qəzəblənən saqqallı kəmərinə taxdığı iri bıçağı çıxarıb adamlarına gənci yerə yıxmağı əmr etdi.

Əsgərlər artıq öz taleyi ilə barışıb susmuş oğlanı yerə yıxıb başını geri dartdılar. Başçı o biri azərbaycanlı gəncin gözü qarşısında bıçağı onun boğazına çəkdi. Kəsilmiş damarlardan sıçrayan qan ikinci əsirin ayaqlarını tamam qana buladı.

Boğazı kəsilmiş gənci buraxıb kənara çəkildilər. İkinci əsir isə donub yerində qalmışdı. Qarşısında çabalayan yoldaşına dəhşətlə baxırdı. Boğazı kəsilmiş gənc son dəfə ayağını tərpədərək, nəhayət, tamam sakitləşdi. O artıq ölmüşdü...

Bundan sonra başçı ikinci əsiri qarşısına gətizdirdi. Əvvəlcə əlindəki qanlı bıçağı onun gözləri qarşısında oynatdı. Qəzəb dolu baxışlarını oğlanın qor-

xudan ağarmış sifətində gəzdirdi. Sonra yenə öz ayaqqabısının üstünə tüpürüb:

– Yala, köpək oğlu! – dedi.

Oğlan qorxu və həyəcandan titrəyirdi. Bədənini əməlli-başlı uçunma tutmuşdu.

– Səninləyəm! – başçı çığırdı.

Əsir gənc qətiyyən özündə deyildi. Ölüm qorxusu onun bütün vücuduna hakim kəsilmişdi. Bu anlarda, yəqin ki, yalnız yaşamaq barədə düşünürdü. Yaşamaq! Həyat eşqi beynindən hər şeyi sıxışdırıb çıxarmışdı. Heç nə barəsində düşünə bilmirdi. Ölüm qorxusu hər şeyini əlindən almışdı.

Bəlkə elə buna görə də arxasında dayanan əsgərlər başından tutub aşağı basanda diksinib dəhşətə gəldi. Bircə saniyə gecikərsə həyatını itirəcəyindən qorxub müti halda yerə çökdü və iyrənc hesab etdiyi tüpürcəyi tələsik halda yalamağa başladı...

– Bax, belə ha! – başçı vəcdə gəlib ucadan çığırdı. – Bax belə! Sizin hamınızı bir-bir belə edəcəm!

Oğlanın başını buraxanda qalxıb kənara çəkildi. Dizləri üstə yerə çöküb başını torpağa qoydu və hönkürtü ilə ağlamağa başladı. Onun qırıq-qırıq dediyi sözləri özündən başqa heç kim ayırd edə bilmirdi:

– Məni niyə dünyaya gətirdin, ana?.. Niyə gətirdin bu oğraş dünyaya?... Niyə?!...





Başçı birdən tapançasını çıxarıb ona yaxınlaşdı və güllə ilə kürəyindən vurdu. Oğlanın sözü ağzında qaldı. Həmişəlik susaraq boğazı kəsilmiş yoldaşından bir metr kənarda torpağa sərildi...

* * *

Ermənilərin özlərinin lentə aldığı bu kadrları Mübariz də görmüşdü və həmin iki gəncin qisasını almaq istəyirdi. Öz doğma torpaqlarında öldürülmüş həmin iki gəncin. Sona qədər qətiyyət göstərib boğazı kəsilənin də, təhqir edilib, alçaldılıb, sonra öldürülənin də...

* * *

Daxili qoşunlardakı xidmətini çavuş rütbəsində bitirib Biləsuvara qayıdan kimi atasına dedi ki, döyüşə getmək istəyir.

– Nə döyüş? – Ağakərim təəccübləndi. – İndi atəşkəsdir axı!?

– Nə olsun atəşkəsdir? Torpaqlarımız ki, ermənilərin əlindədir!?

– Hər halda, hələ biz müharibə etmək fikrində deyilik. Prezidentimiz torpaqların dinc yolla qaytarılma-

sı üçün danışıqlar aparır. Deyirdin sənə iş təklif ediblər Bakıda. Yaxşısı budur get işlə.

Mübarizə Bakıdakı firmaların birində mühafizəçi işi təklif etmişdilər. Amma o bu işə heç maraq göstərmirdi. İstəyirdi ki, atasının xeyir-duasını alıb döyüş bölgəsinə getsin. Yəni, birbaş səngərə. O, atasını öz böyüyü, qibləgahı hesab edirdi və onun razılığı olmadan bunu edə bilməzdi. Onun ürəyinin dərinliyində düşmənə olan sonsuz nifrəti və qisas arzusunu duymuş ata isə oğlunun yenidən hərbi işə qayıtmasına razı deyildi:

–Yox, oğlum, get Bakıda işlə! Vaxt gələr, əgər lazım olarsa, hamı ilə birlikdə sən də gedərsən döyüşə.

Çarəsiz qalan Mübariz Bakıya qayıdıb altı aya qədər mühafizəçi işlədi. Yaxşı da əmək haqqı alırdı. Amma, nəhayət, başa düşdü ki, bu iş onluq deyil. O, yalnız bir idarənin qapısı ağzında dayanıb oranı qorumaqla rahat ola bilməzdi. İstəyirdi ki, səngərdə olsun. Düşmənlə üz-üzə dayansın.

İşdən çıxıb rayona getdi. Yenə dedi ki, Milli Orduda qulluq etmək istəyir. Çalışdı ki, atasını dilə tutub onu razı salsın. Atası isə razılaşmırdı. Nəhayət, onun susduğunu görüb rayonun hərbi komissarlığına getdi. Bildirdi ki, əsgərliyi çavuş rütbəsində bitirib. Yenidən hərbi işə qayıdıb, birbaş döyüş xəttində xidmət etmək istəyir. Komissarlıqda əvvəlcə ona rədd cavabı verdilər. Sonra isə əl çəkmədiyini görüb, başladılar müxtəlif sənədlər tələb etməyə. Mübariz bu sənədləri də topladı. Bundan sonra komissarlığın məsul işçisi, axır ki, ona qəti sözünü dedi:





– Mübariz, görürəm, çox qeyrətli oğlansan. Könüllü döyüşmək istəyirsən. Ancaq, indi səngərdə sənə ehtiyac yoxdur. Nə vaxt Ali Baş Komandanımız müharibə əmri versə onda səni özümüz çağırıb cəbhəyə göndərəcəyik.

O gün Mübariz komissarlıqdan evə çox hirsli vəziyyətdə qayıtdı. Əziyyətlə topladığı sənədləri cırıb tulladı və deyinməyə başladı:

– Mən düşmənlə döyüşə getmək istəyirəm, bunlar mənim qabağıma kötük atırlar. Guya ki, nə istəyirəm bunlardan! Ölümə gedirəm də! Kefə getmirəm ki?!...

Sonra bir daha anladı ki, ata-anasının xeyir-duasını almadan arzusuna çata bilməyəcək. Əsas da atasının. Anası bir söz demirdi, əslində. Yəni, o da bildirirdi ki, Mübarizin əsas böyüyü atasıdır. Atanın sözü bu ailədə həmişə qanun olmuşdu və yenə də hər şey onun bir kəlmə sözündən asılı olacaqdı. Bircə kəlmə... Kaş bircə kəlmə deyəydi ki, get bala, get

düşmənə göstər hünərini. Get, Allah yolunu açıq eləsin!

Atası isə tamam başqa söz dedi:

– Mübariz, demirdin ki, idmanda bayrağımızı qaldırmaq istəyirsən? Get Bakıya, boks yarışlarında iştirak elə. Hər ay iki yüz manat pul göndərəcəm sənə. Yəqin ki, onunla dolana bilərsən.

Hə, doğrudan da, belə bir arzusu var idi. İdmanda uğurlar qazanmaq. Azərbaycanın bayrağını dünyanın gözü qarşısında qaldırmaq. O, öz gücünə inanırdı və bilirdi ki, bu yolda dünya çempionluğuna qədər gedib çıxa bilər.

Atasının sözünü eşidib Bakıya gəldi. İki ay ciddi şəkildə boks məşqlərində iştirak elədi. Artıq o, Azərbaycanda ən ümidverici boksçulardan biri idi. Atası da sözünün üstündə durub ona hər ay iki yüz manat pul göndərirdi.

İki aydan sonra birdən-birə imtina etdi bu puldan. Utanırdı xərclədiyi pulları özü qazanmadığı üçün. Qardaşı Bəhruza qoşulub fəhlə işləməyə başladı. Bibi-Heybət məscidinin həyətində işləyirdi. Gecələr də məscidin həyətində, arxa tərəfdəki otaqların birində qalırdı qardaşı ilə.

Onda artıq bütün qayda-qanunu ilə namaz qılmağa başlamışdı. «Quran-i Kərim»i oxuyurdu. İslamı





dərindən öyrəndikcə kafirlərlə vuruşmağın savab, bu yolda şəhid olmağın ən yüksək zirvə olduğunu bir daha dərk edirdi.

Onun doğma torpaqlarını işğal edib, burada vəhşiliklər törədən ermənilər isə üzdə bir olan Allaha ibadət etmələrinə baxmayaraq, daxildə əsl kafir idilər.

* * *

Yenə 1992-ci il... Soyuq fevral ayı...

Dünyanın ən ədalətsiz, ən ağlasığmaz, ən qanlı işlərindən biri bu ilin bu ayında baş vermişdi. Onda Mübarizin cəmi dörd yaşı var idi.

Xocalı çölləri meyidlərlə doludur. Qocaların, cavanların, uşaqların meyidləri ilə... Heç bir günahın sahibi olmayan, yalnız türk olduqları üçün vəhşicəsinə öldürülmüş insanların meyidləri ilə...

Operator Çingiz bu dəhşətli görüntüləri lentə almağa çalışır. Ağlaya-ağlaya... Baxa bilmir bəzi meyidlərə. Baxmaq heç mümkün də deyil kafirlərin bu əməlinə.

Körpə uşağın bədənində neçə güllə yarası. Qadınların bədənində ağlasığmaz işgəncə əlamətləri. Burunları, qulaqları kəsilmiş meyidlər...

* * *

Mübariz qəhrəman operatorun lentə aldığı bu kadrları da görmüşdü. Çox tez-tez xatırlayırdı bu görüntüləri. Xatırlayırdı və hər dəfə də onların qisasını alacağına ürəyində and içirdi.

* * *

Nəhayət, boks yarışlarında Azərbaycanın bayrağını qaldırmaq vaxtı gəlib çatdı. Amma onu yarışlara gedəcək komandanın tərkibinə salmadılar. Həmin vaxt özünü rəqiblərinin çoxundan hazırlıqlı bilən və komandaya düşməməsini haqsızlıq kimi qiymətləndirən Mübariz eyni zamanda duydu ki, bu əsl arzusuna çatmaq yolunda Allahın ona bəxş etdiyi şansdır. Çünki hər dəfə namazdan sonra Allaha üz tutub yalvarırdı ki, onu arzusuna çatdırsın. İmkan versin ki, torpaqlarını zəbt etmiş düşməndən qisas ala bilsin. Yalvarırdı ki, atasının ürəyinə insaf salsın və atası da ona bu yolda xeyir-dua versin.

Kəndə qayıdıb atasına dedi ki, daha idmanla birdəfəlik qurtardı. Bildirdi ki, birbaş səngərə getmək istəyir.





Atasını razı salmaq üçün ona əməlli-başlı yalvarırdı:

– Ata, sənə qurban olum, məni az da olsa istəyirsənsə, razı ol! Axı mənim istədiyim ancaq budur. İdmanda qaldıra bilmədiyim bayrağımızı döyüşdə qaldırmaq istəyirəm.

Hərbi komissarlığa getdi. Yenə onu döyüş bölgəsinə göndərmək istəmədilər. Bu dəfə başa düşdü ki, burada da atasının sözünə görə qəbul etmirlər onun ərizəsini. Yenə evə qayıdıb atasını dilə tutmağa çalışdı:

– Ata, başa düş, mənim ürəyim sıxılır. Ürəyim deyir ki, sənin rahatlığın ancaq orada, o dağlardadır. Səngərdədir. Burax gedim!

Atası susurdu.

– Sənə qurban olum, ata, burax gedim. Xeyir-dua ver!

Anası onun kövrəlməsinə dözə bilməyib söhbətə qarışdı:

– Ay Ağakərim, uşağı incitmə, qoy ürəyi nə istəyir onu da eləsin.

Atası bir xeyli susub, nəhayət, ağır-ağır dilləndi:

– Mübariz, sən elə bilmə ki, mən Vətəni, torpağı səndən az istəyirəm. Qətiyyən! Ancaq sənin dediyinə də razı ola bilmərəm. Sən elə səngər-səngər deyib durursan. Gözünü qan tutub sənin. Səngərə gedib ney-

ləyəcəksən? Lap tutaq ki, birini-ikisini öldürdün, özün də şəhid oldun. Bunun vətənə nə xeyri olacaq? İndi ki hərbi işə belə həvəsin var, get hərbi məktəbdə oxu, təhsilini artır. Qoy rütbən böyüsün. Tabeliyində çoxlu əsgər olsun. Ondan sonra döyüş olarsa, döyüşərsən, qisasını alarsan. Get elə daxili qoşunların məktəbində oxu. Mən bundan artıq sənə heç nə deyə bilmərəm.

Mübariz gördü ki, birbaşa səngərə getmək arzusu baş tutan arzuya oxşamır. Odur ki, atası ilə qismən razılaşmağa məcbur oldu:

– Onda gizirlik kursuna gedəcəm. Mən hərbidə xidmət etmək istəyirəm, daxili qoşunlarda yox. Orada olsam məni uzaqbaşı qanunsuz mitinq, ya daxildə münaqişə-filan olan yerlərə göndərəcəklər. Ancaq mən düşmənlə vuruşmaq istəyirəm.

Sonra bir qədər susub, məzəmmətlə başını buladı:

– Siz övladınıza bu qədər bağlı olmayın. Vallah, bu günahdır. Siz məni elə bil Allahdan da, Vətəndən də çox istəyirsiniz. Belə olmaz axı!? Birinci gərək Allahı sevəsən, sonra Vətəni, sonra övladını...

Atası onun sözlərinə gülümsədi:

– Bunları səndən yaxşı bilirəm. Allaha da qurban olum, Vətənə də. Amma sənin borcun atanın sözün-





dən çıxmamaqdır. Nə deyirəm, ona əməl et. Vaxt gələr, mənim haqlı olduğumu görərsən.

Mübariz, nəhayət, atasının razılığını alıb sənədlərini həmin bu gizirlik kursuna verdi. İndi isə artıq kursu bitirib gizir rütbəsi almışdı. İki gün sonra hansı hərbi hissənin sərəncamına göndəriləcəyi məlum olacaqdı.

* * *

Gizirlik kursunda öz gücünü və hərbi biliyini bir az da artırmışdı. Eyni zamanda düşmənə olan nifrəti də artmış, qisas eşqi güclənmişdi.

Bu yaxınlarda Müdafiə Nazirliyi «Erməni xəyanəti» adlı bir kitabı hərbi hissələrə və məktəblərə yaymışdı. Bu kitabı Mübariz də oxudu və dəhşətə gəldi. O, bu vaxta qədər ermənilərə yalnız 1988-ci ildən sonra etdikləri cinayətlərə görə nifrət edirdi. Amma Teymur Əhmədovun həmin kitabını oxuyandan sonra bu quldurların keçən əsrin əvvəllərində törətdikləri daha ağır cinayətlərlə tanış oldu. Ermənilərin həmin illər Göyçədən, Zəngəzurdan tutmuş Bakıya qədər bütün bölgələrdə etdikləri vəhşiliklər heç nəyə sığmırdı.

Şəhərlərin, kəndlərin dağıdılması, yandırılması,

acgözlüklə talan edilməsi... Hansı kənddəsə məscidə pənah gətirmiş dörd yüz insanı diri-diri yandırmışdılar.

Tarix necə də təkrar edilirmiş...

Mübariz hiddətini güclə boğurdu. Düşmən necə də kinli, necə də həyasız idi. Yüz ildən çox müddətdə türklərə qarşı kinləri soyumamışdı onların. Azərbaycanın torpaqlarına sahib olmaq üçün dəridən-qabıqdan çıxmışdılar.

Bax, həmin bu məsələ, yəni, erməni xəyanətinin, erməni düşmənçiliyinin tarixi olması, əbədi olması fikri onun nifrətini daha da alovlandırmışdı.

Mübarizin şəxsi fikrincə, insanlıq simasını itirmiş, Allahı unutmuş bu quldur toplusuna nə xahiş-minnət, nə təbliğat, nə də hədə-qorxu təsir etməyəcəkdi. Onlara yalnız güllə lazım idi. Yalnız odlu güllə onların ürəyindən türkə qarşı olan xəbisliyi, xəyanəti çıxara bilərdi.

İndi daha qəti surətdə and içmişdi ki, nəiyn bahasına olursa-olsun, düşmənlə üzbəüz dayanan səngərə gedib çıxacaq, əlinə ilk fürsət düşən kimi bu qansızlardan qisas alacaq. Dualarında yenə Allaha yalvarırdı ki, onun bu arzusunu yerinə yetirsin.

Tək bircə qorxusu vardı. Qorxurdu ki, döyüşdə şəhid olarsa, ata-anası əzab çəkər, pis günlərə qalar.





Odur ki, hər dəfə evə zəng vuranda onları hazırlamağa çalışırdı. İstəyirdi ki, məqam yetişəndə valideynlərinin hər ikisi onun Vətən yolunda şəhid olacağı fikriylə barışsınlar. Onda Mübariz arxayın olardı ki, başına bir iş gələrsə, ata-anası dərd çəkməyəcək, əksinə, onunla qürur duyacaqlar.

Əsas atası idi. Atası ona xeyir-dua verib döyüşə göndərsəydi bununla anası da barışacaqdı.

Bəs görəsən o qız?... O necə qarşılayardı Mübarizin şəhid olması xəbərini?

* * *

O qız barədə, o qıza olan ilahi eşqi barədə hələ heç kəsə bir söz deməmişdi. Özü də o qızın nə adını, nə də Bakıdakı ünvanını bilmirdi.

Əsgəri xidmətdə olanda görmüşdü o qızı. Qız Mübarizin tanımadığı əsgər yoldaşlarından birinin bacısı idi. Görüş günlərinin birində anası ilə həmin əsgərin görüşünə gəlmişdi.

Mübariz heç vaxt qadınlara, qızlara baxmırdı. Naməhrəmə baxmağı günah hesab etmişdi ağlı kəsəndən. Əsgərliyə qədər də, ondan sonra da. Yoldaşları ilə küçəyə çıxanda yanlarından keçən qızlar çox vaxt ona diqqət yetirirdilər. Bunu duyan Mübariz üzünü

yana çevirir, bəzən də papağını yana çəkib üzünü gizlətməyə çalışırdı.

Hərdən də bacısının olmamasına təəssüflənirdi. Bacısı olsaydı, Mübariz ona arxa durardı. Onun üçün bir-birindən gözəl hədiyyələr alıb sevindirərdi onu.

Həmin qızı da birinci dəfə görəndə ürəyindən keçdi ki, kaş bu qız onun bacısı olaydı. Əlbəttə, öz xarakterinə sadiq qalaraq o qızın da üzünə baxmayacaqdı. Bu, tamam təsadüfi oldu. Qızın baxışlarını üzündə hiss edib döndü və baxışları ani olaraq toqquşdu. Qızın iri, ala gözləri, hörülüb kürəyinə atılmış uzun, qara saçları var idi.

Mübariz onda baxışlarını dərhal qızdan çəkdi. Amma yanında dayanmış yoldaşı nəsə hiss etmişdi. Gülümsəyib:

– Mübariz, nə yaman qızardın? – dedi. – Gözəl qızdır, hə? Həm də sənə yaman baxırdı.

– Yaxşı, eyibdir! – Mübariz ona acıqlandı.

– O oğlanı tanıyıram. – yoldaşı dedi. – Qız da onun bacısıdır. Bakıda olurlar. Yəqin gələn həftə yenə gələr görüşə.

– Mənə dəxli yoxdur bunun.

Mübariz bunu deyib yataqxanaya tərəf getdi.

Amma növbəti görüş günü yenə, özündən asılı olmayaraq, əsgərlərlə valideynlərin görüşdüyü yerə gəldi. Həmin qız yenə anası ilə gəlmişdi. Yenə baxışları toqquşdu. Bu dəfə Mübariz baxışlarını bir qədər gec çəkdi. Amma yenə də öz hərəkətindən peşman olub oradan uzaqlaşdı.





O vaxt hərbi xidmətini bitirməyə az qalmışdı. Həmin qızı daha görə bilmədi. Amma heç unuda da bilmədi. Yenidən Bakıya qayıdıb altı ay mühafizəçi işləyəndə və sonrakı vaxtlarda həmin qızla eyni şəhərdə yaşamasından təskinlik tapırdı.

Bir dəfə istədi ki, qızın qardaşını tanıyan əsgər yoldaşının köməyilə qızı axtarıb tapsın. Amma tez də fikrini dəyişdi. Həmin vaxt artıq yeganə bir arzu ilə yaşayırdı ki, o da düşməndən intiqam almaq idi. Belə olan halda kiminləsə sevişib ailə qurmağı mümkünsüz hesab edirdi.

Bəli, Mübariz artıq öz yolunu seçmişdi və bu yoldan geriyə dönmək fikri yox idi.

## ÜÇÜNCÜ BÖLÜM

*Qarı düşmən həddin aşdı,*
*Anaların gözü yaşdı,*
*Səbr kasam dolub-daşdı,*
*Qisas üçün coşur qanım,*
*«İrəli!» de, komandanım!*

**(E.E.)**

Nə qədər çalışsa da bayaqkı şikəst qadının qəribə davranışını, ona zillənmiş heyrətli baxışlarını fikrindən çıxara bilmirdi. Axı bu qadın kim idi? Nə istəyirdi ondan? Niyə o qədər yolu tənginəfəs halda arxasınca düşüb gəldi?

Birdən ürəyinə damdı ki, qadın heç yana getməyib onu gözləyir. Cəld hərəkətlə darvazaya tərəf yeridi. Küçəyə çıxıb ətrafına boylandı. Qadın, doğrudan da, getməmişdi. Bir qədər kənarda qoyulmuş uzun, taxta oturacaqda oturub məktəbin qapısına baxırdı.

Mübarizi görəndə ayağa qalxmağa cəhd göstərdi. Amma Mübariz buna imkan verməyib, tələsik addımlarla ona yaxınlaşdı:





– Qalxma, ay ana, qalxma!

Çatıb onun yanında əyləşdi:

– Ay ana, bəlkə sənə, doğrudan, kömək lazımdır?

Qadın dərdli halda başını buladı:

– Yox, bala, heç nə lazım deyil mənə. Heç nə lazım deyil... Bayaq da xətrinizə dəydim sizin. Bağışla, sən Allah! Başım xarab olub mənim. Sizin nə günahınız var ki... Siz uşaqsınız... Torpaqlarımız əldən gedəndə lap körpə olmusuz.

Mübariz hələ də bir şey anlaya bilmirdi:

– Əgər kömək lazım deyilsə, burada niyə dayanmısan? Niyə dalımızca gəlirdin?

Qadın hələ də ona çox diqqətlə, qəribə nəzərlərlə baxırdı. Birdən kövrək dodaqları səyridi, gözlərində yaş damlaları göründü:

– Oğluma oxşatdım səni...

Hə... Mübariz indi hər şeyi başa düşdü. Başa düşdü ki, bu şikəst, bədbəxt qadın niyə ona belə nəzərlərlə baxır.

– Kimdir oğlunuz? Haradadır indi?

Ananın qırışmış sifətində qəribə bir təbəssüm dolaşdı:

– Nə bilim haradadır? Göylərdə... Qurban verdim, getdi!

– Necə yəni?... – Mübariz təəccübləndi. – Kimə qurban verdiniz?

– Kimə verəcəm?! Vətənə! Torpağıma!

O bu sözləri deyib, yaxasından asdığı balaca torbanı dodaqlarına yaxınlaşdırdı:

– İki oğlum var idi... Birini körpə vaxtı ermənilər öldürdü. Birini də böyütdüm, böyütdüm, sonra qurban verdim. Beşi olsaydı, beşini də verərdim. – Hikkəli halda başını yellədi. – Ax!... Şikəst olmasaydım, əlimə avtomat versəydilər, özüm də gedərdim vuruşmağa. Onları it kimi qırardım! Quduzlaşmış itləri öldürürlər ha, bax elə!

Halı pisləşdiyi üçün arxaya söykənib gözlərini yumdu. Çox çətinliklə nəfəs alırdı. Mübariz əlini ehtiyatla onun çiyninə qoydu:

– Özünüzə əzab verməyin. Sakit olun!

Qadın gözlərini açdı:

– Bilirsən necə oğul böyütmüşdüm? Sənin kimi bədənli, igid... Üzdən də elə bir az sənə oxşayırdı. Yarlı-yaraşıqlı... Böyütdüm ki, qurban verim, verdim. – ağlamağa başladı. – Daha oğlum yoxdur qurban verməyə.

– Ağlamayın... – Mübariz ona təskinlik vermək istədi.

Qadın arıq, titrək əlləri ilə göz yaşlarını sildi:





– Muradım üç yaşında uşaq idi onda. Bilirsən, necə zülmlə qurtardım onların əlindən? Desəm, inanmazsan. Görməmisən axı!? Allah heç kəsə göstərməsin! Heç kəs inanmaz mənim elədiyimə. Ona görə ki, o qansızların əsirlərə etdiklərini heç kim deyib-danışmır. Camaatımızın bir azının başı qarışıb konsertlərə. Guya konsertlə gedib torpaq alacaqlar. Qalanları da puldan ötrü abır-həyasını, vicdanını, kişiliyini tullayıb bir yana. Kasıbı da, varlısı da pul qazanmaqdan başqa bir şey fikirləşmir... – Mübarizin pərt olduğunu görüb, tez dilləndi: – Səni demirəm, qurbanın olum. Sən əsgərsən. Əsgər!.. Sən, Allah qoysa, bizim qisasımızı alacaqsan. Əllərinə, ayaqlarına qurban olum sənin!

– Elə deməyin... – Mübariz söhbəti dəyişmək istədi. – Siz, deməli, əsirlikdə olmusunuz?

– Olmuşam... – qadının gözləri yerindən oynadı. – Onlar kəndə girəndə iki körpə uşaqla əllərinə düşdüm. Qaça bilmədim. Ərim müdafiə batalyonunda vuruşurdu. Sonra bildim ki, onu öldürüblərmiş. Əli lap körpə idi onda, Muradın üç yaşı vardı. Başıma olmazın müsibətlər açdılar. Deməklə başa salmaq olmaz. Görməsən inanmazsan. Gecələr yuxuma girir indi də. Əlinin qundağını açıb şaxtalı havada çılpaq saxladılar ki, soyuqdan donub ölsün. Gözlərimin

qarşısında etdilər bunu. Məni dirəyə bağlamışdılar. Uşaq çığırıb ağladıqca kafirlər gülüşürdülər. Gücüm heç nəyə çatmadığı üçün mən də ağlayırdım, qışqırıb onları söyürdüm, qarğış eləyirdim. Sonra gördüm mənim ağlamağım, nalə çəkməyim bunlara ləzzət verir, mən də başladım gülməyə. Dedim, Allaha xoş gedirsə belə işlər, deməli gülmək lazımdır...

Murad da bir tərəfdə qardaşına görə ağlayıb özünü öldürürdü. Dedim, ağlama bala, sən də gül! Qışqırdım üstünə, səsini kəsdi. Ancaq Əliyə deyə bilmədim ağlamasın. Körpə idi hələ, heç nə anlamırdı. Eləcə çığıra-çığıra soyuqdan donub öldü gözümün qabağında...

Mübariz başını aşağı dikib söhbətə əzabla qulaq asırdı. Sağ əlinin yumruğunu qəzəbindən bərk-bərk düyünləmişdi. Deməyə söz tapmırdı. Qadın bir qədər susandan sonra sözünə davam etdi:

– Muradı da o cür dondurub öldürəcəkdilər. Gördülər ki, gülürəm, deyəsən qorxdular bir az. Murada dəymədilər. Dedilər ki, istəyirsən, bu oğlunu bağışlayaq sənə. Amma əvəzində gərək... Tüpürdüm üzlərinə. Dedim, namusumu itirəndən sonra oğlum nəyimə lazımdır? Gör ha! Gör bir bunlar bizimkiləri nə hesab edirdilər! Xəyalları öz cındır arvadlarına getmişdi oğraşların. Muradın ruhuna and olsun, oğul,





bizim əsir düşən qadınlardan biri də onların qabağında alçalmaq istəməmişdi. Hələ mən namusluların, qeyrətlilərini bir yana qoyuram. Bizim kənddə biri var idi. Başqa rayondan gəlmişdi. Ərini maşın vurub öldürəndən sonra, bağışla, sən də mənim balam, pis yola gedirdi bu qadın. Kənd camaatının zəhləsi gedirdi ondan. Hə... O da əsirlərin içində idi. Adını deməyəcəm, Allah onun günahlarını bağışlasın. Hər yerin pisi də var, yaxşısı da... Hə, bax dığalardan biri həmin o qadına sataşmaq istəyəndə bizim namussuz hesab etdiyimiz o qadın balta ilə vurub öldürmüşdü ona sataşanı. Sonra ona olmazın əzablar verib, saxlandığımız tövlənin dirəyindən asdılar. Ölənə qədər qışqırıb onları söyürdü. Deyirdi, dayanın, bizim kişilər gəlib hamınızın ananızı, bacınızı... Nə isə!... Allah onun günahlarını bağışlasın. Nədən danışırdım? Hə, axırda dedilər ki, oğlunu verəcəyik sənə, əgər bacarsan xilas elə, apar.

– Verdilər? – Mübariz dözməyib soruşdu.

– Hə... – Qadın başını tərpətdi. – Ancaq onların bizi sağ-salamat buraxmaq fikirləri yox idi. Mənə əzab verib bundan ləzzət almaq istəyirdilər. Bizi gətirdilər kəndin kənarına. Uzaqda görünən təpəni göstərib dedilər ki, bax, o təpəni aşa bilsən özünüzkülərə yetişəcəksən. Sonra ayaqqabılarımı, corablarımı

çıxartdılar. Qaynar su gətirib ayaqlarıma tökdülər. Bişirdilər ayaqlarımı diri-diri. Dözə bilməyib qışqırdım. Murad da ağladı. Ancaq bu hələ mənə verəcəkləri əzabın ən yüngülü imiş...

Qadın susub əlləri ilə başını tutdu. Mübariz isə yerindəcə donub qalmışdı. Qorxurdu ki, danışarsa, kövrəldiyi hiss olunar. Nəhayət, qadın əllərini başından götürüb ona baxdı:

– Məni yerə yıxıb hər ayağımın altına dörd dənə mıx vurdular. Bu boyda, iri mıxlar idi. – barmağı ilə göstərdi. – Onda bildim ki, ölüm nə qədər gözəl şey imiş. Heç bir əzab duymursan öləndə. Ağrıdan beynim silkələnirdi. Belə vəziyyətdə məni ayağa qaldırıb, Muradı qucağıma verdilər. Dedilər ki, qaç, bacarırsan, xilas elə oğlunu, yoxsa bunu da o biri kimi əzabla öldürəcəyik. Ayağımı yerə basanda... Of!... İnsanın canı it canından möhkəm olurmuş. Bircə onu fikirləşirdim ki, nə olur-olsun, Muradı xilas eləməliyəm. Qaçmağa başladım. Qışqıra-qışqıra, nalə çəkə-çəkə qaçırdım. Hər dəfə ayağımı yerə vuranda elə bilirdim ki, bu saat ölüb yerə yıxılacam. Ancaq yenə ağrılarımı unudub qaçmağa çalışırdım. Demə, onlar inanmırlarmış ki, təpəyə qədər qaça biləm. Ora çatanda arxadan atəş açdılar. Çiynimə dəydi güllələrdən biri... Ancaq təpəni aşa bildim. Sonra bizimkilər məni





görüb onlara atəş açdılar. Məni xilas elədilər. Bizimkiləri görəndən sonra ayaq üstə dayana bilməyib, uşaqla birlikdə yerə yıxıldım. Qışqırıb dedim ki, ayaqlarıma vurulmuş mıxları çıxartsınlar...

– Bəs sonra?

– Sonra məni xəstəxanaya apardılar. Ayağıma vurulan mıxların bəziləri paslı olduğu üçün sağ ayağım qanqren olmuşdu. Bakıya gətirib burada əməliyyat elədilər. Bu ayağımı kəsdilər... Qardaşımgil bir yataqxanada yerləşmişdilər. Mənimlə Muradı da özlərinə qatdılar. Qardaşım kömək elədi, iş tapdım. Evdə paltar toxuyub satmağa başladım. Muradı böyütdüm. Əsgərliyə göndərəndə dedim ki, səni dünyaya mən gətirmişəm. Dedim ki, ermənilər üç yaşın olanda səni də qardaşın kimi öldürəcəkdi, mən səni xilas elədim. Xilas elədim ki, Vətənə qurban verim. Murova düşmüşdü. Gedəndən beş ay sonra meyidini gətirdilər...

Qadın yenə kövrəlmişdi. Mübariz danışmağın onun üçün ağır olduğunu görüb söhbətin mövzusunu dəyişdi:

– Yaxanızdan asdığınız bu torbada nə var?

– Bunda? – qadın əlini kirli torbaya aparıb gülümsədi. – Torpaqdır. Kəndimizin torpağından... Biz oradan qaçanda Muradın ayağındakı ayaqqabılar cı-

rıq idi. Bakıya çatan kimi qardaşım onun üçün təzə ayaqqabı almışdı. Köhnələri də evin bir küncünə atmışdılar. Xəstəxanadan çıxıb yataqxanaya gedəndən sonra bir gün onları əlimə götürdüm. Gördüm ki, altında bir az palçıq quruyub qalıb. Hamısını bıçaqla qaşıyıb bu torbaya yığdım... Qardaşıma demişəm ki, əgər mən ölənə qədər rayonumuza qayıda bilməsək, məni burda basdırası olsanız bu torpağı gözlərimə tökərsiz. O vaxtdan bunu üstümdə gəzdirirəm.

Gənc gizir bu dərdli qadına deməyə söz tapmırdı. Eləcə susub dayanmışdı. Yenə qadın dilləndi:

– Səni qəfil gördüm, diksindim. Oğlum yadıma düşdü. Özümü saxlaya bilmədim, gəldim dalınca. Dur, get bala! Get, komandirin axtarar səni.

Mübariz yerindən tərpənmədi:

– Oğlunuzun ölüm xəbəri gələndə ağladınız?

– Yox! – qadın başını bulayıb gülümsədi. – Onu qurban vermişdim axı!? Lap o vaxtdan. Qurbanın dalınca ağlamaq günahdır.

– Bəs atası?

– Dedim axı... Atasını ermənilər kəndə girəndə öldürmüşdülər.

– Hə, bağışlayın... Bəs bayaq niyə ağladınız?

– Mən torpağımız üçün ağlayıram. Hər gün... Hər gecə...





Hər ikisi susub dayandı. Nəhayət, qadın Mübarizin köməyilə ayağa qalxıb qoltuq ağacına söykəndi:

– Get! Mən də gedirəm daha.

Sonra sonuncu dəfə Mübarizi başdan-ayağa süzüb:

– Oğlum sənə yaman oxşayırdı. – dedi və dönüb qoltuq ağacını asfalta vura-vura uzaqlaşdı.

Mübariz də bir müddət dayanıb onun arxasınca baxandan sonra məktəbin həyatına qayıtdı. Dolub durmuş, dişlərini qəzəblə bir-birinə sıxmışdı. Tədris binasının tinindən burulub arxaya keçdi. Xəlvət bir yer tapıb yumruğunu bütün gücüylə daş divara vurdu və birdən hönkürtü ilə ağlamağa başladı.

## DÖRDÜNCÜ BÖLÜM

***Ot kökü üstə bitər.***
*(türk atalar sözü)*

Seyid Ağakərim nahardan sonra həyətə çıxıb, səliqə ilə əkilmiş nar və heyva ağaclarının dibini belləyirdi. Sovet dövründə kolxozun baş aqronomu işləmişdi. İndi sevimli peşəsindən ayrı düşsə də, başını öz həyatında ağac əkib-becərməklə, onlara qulluq etməklə qarışdırır, bundan xüsusi zövq alırdı.

Gözü bellədiyi sahənin yanındakı balaca «idman meydançası»na sataşanda qeyri-ixtiyari gülümsədi. Burdakı qurğuların çoxunu Mübariz özü düzəltmişdi. Onun iki mişar daşının ortasını deşərək dəmir boru taxmaqla quraşdırdığı ştanqa baxanda isə kövrək bir hiss keçdi ürəyindən. Bilirdi ki, Mübariz sabah-da-birigündə hərbi məktəbi bitirib, məzuniyyət alaraq evə gələcək. Lap darıxdı sonbeşik övladı üçün.

Həm də yaman narahat idi. Mübariz çoxdandı ki, döyüş bölgələrində xidmət etməyə can atırdı. Ağakərim hər dəfə onu məqsədindən daşındırıb başqa istiqamətə yönəltsə də, oğlu axırda dediyini eləmişdi.





Yəni, gizirlik kursuna qəbul olub taleyini hərbi işə bağlamışdı. Ağakərim oğlunun hərbçi olmasına narazılıq etmirdi. Əgər Mübariz hərbidə işləyib peşəkar zabit olacaqdısa, onunla yalnız fəxr edə bilərdi atası. Amma... Mübarizin nəsə başqa bir məqsədi var idi hərbiyə getməkdə. Ata ürəyi bunu hiss etsə də, sirrini ürəyində saxlayan oğlunun əsl məqsədinin nə olduğunu tam anlaya bilmirdi. Nə idi görəsən Mübarizin arzusu, istəyi?...

Canı qədər sevdiyi sonbeşik oğlu ilk vaxtlar zəif, arıq bir uşaq idi. Məktəbə gedəndə çantasını güclə daşıyırdı. Amma elə o vaxtlardan içində bir qisas eşqi, yalnız adını, vəhşi əməllərini eşitdiyi düşmənə qarşı bir nifrət var imiş. «Kaş güclü olaydım, avtomatım olaydı, bir gecə gedib düşmənlərin hamısını qırardım.» demişdi dayısına bu körpə uşaq. On üç yaşından ciddi olaraq idmanla məşğul olmağa başladı. Həm də yaman inadkar, prinsipial idi. Özündən böyük qardaşları turnikdə iyirmi dəfə dartınanda bu iyirmi beş dəfə dartınmasaydı rahat ola bilmirdi. Beləliklə, az keçmiş tamam dəyişildi. O zəif, sısqa oğlandan heç bir əsər-əlamət qalmadı. Artıq boylu-buxunlu, möhkəm əzələli, mətin bir yeniyetmə olmuşdu Mübariz.

Əsgərlikdən sonra döyüş bölgəsinə getmək istəyirdi. Ağakərim onunla razılaşmadı və Bakıya gön-

dərdi ki, gedib mühafizəçi işləsin. Ancaq Mübariz Bakıda dözüb dayana bilmədi. Gəlib rayonun hərbi komissarlığına müraciət etdi ki, onu səngərə göndərsinlər. Ağakərim artıq o vaxtdan oğlunda nəsə hiss etmişdi. Komissarlıqdakı tanışından xahiş etdi ki, Mübarizin məqsədinə mane olsunlar. Yəni, onu döyüş bölgəsinə göndərməsinlər.

Mübarizi isə həvəsləndirdi ki, uşaqlıqdan sevib-bağlandığı idmanın arxasınca getsin. Mübariz heç vaxt atasının sözündən çıxmazdı. Boks yarışlarında iştirak etmək üçün Bakıya yollandı. Neçə ay məşqlərdə iştirak etdi. Ancaq məqsədinə nail ola bilmədi və qayıdıb kəndə gəldi. Ağakərim heç vaxt oğlunu belə bədbin görməmişdi. Yaman kövrəlmişdi onda Mübariz.

– Ata, məni yığma komandaya salmadılar... – dedi.

O lap uşaqlıqdan düzlüyə, halallığa öyrəşmişdi. Çox qəribə uşaq idi. O vaxt hələ dinlə məşğul olmamış, «Quran-i Kərim»i hələ əlinə almamışdı. Bir gün heç gözlənilmədən atasına dedi ki, ata, mən fikirləşirəm, bu dünya öz-özündən belə yarana bilməzdi. Bəli, beləcə də dedi on yaşlı körpə uşaq. Dedi ki, mütləq bu dünyanın bir sahibi var. Sonra atasının





köməyilə yavaş-yavaş dinin incəliklərini öyrənməyə başladı.

Kiçik yaşlarında həmişə dərsdən gəlib yeməyini yeyəndən sonra qoyun-quzuları Əliabadın kənarındakı özlərinə məxsus otlaq sahəsinə aparırdı. Bir axşam qoyunları həyətə qaytaranda əməlli-başlı ağlayırdı. Ağakərim onun niyə ağladığını soruşanda quzulardan birini göstərib:

– Ata, bu quzu öləcək... – dedi.

– Niyə? Nə olub ona, Mübariz? – Quzuya diqqətlə baxdı. O sapsağlam idi.

– Haram yedi... – balaca Mübariz içini çəkə-çəkə bildirdi.

– Necə yəni, haram yedi?

– Qonşuların yerinə keçmişdi. Mən qaytarana kimi oranın otundan otladı.

Ağakərim gülümsəyib oğlunun başını sığalladı:

– Ağlama, ölməz. Allah keçər günahından.

Əlbəttə, quzu ölüb-eləmədi. Ağakərimin yaxşı tanıdığı o qədər adam ömrü boyu haram yeyirdi ki... Hətta gözünü açandan kef-damaq içində qocalıb ölənə kimi dilinə halal tikə dəyməyənlər də az deyildi. Gözəgörünməz Tanrı belələrinin cəzasını qiyamətə saxlayırdı, nədənsə...

Mübariz isə o vaxtdan əqidəsini dəyişmədi. Halal-

lığı, düzlüyü özünə həyat yolu seçdi. Haqqı nahaqqa verən deyildi. Həmişə haqlının tərəfində dururdu. Bu söhbəti Rəşad danışmışdı atasına. Mübariz hələ əsgərliyə getməyibmiş onda. Yaxın yoldaşlarının qonşu rayondan gəlmiş bir dəstə adamla mübahisəsi düşübmüş. Aralarında əməlli-başlı dava-dalaş gözlənilirmiş. Biri qaçıb Mübarizi köməyə çağırır. Bilirlər ki, Mübariz aralarında olsa, onlara heç kəs bata bilməyəcək. Mübariz gəlib çıxır və gələn kimi mübahisənin nədən düşdüyü ilə maraqlanır. Məlum olur ki, onun dostlarının da günahı az deyil bu məsələdə. Arada bir təhər sülh yaradıb rəqib dəstəni yola salır və yoldaşlarına deyir:

– Bundan sonra haqsız olduğunuz davaya məni çağırmayın. Siz haqlı olun, lap otuz nəfər də olsa mən geri çəkilmərəm. Amma, belə etməyin.

Ağakərim keçib «idman meydançası»ndakı oturacaqda oturdu. Əlindəki beli yerə dayayıb yenə fikrə getdi.

Üç övladının heç biri onun başını aşağı salan iş görməmişdi indiyədək. Hər üçünün kənddə-kəsəkdə, tanış-biliş arasında hörməti var idi. Amma Mübariz heç kəsə bənzəmirdi. Heç kəsə...

İyirmi iki yaşı yenicə tamam olmuş bu oğlan yüngül həyat tərzi keçirən, əyləncədən başqa heç nə düşünməyən gəncləri anlaya bilmirdi. Deyirdi ki, iman, əqidə qalmayıb heç kəsdə. Açıq-saçıq qızlardan, əzilib-büzülən oğlanlardan zəhləsi gedirdi. Televizorda baxdığı daha çox Türkiyənin «Saman yolu» kanalı idi. Çünki bu kanalda yalnız tərbiyəvi verilişlər verirdilər. Mahnılardan da sevdiyi, qulaq asdığı dini mahnılar, qədim türkülər olardı:





Şaşar Veysəl iş bu halə,
Gah ağlaya, gahi gülə.
Yetişmək üçün mənzilə,
Gediyorum gündüz-gecə...

Bütün insanlar son mənzilə yetişmək üçün gecə-gündüz yol gedirlər. Hamı... Ancaq Mübarizin uşaqlıqdan bu yana getdiyi yol nəsə başqa idi. Ağakərim bunu azdan-çoxdan duysa da dərindən fərqinə vara bilmirdi. Çünki, onun fikrincə, Mübariz çox intizamlı oğlan idi. Qayda-qanunları pozmazdı heç vaxt. İllah da, atasının sözündən çıxa bilməzdi. Atası bircə kəlmə «öl!» desəydi ölərdi, «qal!» desəydi qalardı.

Bu qeyrət, bu tərbiyə haradan idi Mübarizdə? Haradan olacaqdı, əlbəttə anasından keçmişdi, Ağakərimin özündən keçmişdi. Adını Ağakərimin özünün də bilmədiyi o Ulu Babadan qaynaqlanmışdı.

Ağakərimgil bu kəndə Cənubi Azərbaycan tərəflərdən gəlmişdilər. Adını bilmədiyi o ulu babasının mərdlik, kişilik əməli isə indiyə qədər dillərdən düşmürdü.

* * *

Ulu Baba sayılıb-seçilən türk kişilərindən biri imiş. Hamı onu mərd, sözübütöv ağsaqqal kimi tanıyırmış. Bir gün nəsli düşmənləri tərəfdən təqib olunan imamlardan birinin yeniyetmə nəvəsini gizlincə onun yanına gətirib deyirlər:

– Ya Seyid, bu imam övladını hər yerdə axtarırlar. Tutsalar, dərhal öldürəcəklər. Çarəsiz qaldığımız üçün sənə pənah gətirmişik. Gərək bunu xəta sovuşana kimi evində qoruyub saxlayasan.

Ulu Baba yeniyetmə oğlanı alaçığına qəbul edib, onu gətirənlərə belə cavab verir:

– Əgər mənə etibar edib onu bura gətirmisinizsə, arxayın ola bilərsiniz. Söz verirəm ki, onu qoruyacam və məqam çatanda sizə sağ-salamat təhvil verəcəm.

Bu əhvalatı hər dəfə xatırlayanda Ağakərim özü də təsirlənirdi. Doğrudan da, necə mərd, qeyrətli kişilər var imiş. İndi rastlaşdığı kişilərin bir çoxları bu gün verdikləri sözü sabah unudurdular. Sözün qiyməti heçə enmişdi. Əsl kişilərə nadir hallarda rast gəlinirdi. Adamlar bir-birlərinə elə badalaq vururdular ki, elə xəyanət edirdilər ki, Ağakərim belə şeyləri görəndə dəhşətə gəlirdi.





Hə... Ulu Baba oğlanı alaçığına qəbul edir. Öz oğullarından biri elə imam övladı ilə həmyaşıd imiş. Həmin oğluna tapşırır ki, qonağı darıxmağa qoymasın. Arvadına və övladlarına deyir ki, imam övladının bu çadırda gizlənməsini heç yerdə hiss etdirməsinlər.

Amma, düşmən duyuq düşübmüş. Bir gün əli qılınclı atlılar alaçığı dövrəyə alıb Ulu Babanı çölə çağırırlar. Gələnlərin böyüyü deyir:

– A kişi, bizə məlumdur ki, axtardığımız imam övladı sənin çadırında gizlənib. Yaxşısı budur, onu xoşluqla bizə təhvil ver. Yoxsa özümüz içəri girib zorla çıxaracağıq.

Ulu Baba üzə vurmasa da içində dəhşətə gəlir. Oğlanı tutub aparsaydılar onu bura gətirənlərin üzünə necə baxardı sonra? Tayfanın, qohum-qardaşın üzünə necə baxardı? Lap belə öz arvadının, uşaqlarının üzünə necə baxardı? Axı, kişilik, qeyrət deyilən bir şey var idi ki, onu itirən adam bu dünyada baş girləyib yaşaya bilməzdi! Kişi kimi söz verib, o kişiləri arxayın eləmişdi ki, bu uşağı qoruyub saxlayacaq. İndi neyləsin? Bu qədər silahlı adamla vuruşası de-

yildi ki?! Bilsəydi vuruşub oğlanı xilas edə bilər, canından rahatlıqla keçərdi. Amma bu mümkün deyildi. Onu öldürüb, imam övladını əsir aparacaqdılarsa, daha bunun nə əhəmiyyəti olacaqdı? Goru da od tutub yanacaqdı ki, verdiyi sözə əməl edə bilmədi.

Azacıq düşünüb üzünü atlıların başçısına tutur:

– Axtardığınız oğlan, doğrudan da, buradadır. Amma içəridə arvad-uşaq var. Mən razı ola bilmərəm ki, çadıra girəsiniz. Gözləyin, özüm girib onu gətirərəm.

– Yaxşı, gözləyirik. – başçı razılaşır. – Keç, gətir onu!

Ulu Baba alaçığa girir. Vəziyyətdən xəbərdar olan arvadı, oğulları və gənc qonaq alaçığın ortasında ayaq üstə dayanıb həyəcanla ona baxırlarmış. İmam övladı bir addım qabağa gəlib ev sahibinə yaxınlaşır və titrək səslə pıçıldayır:

– Ağa, haqqını halal elə, izn ver çıxım qarşılarına. Yoxsa sizə pislik edəcəklər.

Ulu Baba barmağını qaldırıb sərt baxışlarla onun gözünün içinə baxır:

– Qətiyyən olmaz! Sən mənə əmanətsən. Bizdə əmanətə xəyanət olmayıb hələ. Bir də, yadında saxla, nə qədər mənim evimdəsən, mənə tabe olmalısan.

Sonra isə onunla həmyaşıd olan oğluna tərəf dö-





nür. Bir müddət bu sonbeşik oğlunun mərdanə üzünə tamaşa edib, əlini imam övladının əynindəki al-qırmızı əbaya toxundurur və asta səslə:

– Geyin gəl! – deyib çadırdan çıxır.

Gözlərini ona zilləmiş atlılara deyir ki, uşaq yatmışdı, oyatdım, bu dəqiqə geyinib çıxacaq.

Gözləməyə başlayırlar. Ulu Baba birdən içəridən gələn ağlamaq səsini eşidir. Arvadı imiş ağlayan. Yanıqlı, ürək parçalayan, amma həm də sakit, həzin bir səslə ağlayırmış. Kişi üzünü alaçığa tərəf tutub ucadan, acıqlı və hökmlü səslə deyir:

– Geyin gəl!

Bir dəqiqə sonra imam övladının paltarını geyinmiş oğlu çadırdan çıxır. Bir-bir silahlı atlılara göz gəzdirib atasına tərəf çevrilir. Onun əllərindən öpüb pıçıltıyla:

– Haqqını halal elə, ata! – deyir.

Ulu Baba içindəki övlad yanğısını birtəhər boğub dillənir:

– Get oğul, haqqım halal olsun sənə!

Sonra isə dözməyib soruşur:

– Qorxmursan ki, bala?

Oğlu başını çevirib atlılara baxır və ucadan:

– Yox, qorxmuram! – deyir. – İmam övladı heç nədən qorxmaz!

Düşmənlər həmin sözlərdən inanırlar ki, bu oğlan elə axtardıqları imam övladıdır. Onun qollarını bağlayıb özləri ilə aparırlar.

Səhərisi gün Ulu Baba eşidir ki, oğlunu əzablı işgəncə ilə öldürüblər...

Bax, bu əhvalatdan sonra ta bu günə kimi Ağakərimgilin nəslinə «Geyin gəl» nəsli deyirdilər.

O kişinin, yəni Ulu Babanın cəddi həmişə nəslinin üstündə olmuşdu. Ağakərimin öz babasının ocağına insanlar şəfa tapmağa gəlirlərmiş. Ətraf meşələrdəki ceyranlar hər axşam onun həyətinə gəlir, südü sağılandan sonra yenə meşəyə qayıdırlarmış. Deyilənə görə sonradan bir gəlin həyətə gələn ceyranlara odlu kösöv atıbmış və o gündən ceyranların ayağı bu ocaqdan kəsilibmiş... Nə isə...

* * *

Ağakərim şir ürəkli oğlu Mübarizin vətənpərvərliyi ilə də fəxr edirdi. Hələ məktəbin birinci sinfində oxuyanda hərbi marşlara, hərbi geyimə yamanca marağı var idi bu uşağın. Əlifba bayramında əsgər marşı çalınanda həmişə yoldaşlarından sakitliyi və qaradinməzliyi ilə fərqlənən balaca Mübariz birdən ayağa qalxıb atasını rəqsə dəvət etmişdi.





Azərbaycan torpaqlarının işğalını, Xocalı faciəsini müəllimlərindən dəqiqliyi ilə eşidəndən sonra atası ilə tez-tez bu barədə danışmağa çalışırdı. Deyirdi ki, ermənilər kafirdir. Deyirdi ki, özgələrin torpağını alıb orada oturmaq ən böyük haramdır.

Mübarizdə olan vətənpərvərlik, qeyrət elə həmin Ulu Babadan gələrək Ağakərimin özündən keçməmişdimi ona? Ağakərim özü həmişə Vətən, torpaq sevgisi ilə yaşamamışdımı?

Həmişə Allaha tapınan Ağakərim o Gözəgörünməzin sirli möcüzəsini iki dəfə dərindən görüb hiss etmişdi. İkisində də torpaqla bağlı.

Əsgərlikdən qayıdıb kəndə gələndə onu kəndin girişində hərbi postda dayanmış rus əsgərləri saxladılar. O vaxt Azərbaycan Sovet İmperiyasının tərkibində idi və onun doğma torpağında ruslar ağalıq edirdilər. Postdan kəndə tərəf baxıb, evlərinə çatdığına sevinən Ağakərimə əli avtomatlı əsgərlər dedi ki, buraxılış vərəqəsi almamısan, səni kəndə buraxa bilmərik.

Ağakərim bu sözlərdən heyrətə gəldi:

– Siz nə danışırsınız? Mən bu gördüyünüz kənddənəm. Öz evimə gedirəm. Əsgərliyi bitirmişəm, bu da sənədlərim. Buraxılış vərəqəsi nəyə lazımdır?

Nə qədər desə də xeyri olmadı. Onu buraxmaq istəmədilər. Bax, onda «Bura mənim torpağımdır!» deyib ayağını yerə vurdu və möcüzə də elə həmin anda baş verdi. Ağakərimə Allahdan qeyri-adi bir güc gəldi. İki əsgərin avtomatını əlindən alıb, hərəsini bir tərəfə tulladı. Postdakı başqa əsgərlər köməyə gəlib onun üstünə şığıdılar. Amma onların heç bir yumruğu da dəymədi Ağakərimə. Əsgərlərin arasından necə ustalıqla çıxdısa, on beşə yaxın əsgər bir-birlərinin üstünə yıxıldı.

Sonra komandir gəldi və məsələni öyrənib Ağakərimi evə buraxdı. Silahı əlindən alınmış iki əsgəri isə cəzalandırdılar.

İkinci torpaq möcüzəsini kolxozda aqronom işləyəndə görmüşdü. Kəndə məxsus torpaqların içindən böyük bir ərazini kənddən qoparıb almışdılar. Həmin ərazidə zəhərli maddələr saxlanılır və elə orada da dərmansəpən təyyarələrə yüklənirdi.

Ağakərim bir gün həmin yerdə olanda dərmansəpən təyyarənin havaya qalxmaq üçün ona tərəf hərəkət etdiyini gördü. Kənara çəkilmək istəyəndə gübrə anbarının yanında dayanmış bir rus əlini ona tərəf uzadıb kobud səslə çığırdı:

– A kişi, sən burda nə edirsən, çıx kənara!





Onda bu söz də Ağakərimə yaman toxundu. Özünü təhqir edilmiş hiss etdi. Yenə ayağını yerə vurub:

– Bura mənim torpağımdır! – dedi. – Hara çıxım?

Lap acığa düşdü. Qərara gəldi ki, təyyarənin qabağından qaçmayacaq. Dayanıb gözlədi. Rus isə heyrətlə nəsə çığırırdı. Bax, həmin anda Allahın torpaqla bağlı ikinci möcüzəsini gördü. Ona çatmağa iki-üç metr qalmış, təyyarə titrəyib dayandı və motor hissəsi tüstüləməyə başladı.

Bunları hər dəfə uşaqlarına danışanda deyirdi ki, kim nə deyir desin, mən torpağa, onun müqəddəsliyinə inanıram. Deyirdi ki, torpağını sevənləri Allah da sevir.

* * *

– Ağakərim!

Arvadının səsi Ağakərimi xəyallardan ayırdı. Şamama xanım əlində tutduğu telefonla ona tərəf gəlirdi:

– Mübariz zəng vurub, səni istəyir.

Cəld ayağa qalxıb, əlindəki beli torpağa sancdı. Arvadına tərəf yeriyib telefonu ondan aldı:

– Hə, oğlum, eşidirəm.

– Salam, ata, necəsən? – Mübarizin səsi yaman qəmgin idi.

– Şükür, yaxşıyam. Sənin işlərin nə yerdədir?

– Sabah bizdə püşkatmadır.

– Hə, demişdin. Allah işini avand eləsin!

– Ata, bu gecə yuxuda səni görmüşəm.

– Necə gördün?

– Gördüm ki, xəstəsən. Mən də yanında oturub ayaqlarından öpürəm. Sonra sağalıb durursan.

Ağakərim pərt halda gülümsəyib Şamama xanıma baxdı:

– Məni görmüsənsə işlərin yaxşı olacaq.

– İnşallah! – Mübariz ürəkdən dedi. – Ata, nə olar, mənim üçün dua edin. Əsas da sənin duaların mənim üçün vacibdir. Dua elə ki, arzuma çatım. Yaxşı yerə düşüm sabah. Yetim-yesirə sədəqə ver ki, duaların qəbul olsun.

– Arxayın ol, dua edəcəm.

– Sağ ol, ata! Sabah hər şey qurtarsa, birisigün kəndə gələcəm. Yəqin, beş-altı günlük məzuniyyət verərlər.

– Allah qoysa!

– Sağ ol! Hələlik!

Ağakərim telefonu qapayıb arvadına verdi.





– Nə deyirdi? – Şamama xanım soruşdu. – Yuxuda səni görüb?

– Hə... – Ağakərim fikirli halda dilləndi. – Sabah püşkatmadır. Deyir, dua edin yaxşı yerə düşüm. Bilirsən də, yaxşı yer deyəndə nəyi nəzərdə tutur. Ən çətin səngərləri.

Şamama xanım bir anlıq fikrə gedib ah çəkdi:

– Təki salamatçılıq olsun! Onsuz da hələ əsl müharibə getmir. Qurbanı olduğum nə yazıbsa, onu görəcəyik.

Bunu deyib evə doğru getdi. Ağakərim isə qayıdıb bayaqkı yerində oturdu. Ağacların dibini belləməyə daha heç həvəsi qalmamışdı. Onu Mübarizin fikri götürmüşdü:

«Görəsən bu uşaq nəyə görə səngərə belə can atır? Nədir bunun fikri? Düşmənlə üz-üzə olmaq istəyir? Sadəcə üz-üzə olmaq? O, yəni, dözə bilər buna?...»

## BEŞİNCİ BÖLÜM

*«Sən qorxaqsan, sən köləsən,*
*sən ermənisən!»*

**Aleksandr Puşkin**
***(Rusların dahisi)***

*«Ermənilər yer üzünün Əhrimənі,*
*İnsanlığın düşmənidir, düşməni.»*

**Sədi Şirazi**
***(Farsların dahisi)***

***Aldanmayaq siyasətə,***
***Arxalanaq biz qeyrətə.***
***Dünya gəlsin qoy heyrətə,***
***Şərəf duysun bircə anım,***
***«İrəli!» de, komandanım!***

**(E.E.)**

Həmin gecə təlim-tədris mərkəzinin yataqxanasında sonuncu dəfə yatacaqdı. Amma yata bilmirdi. Eləcə çarpayıda arxası üstə uzanıb qalmışdı. Gözlərini yuman kimi günorta söhbət etdiyi şikəst qadın





gəlib çarpayının yanında dayanırdı. Titrəyən, arıq əllərini ona tərəf uzadıb:

– Torpağımı istəyirəm sizdən! – deyirdi.

Sonra qadın axırıncı dəfə ona məzəmmətlə baxıb başını buladı və birdəfəlik çəkilib getdi...

Mübariz yenə gözlərini yumdu ki, birtəhər özünü yatmağa məcbur etsin. Amma tez də anladı ki, yata bilməyəcək. Yarıoyaq, yarıyuxulu vəziyyətdə idi və nə qədər eləsə də rahat olub yata bilmirdi. Xəyalında elə hey özü-özü ilə danışırdı.

Qaranlıqda dörd kişi asta addımlarla yaxınlaşıb düz çarpayının qarşısında dayandı. Ona daha yaxın dayanan gödək boylu, kök, dazbaş bir kişi idi. İri, əyri burnu tük basmış ətli sifətini daha da eybəcərləşdirirdi. Mübariz onu kinli baxışlarından dərhal tanıdı. Bu, Erməni idi. Acıqlı nəzərlərlə arxası üstə uzanmış Mübarizə baxırdı. Əynindəki kirli, cır-cındır paltar neçə yerdən qana bulaşmışdı. Belə görkəmdə o daha çox cəllada oxşayırdı.

Ermənіnin arxa tərəfində dayanmış üç kişidən birincisi uca boyu ilə o birilərdən seçilirdi. O, əyninə alabəzək bir şortik geyinmişdi. Ağzındakı uzun siqarın tüstüsündən gözlərini qıyaraq, yuxarıdan aşağı Mübarizə baxırdı. Ortadakı sarıbaş kişi əyninə bahalı kostyum geyinmiş, qırmızı rəngli qalstuk vurmuş-

du. Yanaqlarının və burnunun qızarmasından xeyli içki içdiyi hiss olunurdu. Üçüncü kişinin başında beret, əynində damalı pencək var idi. Dayandığı yerdə çiyinlərini oynadır, arvad kimi əzilib-büzülürdü.

Mübariz bu üç kişinin kim olduğunu anlamağa çalışırdı ki, Erməni onu rişxəndlə süzüb başını tərpətdi:

– Ara, nə olub, qanın niyə belə qaradır? Sənin tayların kef eləyir, mahnı oxuyur, sənə nə olub?

Mübariz istədi ki, yerindən qalxıb bu həyasız adamı vursun. Amma, nə qədər eləsə də çarpayıdan qalxa bilmədi. Elə bil, yapışmışdı döşəyə. Dişlərini nifrətlə qıcadı:

– O yazıq qadının nə günahı var idi? Niyə onun başına elə oyunlar açdınız? Niyə körpə uşağını öldürdünüz?

– O tayqıç arvadı deyirsən? – Erməni güldü. – İstədiyimizi eləmədi, ona görə. Bir də ki, türkdü də... Türkə o da azdır!

– Türk sizə neyləyib? – Mübariz xəyalən səsini qaldırdı. – Sizə həmişə çörək verib. Yaşamağa yer verib. Siz nankorlar isə torpaqlarımıza göz dikdiniz. Oğru kimi! Quldur kimi!

Erməni birdən-birə yazıqlaşıb arxasındakı kişi-





yə tərəf boylandı. Sonra isə üzünü yenə Mübarizə tutdu:

– Türk bizə neyləyib? Lənət şeytana! Türk həmişə bizə zülm edib. Bizi vəhşicəsinə qırıb. Bizi torpaqlarımızdan çıxarıb. Qarabağ lap qədimdən bizim olub. Ancaq siz onu əlimizdən almaq istəyirsiniz. Biz dünyada ən əzabkeş, ən bədbəxt millətik. Ən əsası isə, türklər tərəfindən soyqırıma məruz qalmışıq. Soyqırıma!

Bunu deyib, gizlincə barmağına tüpürərək gözlərinin altına sürtdü. Özünü ağlayan kimi göstərdi. Bu zaman sarıbaş kişi arxadan əlini uzadıb nəvazişlə Ermənin çiyninə vurdu. Şortikli kişi şortikinin cibindən bir büküm pul çıxarıb onun cırıq şalvarının cibinə saldı. Beretli kişi isə öz qayğısını göstərmək üçün Erməninin daz başını sığalladı.

– Ə, siz nə həyasız adamlarsınız? – Mübariz odlandı. – Bu boyda yalan olar?! Buna kim inanacaq? Nə soyqırım? Sizin soyunuz olub ki, onu da qıralar?

Beretli kişi bu sözləri eşidib başını buladı:

– Bir az mədəni olun, müsyö! Danışığınıza fikir verin. Bu adamı niyə təhqir edirsiniz? Niyə bu yazığın hüquqlarını pozursunuz?

– Sən də səsini kəs! – Mübariz ayağa qalxmaq istədi. Amma çarpayıya bitişmişdi, sanki. Üzünü qə-

zəblə Ermənlyə tutdu: – Qarabağ nə vaxt sizin olub, ay əclaf?! İrəvan, Göyçə, Zəngəzur, Qarabağ yaranandan bizim olmayıb? Sizin harada torpağınız olub ki?

Erməni üzündən yazıqlıq pərdəsini atıb birdən gülməyə başladı:

– Doğru deyirsən, oğlan, doğru deyirsən. Ancaq, sənə kim inanacaq? Biz dünyanı inandırmaq üçün əlimizdən gələn hər şeydən istifadə edirik. Təkcə türklərin bizi qırmasını, Qarabağın tarixən bizim olmasını sübut edən milyondan çox kitab yazmışıq. Siz neyləmisiniz? Heç nə! Uzaqbaşı on beş-iyirmi kitab yazmısınız. Kim inanacaq sizə?

– Sizin tarixinizi bircə kitaba da sığışdırmaq olar. – Mübariz dedi. – Milyon kitabda yazılanlar isə, yəqin ki, hamısı cəfəngiyyatdır.

– Hər nə yolla olsa da, yüz ildir Böyük Ermənistan üçün çalışırıq. Bu arzumuza gec-tez nail olacağıq.

– Onu öləndə görərsiniz! -Mübariz hirsləndi. – Sizin heç nəyiniz yoxdur. Sizə inananlar da elə sizin tayınızdır. Millətinizin adı, torpağınız, mədəniyyətiniz hamısı oğurluqdur. Elə özünüz də oğurluqsunuz!

Erməni gülməkdən uğunub getdi:

– Oyunun olsun sənin! Nə olar oğurluq olanda? Millətimizi inkişaf etdiririk də! Qızlarımız sizin kişilə-





rə ərə gedirdi, uşaqları olurdu bizim. Elə-belə yatırdılar, yenə uşaqları olurdu bizim. Hələ bu harasıdır!? Sovet vaxtı sizin cavanlar Moskvada avara-avara gəzib kef eləyəndə bizim qızlarımız onlardan sənin kimi ən yaraşıqlılarını, boylu-buxunlularını tora salıb xüsusi bir evə aparırdılar. Guya sekslə məşğul olmaq üçün. O görüşlər zamanı sizin maymaq oğlanların ağlına da gəlmirdi ki, qızlar niyə onların spermalarını ağızlarında saxlayıb qonşu otağa keçirlər. Ağıllarına da gəlmirdi ki, bizim vətənpərvər qızlar həmin spermaları xüsusi paketlərdə Ermənistana göndərirlər. Göndərirlər ki, orada erməni qadınları millət üçün güclü, yaraşıqlı oğullar doğsunlar.

Mübariz Ermənlyə tərəf tüpürdü:

– Ə, siz nə əxlaqsız millətsiniz?! Nə həyasız millətsiniz?! Sizin kimi alçaqlar, şərəfsizlər yer üzündə heç vaxt olmayıb. Siz insan deyilsiniz, iyrənc həşəratsınız! Vəhşisiniz! Təkcə Xocalıda etdikləriniz bəs edər ki, sizin xislətiniz məlum olsun.

Erməni çiyinlərini dartdı:

– Xocalıdakı adi bir əməliyyat idi. Elə əməliyyatlardan daha ağırını 1918-ci ildə Bakıda, Şamaxıda, Qubada keçirmişik. Sənin bunlardan xəbərin yoxdur, yəqin ki. Ola bilməz də! Çünki dayım bütün bunları unutdurmuşdu sizə. Hələ bu harasıdır!? Bir

az fasilədən sonra Xocalının başına gələn faciə bir-bir o biri şəhərlərinizin də başına gələcək. Lap axırda isə Bakının.

– Onu yuxuda görərsiniz!

– Niyə?

– Ona görə ki, bacarmazsınız. Bizim indiki ordumuz sizinkindən çox-çox güclüdür.

Erməni istehza ilə gülüb geriyə qanrıldı. Arxadakıları bir-bir süzüb sarıbaş kişiyə üz tutdu:

– Bu nə danışır, dayı?

Sarıbaş kişi heç nə demədən əlini onun daz başına çəkdi. Erməni bundan cəsarətlənib yenə Mübarizə sarı çevrildi:

– Mənim arxam var, əzizim!

– Biz ayağa qalxsaq, bircə həftəyə sizi darmadağın edərik. Havadarlarınız köməyinizə gələnə kimi daşınız daş üstündə qalmaz. Qaldı arxaya, elə bizim də arxamız var. Həm də səninkilərdən heç də zəif deyil.

– Kimdir o?

– Türkiyə! – Mübariz qürurla dedi. – O biri türk dövlətləri. Cənubdakı qardaşlarımız.

Erməni kinli baxışlarını onun üzünə dikdi:

– Keçmişinizə baxma. Siz azərlər vuruşan deyilsiniz. Başınız qarışıb əyləncəli şoulara. Mahnı oxumaq





üçün növbəyə durmusunuz. Sən hələ getməmisən ki, mahnı yarışmasına? Yox? Yəni, heç az da olsa səsin yoxdur? Get, səsini sına! Amma, qorxma, biz müharibə etməyəcəyik. Sizin axırınıza elə yavaş-yavaş çıxacağıq. Bir-bir dənləməklə, həm də lovğalıqla gözümüzə soxduğunuz mənəviyyatınızı əlinizdən almaqla...

Bu vaxt şortikli kişi onun keçəl başına möhkəm bir çırtma vurdu. Erməni ağrıdan büzüşüb, daha da balacalaşdı. Amma qorxaq nəzərlərini arxaya çevirəndə şortiklinin ona göz vurduğunu görüb özünə gəldi.

– Bacarmayacaqsınız! – Mübariz qəzəblə dilləndi. – Siz halal torpaqlarımızı almısınız. Adamlarımızı ağlasığmaz işgəncələrlə öldürmüsünüz, torpağımda qırğınlar törətmisiniz. Biz bunun qisasını alacağıq. Eşidirsən, mütləq alacağıq bunların qisasını! Gecitezi var!

Erməni yenə büzüşüb gözlərini döyməyə başladı. Bu zaman şortikli kişi Mübarizə baxıb başını buladı:

– Belə olmaz! Sən lap terrorçu kimi danışırsan!

Sarıbaş kişi barmağını havada yellədi:

– Günah hamısı sizin özünüzdədir.

Beretli kişi də Mübarizə baxıb dodaqlarını büzdü:

– Sən, qətiyyən, haqlı deyilsən. Bu Erməni çox mədəni oğlandır. Sizinkilər isə onu incidiblər.

Sonra Mübarizin nifrətli baxışlarını görüb, hər üç kişi bir-birinin sözünü kəsərək danışmağa başladılar:

– Olan olub, Erməni ilə dil tapıb barışın!

– Biz vaxt tapanda gəlib baxarıq görək, orada nə baş verib.

– Deyirsən torpağını işğal edib bu? Ola bilməz! Siz haqsızsınız!

– Bəli, əzizim! Siz haqsızsınız!

– Türklər həmişə yalan danışırlar!

– Bəsdir, bu Ermənini incitdiniz!

Erməni qəhqəhə çəkib gülməyə başladı. Yenə qarnını əlləri ilə tutub gülürdü. Arxadakı kişilər isə növbə ilə onun başını tumarlayıb incə təbəssümlə Mübarizə baxırdılar.

– Mübariz! Mübariz! Ayıl!

Yuxudan hövlənak ayılıb gözlərini açanda Səlimi qarşısında gördü:

– Nədir? Nə olub?

– Mənə heç nə olmayıb. – Səlim dedi. – Sən yuxuda kimisə söyürdün.





– Söyürdüm? – Mübariz qızardı. O, demək olar ki, ömründə nalayiq söyüş söyməmişdi.

– Hə, deyirdin ki, sən şərəfsizsən, əclafsan, qatilsən, nə bilim, vəhşisən.

Mübariz qalxıb çarpayıda oturdu. Başını əlləri arasına alıb astadan pıçıldadı:

– Nə olsun? Onsuz da bizə inanan yoxdur!...

## ALTINCI BÖLÜM

*Qalib olduq zaman-zaman,*
*Qalib olduq, verdik aman,*
*Düşmən xain, biz qəhrəman*
*Qəhrəmandır hər bir yanım,*
*«İrəli!» de, komandanım!*
**(E.E.)**

Mübariz gizirlik kursunu bitirib kəndə gəlmişdi. Amma, cəmi ikicə günlüyə. Püşkatma nəticəsində təyinatını Goranboydakı hərbi hissələrdən birinə vermişdilər. Sabah oraya yola düşməliydi. Atasına bildirdi ki, hələlik ona məzuniyyət verməyiblər və hərbi hissədə bir qədər qulluq edəndən sonra məzuniyyətə buraxacaqlar.

Günorta ailə üzvləri və yaxın qohumlar nahar süfrəsinə toplaşıb, yenə də bu məsələni müzakirə edirdilər. Şamama xanım dolma bişirmişdi. Bu, Mübarizin ən çox xoşladığı xörək idi. Anasına həmişə deyirdi ki, sən yarpaq dolmasını yaxşı bişirirsən.

Hamının üzündə xoş bir əhval-ruhiyyə hiss olunurdu. Ana, əmi, bibi, qardaşlar sevinirdilər ki, Mübariz hərbi məktəbi bitirərək gizir rütbəsi alıb. Sevinirdilər ki, hərbi hissədə işləyəcək, tabeliyində əsgərlər olacaq. Daha sonra, getdikcə rütbəsi artacaq, vəzifəsi böyüyəcək.





Süfrə başındakıların hamısı belə düşünürdü. Yalnız iki nəfərdən başqa. Bu iki nəfərdən biri Mübariz özü idi ki, onun bu saat nə düşündüyünü heç kəs, hətta bayaqdan oğrun nəzərlərlə onu süzən atası da bilmirdi. Mübariz də hamı kimi deyirdi, gülürdü, əmisiylə, dayısıyla xoş zarafatlar edirdi.

Amma kim hiss etməsə də atası onun üzündəki qeyri-müəyyən ifadəni hiss edə bilmişdi.

Ata qəlbi Ağakərimə deyirdi ki, oğlunun məqsədi heç də hərbidə işləyib, taleyini bu peşəyə bağlamaq deyil. O, görürdü ki, Mübariz neçə ildən bəri düşmənlə üzbəüz dayanan səngərə can atır. Anlayırdı ki, qorxunun nə olduğunu bilməyən oğlu vuruşmaq, düşməndən qisas almaq istəyir. Amma necə? Hələ Azərbaycan ordusuna döyüş əmri verilməmişdisə, torpaqların qaytarılması üçün danışıqlar davam edirdisə Mübariz öz arzusunu necə həyata keçirmək istəyirdi? Nə idi onun fikri? Bu suallar süfrənin başında əyləşən Ağakərimi bayaqdan bəri düşündürüb narahat edirdi.

Onun püşkatmanın nəticəsindən xəbəri var idi.

Mübariz hələ dünən zəng vurub bunu atasına bildirmişdi. Üzünü artıq süfrə arxasından qalxmış oğluna tutub dilləndi:

– Axır ki, dediyini elədin. Gizirlik kursunu bitirdin. Üstəlik, ürəyindən olan bölgəyə düşdün. Düzünü de, peşman deyilsən ki?

Mübariz gülümsər baxışlarla atasına baxdı. Pencəyinin qoluna tikilmiş dövlət bayrağı nişanını dodaqlarına yaxınlaşdırıb, onu nisgilli bir məhəbbətlə öpdü. Yalnız anasından bir müddət ayrı düşmüş bir uşaq anasını belə öpə bilərdi. Ağakərimin də, Şamama xanımın da yadına dərhal sonbeşik övladlarının uşaqlığı düşdü. Balaca Mübariz gecələr onların ikisinin arasında yatmağı sevirdi. Hər gecə onlar üçün bildiyi mahnılardan oxuyur, sonra isə növbə ilə boyunlarını qucaqlayıb, bax beləcə öpərək yatırdı. İndi isə...

Dodaqlarını bir müddət bayrağın rəsmindən çəkmədi. Sonra hərbi paltarının qolunu öpə-öpə alınə qədər apardı və bundan sonra başını qaldırdı:

– Qətiyyən! Qətiyyən peşman deyiləm!

– Çox gözəl! – Ağakərim qürurla dilləndi. – Allah nəzərini üstündən əskik eləməsin. Mən səninlə fəxr edirəm!

Mübariz ömrü boyu atasının hörmətini uca tutmuşdu. Amma, bununla bərabər aralarında ərkyana bir münasibət var idi. Masanın baş tərəfinə keçib, əlini atasının çiyninə qoydu:

– Elə mən də səninlə fəxr edirəm. Hamı bilir ki, o vaxt əsgərlikdə çoxundan üstün olmusan.

– Hə... – Ağakərim gülümsədi. – Qumbaranı uzağa tullamaqda mənə çatan yox idi.

– Ay sağ ol! – Mübariz gizlincə dayısına göz vurdu. – İndi gərək oğluna da ürəklə halallıq verəsən. Sabah hərbi hissəyə gedirəm, axı!?

Ağakərim başını qaldırıb oğluna baxdı:

– Mən sənə halallığı çoxdan vermişəm. Yoxsa heç gizirlik kursuna getməyə qoymazdım.

– Sağ ol, ata, vallah, kişi adamsan!

Bu vaxt əmisi söhbətə qarışdı:

– Püşkatmanız necə keçdi, ay Mübariz?

– Pis olmadı. – Mübariz öz yerinə qayıdıb cavab verdi. – Mən dedim ki, məni birbaş ən ağır nöqtəyə göndərin. Razılaşmadılar. Elə oldu ki, Goranboya düşdüm. Dedilər ki, bura da pis deyil. Orada bir az qalandan sonra səngərə göndərə bilərlər.

– Allah işinizi avand eləsin! – əmisi dedi. – Sənin də, o biri yoldaşlarının da!

– Ancaq... – Mübarizin üzünə birdən-birə kədər çökdü. – Aramızda, tək-tək də olsa, elələri oldu ki,

Bakıda qalmaq üçün yalvar-yaxar eləyirdilər. Özləri, ataları...

– Ondan ötrü qanını qaraltma. – Ağakərim oğlunun könlünü almağa çalışdı. – Adamlar hamısı eyni xasiyyətdə deyil. Sənin kimilər də var, elələri də.

– Yox, ata, bilirsən mənə təsir edən nədir? – Mübariz dərindən ah çəkdi. – Bakıda qalmaq istəyənlərin bəzisi işğal olunmuş rayonlardan idilər. Təsəvvür edirsən? Doğma ev-eşiyi düşmənin əlindədir, bu rahat yer axtarır.

– Elə şeyləri ürəyinə salma. – Bu dəfə əmisi dilləndi. – Hamı sənin kimi cəsarətli, igid ola bilməz. Amma, sən də özünü qoru. Ehtiyatsızlıq eləmə. Cavansan, hələ ömrün qabaqdadır.

– Əmi! – Mübariz ərklə əmisinə müraciət etdi. – Neçə yaşın var?

– Əlli yeddi... – Əmisi təəccübləndi. – Nədi ki?

– Mənim də iyirmi iki yaşım var. Mən yaşda olmağın yadına gəlir?

– Gəlir... Niyə soruşursan?

– Sən mənim canım, necə keçdi sonrakı otuz beş ilin?

– Gözümü yumub-açdım, bir də gördüm bu yaşdayam. Heç bilmirəm necə keçdi bu illər.

– Ay sağ ol, əmi! – Mübariz gülümsəyib başını tərpətdi. – Mən də gözümü yumub-açana kimi sənin indiki yaşına çatacam. Heç yadıma düşməyəcək həmin illərdə yaşadıqlarım. Bəs onda nə fərqi var az, ya çox yaşamağın? İndi ölsəm, heç olmasa, fəxr edərsiniz ki, şəhid oldum.





– Şəhid olmaqdan danışma! – əmisi etiraz etdi. – Əsl əsgər qarşısına belə məqsəd qoymamalıdır. O gün də televizora baxanda lap əsəbləşdim. Səngərdə bir əsgəri danışdırırlar, deyir ki, mən bura ölməyə gəlmişəm. Öldürməyə gəlmişəm deməkdənsə, ölməyə gəlmişəm deyir. Belə əsgər olar? Buna qulaq asanlar da fikirləşəcək ki, düşmənin üstünə gedən ölməyə gedir...

– Bəsdir siz Allah! – Şamama xanım sözə qarışdı. – Ölümdən-itimdən az danışın.

Söhbətin mövzusu dərhal dəyişdi. Süfrə başındakılar başqa şeylərdən danışmağa başladılar.

Mübariz ayağa qalxıb həyətin o biri başına tərəf getdi. Fikirli halda bir qədər gəzib idman qurğularının yanında dayandı. Bir vaxt burada necə həvəslə məşq etdiyini xatırlayıb acı-acı gülümsədi.

Boks üzrə dünya çempionu olmaq istəyirdi və olacaqdı da! Amma...

İndi onun beynində bircə fikir var idisə, o da düşmənlərindən qisas almaq idi. Daha onu səngərə ge-

dən yolundan heç kəs saxlaya bilməyəcəkdi. Nəyin bahasına olursa-olsun, gedib çıxacaqdı oraya. Getdikcə daha çox əmin olurdu ki, düşməndən qisas almayınca ona rahatlıq olmayacaq, ürəyi sərinlik tapmayacaq.

İçi qumla doldurulub dirəkdən asılmış ağır kisəyə yaxınlaşdı. Bir müddət sakitcə dayanıb, kənddə olanda boks məşqləri zamanı istifadə etdiyi bu kisəyə tamaşa etdi. Sonra düşmənlə üz-üzə dayanıbmış kimi, dişlərini qıcayıb, qəzəblə pıçıldadı:

– Yox, mən ölməyə gəlməyəcəm. Öldürməyə gələcəm! Sizə elə divan tutacam ki, uzun illər yadınızdan çıxmasın. Şərəfsizlər!

Bunu deyib, yumruğuyla kisəyə qeyri-adi dərəcədə qüvvətli bir zərbə endirdi. Kisə tamam parçalandı və içindəki qumun hamısı axıb döşəməyə töküldü.





## YEDDİNCİ BÖLÜM

***Torpağımız para-para,***
***Qeyrət çəkir bizi dara,***
***Vətənimin köksü yara,***
***Yarasına qurban canım,***
***«İrəli!» de, komandanım!***
**(E.E.)**

– Düzlən!

Hərbi hissənin təlim meydançasında sıraya düzülən əsgərlər iyirmi iki yaşlı gizirin ucadan verdiyi əmrə tabe oldular.

– Fərəqət!

Yerlərində quruyub düz qabağa baxdılar.

– Bu nədir, ə, ayaq üstə yellənirsiniz. Şax dayanın!

Əsgərlər zəhmli səsdən özlərini bir az da qurutdular. Hərbi hissəyə iki ay əvvəl gəlmiş gənc giziri xeyirxahlığına və mehribanlığına görə sevsələr də, eyni zamanda, ondan çəkinirdilər. Bilirdilər ki, boks yarışlarında bişib-bərkimiş, güclü hərbi hazırlıq keçmiş bu oğlan nə qədər mehriban, saf, sadə olsa da intizamsızlığa qarşı bir o qədər barışmazdır.

Birdən Mübarizin sərt sifətində mehriban bir təbəssüm yarandı. Bu təbəssüm dərhal əsgərlərə də keçdi və gənc gizirin qarşısında düzülmüş əsgərlərin hamısı eyni zamanda gülümsədi.

– Biz hamımız Azərbaycan əsgərləriyik! – Mübariz ucadan danışmağa başladı. – Valideynlərimiz bizə halallıq verərək bura göndəriblər ki, vətən torpağını düşməndən qoruyaq, işğal olunmuş torpaqlarımızı azad edək. Bunun üçün biz güclü, ayıq və qətiyyətli olmalıyıq. Düşmənin torpağımızı tapdalayan ayağını sındırmağı bacarmalıyıq. Yurdumuza pis nəzərlə baxan gözlərini çıxarmağı bacarmalıyıq.Bizə qarşı nifrətlə döyünən ürəyini sinəsindən qoparmağı bacarmalıyıq. Xəyanətlə alınmış torpaqlarımızı biz azad etməliyik. Düşmənə göstərməliyik ki, biz türk övladıyıq və vuruşmağı hamıdan yaxşı bacarırıq. Göstərməliyik ki, lazım gəlsə, onun havadarları tərəfindən sığallanan başını öz əllərimizlə bədənindən qopara bilərik. Kişi olun! Heç nədən, heç kimdən qorxmayın! Onsuz da hamı gec-tez öləcək. Biz əsgər paltarı geyinib buraya gəlmişiksə özümüzü, ata-anamızı, ailəmizi yox, ancaq Vətəni düşünməliyik. Vətən sağ olsun!

Əsgərlər onun səsinə səs verdilər:

– Vətən sağ olsun!





– Düşmənə ölüm! – Mübariz daha ucadan səsləndi.

– Düşmənə ölüm! – əsgərlərin gur səsi idman meydançasından qopub bütün hərbi hissənin üzərində dalğalandı.

Mübariz arxaya çevriləndə taqım komandirinin bir qədər kənarda dayanıb ona baxdığını gördü. Vacib tapşırıq dalınca getmiş komandirin nə vaxt qayıtmasından xəbər tutmamışdı. Əsgərlərə tələsik dağılmaq əmri verib ona tərəf getdi.

– İşlər necə gedir? – komandir soruşdu.

– Hər şey qaydasındadır.

– Üzün yaman gülür. Nə olub?

– Hə! – Mübariz, doğrudan da, çox sevinirdi. – Raportuma cavab gəldi. Siz mənim səngərə getməyimə razı olmurdunuz. Ancaq mən qərarımı aldım. Sabahdan Tərtərə köçürülürəm. Şiştəpəyə.

Bu hərbi hissəyə gələndən, demək olar, hər gün komandirdən səngərə göndərilməyini tələb edirdi. O isə buna razı olmurdu. Deyirdi ki, hərbi qaydalara görə burada azı dörd ay qulluq etməlisən.

Komandir dayısının dostu idi. Mübariz axır bir gün şübhələndi və evə – anasına zəng vurdu:

– Komandirimə nə demisiniz? Kim tapşırıb ki, səngərə getməyimə mane olsun? Dayım?

Birdən Mübarizin sərt sifətində mehriban bir təbəssüm yarandı. Bu təbəssüm dərhal əsgərlərə də keçdi və gənc gizirin qarşısında düzülmüş əsgərlərin hamısı eyni zamanda gülümsədi.

– Biz hamımız Azərbaycan əsgərləriyik! – Mübariz ucadan danışmağa başladı. – Valideynlərimiz bizə halallıq verərək bura göndəriblər ki, vətən torpağını düşməndən qoruyaq, işğal olunmuş torpaqlarımızı azad edək. Bunun üçün biz güclü, ayıq və qətiyyətli olmalıyıq. Düşmənin torpağımızı tapdalayan ayağını sındırmağı bacarmalıyıq. Yurdumuza pis nəzərlə baxan gözlərini çıxarmağı bacarmalıyıq.Bizə qarşı nifrətlə döyünən ürəyini sinəsindən qoparmağı bacarmalıyıq. Xəyanətlə alınmış torpaqlarımızı biz azad etməliyik. Düşmənə göstərməliyik ki, biz türk övladıyıq və vuruşmağı hamıdan yaxşı bacarırıq. Göstərməliyik ki, lazım gəlsə, onun havadarları tərəfindən sığallanan başını öz əllərimizlə bədənindən qopara bilərik. Kişi olun! Heç nədən, heç kimdən qorxmayın! Onsuz da hamı gec-tez öləcək. Biz əsgər paltarı geyinib buraya gəlmişiksə özümüzü, ata-anamızı, ailəmizi yox, ancaq Vətəni düşünməliyik. Vətən sağ olsun!

Əsgərlər onun səsinə səs verdilər:

– Vətən sağ olsun!





– Düşmənə ölüm! – Mübariz daha ucadan səsləndi.

– Düşmənə ölüm! – əsgərlərin gur səsi idman meydançasından qopub bütün hərbi hissənin üzərində dalğalandı.

Mübariz arxaya çevriləndə taqım komandirinin bir qədər kənarda dayanıb ona baxdığını gördü. Vacib tapşırıq dalınca getmiş komandirin nə vaxt qayıtmasından xəbər tutmamışdı. Əsgərlərə tələsik dağılmaq əmri verib ona tərəf getdi.

– İşlər necə gedir? – komandir soruşdu.

– Hər şey qaydasındadır.

– Üzün yaman gülür. Nə olub?

– Hə! – Mübariz, doğrudan da, çox sevinirdi. – Raportuma cavab gəldi. Siz mənim səngərə getməyimə razı olmurdunuz. Ancaq mən qərarımı aldım. Sabahdan Tərtərə köçürülürəm. Şiştəpəyə.

Bu hərbi hissəyə gələndən, demək olar, hər gün komandirdən səngərə göndərilməyini tələb edirdi. O isə buna razı olmurdu. Deyirdi ki, hərbi qaydalara görə burada azı dörd ay qulluq etməlisən.

Komandir dayısının dostu idi. Mübariz axır bir gün şübhələndi və evə – anasına zəng vurdu:

– Komandirimə nə demisiniz? Kim tapşırıb ki, səngərə getməyimə mane olsun? Dayım?

Anası əvvəl heç nəyi boynuna almaq istəmədi. Ancaq Mübarizin özündən ilk dəfə belə çıxdığını görüb, hər şeyi etiraf etdi:

– Ay oğul, biz demirik ki, səngərə getmə!? Get! Amma, dedilər hələ bir az orada qalıb öyrəşməlisən.

– Nəyə öyrəşməliyəm? – Mübariz lap odlanmışdı. – Yeyib-yatmağa?! Niyə mənim arzularıma mane olmaq istəyirsiniz?

Atası da, nədənsə, hər telefon zəngində ona səbrli olmağı tapşırırdı. Deyirdi ki, intizamı pozmasın! Qayda-qanunlara tabe olsun.

Ancaq Mübariz mütləq səngərə gedib düşmənlə üz-üzə dayanmaq istəyirdi. Daha dözə bilmirdi. Burada keçən hər günü əzaba dönmüşdü. Axır ki, dəfələrlə yazdığı raportları nəzərə aldılar...

Komandir gülümsədi:

– Mən sənə pislik etmirdim. Deyirdim təlimlərdə təcrübəni bir az da artırasan. Həm də burada mənim əvəzolunmaz köməkçim idin. Əsgərlər səni məndən də yaxşı eşidirdilər. Özüm burada olmayanda sənə tamamilə arxayın olurdum.

– Belə deyin də! – Mübariz başını buladı. – Ancaq mən, axır ki, razılıq aldım.

– Vallah, səninlə fəxr edirəm.





– Mən fəxr edilməli bir iş görməmişəm hələ. Heç səngərə ayağım dəyməyib.

– Nə olsun? Sənə baxanda adam inanır ki, bizi heç vaxt məğlub etmək olmaz. Maşallah, əsl pələng kimisən. Bizim millət Amerika kinolarına baxıb, aktyorların yalandan göstərdikləri qəhrəmanlıqlara valeh olurlar. Gəlib səni görsələr, o fantastik qəhrəmanlar gözlərindən düşər.

Mübariz azacıq qızardı:

– Məndən də fərli oğullar çoxdur Azərbaycanda.

– Bilirəm. – komandir başını tərpətdi. – Sən hələ uşaqsan. Nə yaşın var ki? O qədər peşəkar döyüşçülərimiz var, saymaqla qurtarmaz. Ancaq... – nəsə düşünüb əlini yellədi. – Nə isə! Get dincəl! Tərslik eləyib səngərə icazə aldın, amma bundan sonra yalnız vəzifəni yerinə yetirmək barədə düşün. Komandirlərin əmrindən çıxma. Əsl hərbçi kimi yetişmək istəyirsənsə, tabe olmağı da bacarmalısan. Sənin gələcəyin qabaqdadır. Get!

Mübariz gülümsəyib əlini gözünün üstünə apardı.

– Vətən sağ olsun! – deyib komandirindən aralandı.

Bayaq əsgərləri sıraya düzüb söhbət aparanda Əhməd gözünə birtəhər görünmüşdü. Onu axtarmağa başladı. Kazarmanın yan tərəfində, daşın üstündə oturduğunu görüb, yanına getdi.

Əhməd ondan üç yaş kiçik idi. Bu hərbi hissəyə gəldiyi dörd aydan çox olardı. Bir qədər zəif və xəstəhal olduğu üçün Mübariz buraya gələndən onun qayğısına qalmağa çalışırdı. Hər yerdə onu müdafiə edirdi. Bilirdi ki, ürəyitəmiz, həm də vətənpərvər oğlandır.

Əhmədin yanında oturub, əlini onun çiyninə qoydu:

– Nə olub? Özünü yaxşı hiss eləmirsən, deyəsən?

– Yox, sağ ol, yaxşıyam. – Əhməd başını qaldırmadan dilləndi.

– Heç yaxşıya oxşamırsan. Məndən heç nə gizlətmə.

Əhməd birdən-birə kövrəldi:

– Anamı fikirləşirəm...

– Nə olub ki anana?

– Ağır xəstədir. Qorxuram, mən əsgərliyi qurtarana qədər...

Sözünün ardını gətirə bilmədi. Kövrəldiyini gizlətmək üçün üzünü yana çevirib, dodağını bərk-bərk dişlədi.

– Heç nə olmaz, Allahın köməkliyi ilə! – Mübariz ona təskinlik verdi.

– Özü də demişdi... Məni yola salanda dedi ki, sən





gələnə qədər dözüb dayanacağam. Ancaq onun əlində deyil ki...

– Əlbəttə, hər şey Allahın əlindədir.

Əhmədin atası maşın qəzasında həlak olmuşdu. Xəstə anası, özündən yaşca kiçik olan iki bacısı Əhmədə möhtac idilər və Mübariz bütün bunları bilirdi. Əlini bir də oğlanın çiyninə vurub ürək-dirək vermək istədi:

– Darıxma, sənə dedim ki, hər şey yaxşı olar Allahın köməyi ilə.

– Mübariz!... – Əhməd bir qədər çətinliklə danışmağa başladı. – Deyirəm, olmazdı ki, bu müharibə olmayaydı? Yəni, bütün dünyada deyirəm. Olmaz ki, müharibə, terror, elə lap adi cinayətlər olmasın? Onda biz də evimizdə – anamızın, bacımızın yanında olardıq. Bax, anam indi evdə, yataqdadır. Bu ağır günlərini mənsiz keçirir. Yanında ola bilmirəm, qulluğunda dura bilmirəm...

– Müharibə olmasa da əsgərlik borcunu yerinə yetirməlisən. Nə fərqi var ki? – Mübariz dedi.

– Yox e... Yerli-dibli müharibə olmasa əsgərlik nəyə lazımdır? Vallah, anlaya bilmirəm, bu insanlar niyə heç nəyə görə bir-birinin qanını axıdır. Evdə olanda televizorda kriminal xəbərlərinə baxa bilmirdim heç vaxt. Baxanda bütün gecə yuxum ərşə çəkilirdi.

Canıma titrətmə düşürdü. İnsanlardan qorxmağa başlayırdım.

– Elə cinayətlər, əlbəttə ki, böyük günahdır. İnsan insanın qanını axıtmamalıdır. Amma biz bura torpaqlarımızı qorumağa gəlmişik. Ermənilər torpaqlarımızı həyasızlıqla işğal edibsə, bizimkiləri vəhşiliklə öldürübsə, biz də onlarla vuruşub, bacardığımız qədər çox düşmən əsgəri öldürməliyik. Bu cinayət deyil. Əksinə, Allahın yolunda, torpağımız yolunda görülə bilən ən müqəddəs əməldir.

Əhməd dərindən ah çəkib başını buladı:

– Yox, Mübariz! Allahın yaratdığı canlını həyatdan məhrum etmək mənim başıma girmir. İnsanlar vəhşiləşib, elə bil. Bax, silah düzəldirlər, güllə düzəldirlər. Düzəldəndə bilirlər ki, bu güllə avtomatdan çıxıb hansısa insana dəyəcək, onun bədənini deşib keçəcək. Düzdür? Hələ fikirləşib elə güllə düzəldirlər ki, adamın bədənində yolunu dəyişib, onun iç-içalatını daha çox parçalasın. Mina, qumbara, bomba, nə bilim daha nələr düzəldirlər ki, bir dəfəyə daha çox insanı öldürmək mümkün olsun. Niyə belə olmalıdır axı?! Niyə?!

Mübariz bir anlıq fikrə gedib, çiynini çəkdi:

– Nə bilim, ay Əhməd! Elə söz deyirsən ki...





Dünya yaranandan belədi də! Əvvəl daşla öldürüblər bir-birlərini, indi avtomatla, raketlə öldürürlər.

– Heç istəmirəm belə olsun. İnsanların belə olmasını qəbul etmirəm. Lap toyda, bayramda qoyunu qurban kəsirik ha, o da pis təsir edir mənə. Zurna-qavalla çalıb-oynayırıq, yazıq qoyunu gəlinin ayağının altına yıxıb, başını kəsirik. Qanını axıdıb, hələ ondan alnımıza da sürtürük. Qan elə qandı da, nə fərqi var insanın olsun, ya heyvanın. Heç qanın üstündə də çalıb-oynayarlar?

Mübariz başını asta-asta tərpətdi:

– Hardasa, həqiqət var sözündə. Ancaq əvvəllər insanları qurban kəsirlərmiş Allah yolunda. İbrahim peyğəmbər oğlu İsmayılı...

– Onu bilirəm! – Əhməd əsəbi və kövrək səslə Mübarizin sözünü kəsdi. – Allah bir qoç göndərib. Deyib ki, oğlunu yox, bunu kəs. Amma nə olsun? Gör nə qədər keçib o vaxtdan. İnsanlar heç mədənişləşməyib. Elə indi də insan başı kəsirlər. Həm də Allaha qurban kimi yox, beş manat pula görə...

– Sən deyirsən, düşmənlə döyüşməyək? Torpaqlarımızı bağışlayaq, gözləyək gəlib qalanımızı da qırıb-çatsınlar? Qalan torpaqlarımızı da əlimizdən alsınlar?

– Yox! Yox! – Əhməd dönüb həyəcanla Mübarizə

baxdı. – Mən insanların vəhşiliyindən danışıram. Vəhşinin ən yırtıcısı elə bu ermənilərdi. Bunlarda heç insaf yoxdur. Sən mənim belə zəif olmağıma baxma. Ürəyimdə elə hisslər var ki... Hərdən deyirəm, kaş sənin kimi güclü olaydım. Başımıza gətirdiklərinin qisasını alardım onlardan. Ancaq dərindən fikirləşəndə, heç istəməzdim onlarla da düşmənçilik edək. Kaş yola gəlib sülh yolu ilə qaytaraydılar torpaqlarımızı. Müharibə başlasa, öldürəcəyimiz hər bir əsgərin evdə anası, bacısı, ola bilsin körpə uşağı var. Adam belə şeyləri düşünəndə pis olur. Axı niyə belə olmalı idi? Niyə bunlar həmişə bizim torpaqlara göz dikib, niyə millətimizi qırıblar ki, biz də onları öldürməyə məcbur oluruq? Niyə? Biz kimə neyləmişdik? Niyə qoymadılar dinc oturaq evimizdə, anamızın, bacımızın yanında?

– Evinizdə otursan gəlib səni öldürəcəklər, ananı, bacını da əsir aparacaqlar özləri üçün! – Mübariz əsəbi şəkildə ayağa qalxdı. – Ona görə də səngərdə olmalıyıq, evdə yox! Nə qədər ki, torpaqlarımız geri alınmayıb. Nə qədər ki, ermənilər yerlərində oturmayıb. Sən düz danışmırsan, Əhməd! Düz danışmırsan! Dur get uşaqların yanına. Anandan da nigaran olma. Heç nə olmaz, inşallah. Ancaq sən də xəstəsən. Gə-





rək özünü yaxşı yoxlatdıraydın bura gələndə. Bura xəstələrin, zəiflərin yeri deyil.

Əhməd də ayağa durdu:

– Yoxlamada heç nə çıxmadı. Mən uşaqlıqda xəstəlik keçirmişəm. Ona görə də düzəlmirəm. Özüm dedim ki, sağlamam. İstəmədim xəstə adıyla saxlasınlar məni.

– Niyə?

– İstəmədim o mənə pis baxsın.

– Qız? – Mübariz bilirdi ki, Əhmədin kənddə sevdiyi qız var.

– Hə...

Mübariz birdən nə düşündüsə əlini cibinə salıb iyirmi manatlıq pul çıxardı. Onu Əhmədə uzadıb:

-Al bunu cibinə qoy, lazım olar. – dedi.

– Yox, lazım deyil! – Əhməd etiraz etdi. – Keçən həftə vermişdin ki!?

– Al! – pulu onun cibinə saldı. – Lazım olar.

– Allah ürəyinə görə versin.

Mübariz mobil telefonunu Əhmədə uzatdı:

– Ananla danışmaq istəyirsən, al danış.

Əhməd sevincək halda telefonu aldı.

– Çox sağ ol!

Mübariz telefonla, demək olar ki, atasından başqa heç kəslə danışmırdı. Onda da çox vaxt atası özü

zəng edirdi. Amma atası onun telefonuna tez-tez kontur göndərəndə də etiraz etmirdi. Çünki telefonunu əsgərlərə verib onları ailələri ilə danışdırmaqdan zövq alırdı.

– Nə qədər istəyirsən danış, kontur çoxdur. – dedi.

Əhməd bir az kənara çəkilib danışmağa başladı. Mübariz ona qulaq asmaq istəməsə də bəzi sözlərini eşidirdi.

– Məndən nigaran olma, ay ana, mən yaxşıyam. Sən də döz, ayaqlarına qurban olum, qurtarıb gələn kimi səni Bakıya aparıb həkimlərə göstərəcəm.... Darıxma, toyu da görəcəksən. Nə olub ki, sənə? Amma döz mən qayıdana qədər...

Mübariz birdən-birə öz anası üçün darıxdı. Həm də elə darıxdı ki, birdən-birə quş olub Biləsuvara uçmaq keçdi könlündən. Amma özünü ələ alıb, başqa şeylər barədə düşünməyə çalışdı.

Sabah buradan ayrılıb Tərtərdəki hərbi hissəyə yola düşəcəkdi. Birbaş səngərə. Deyilənə görə, iki-üç gün sonra ona beş-on günlük məzuniyyət verəcəkdilər.

Bax, onda evə, ata-anası ilə son dəfə görüşməyə gedəcəkdi. Son dəfə...





# SƏKKİZİNCİ BÖLÜM

*Əzizim olmayaydı,*
*Saralıb solmayaydı.*
*Bir ayrılıq, bir ölüm,*
*Heç biri olmayaydı.*

Ayrılıq zamanı gəlib çatdı...

Səkkiz günün necə gəlib keçməsindən xəbəri olmamışdı. Vaxt elə bil uçurdu. Bilirdi ki, axırıncı dəfə olur evlərində. Sevimli ata-anası ilə bir yerdə olduğu son günlərin belə tez keçməsini istəməzdi.

Məzuniyyətə buraxılanda əvvəlcə Bakıya gedərək, bir gecə böyük qardaşı Bəhruzun yanında qalmışdı. İstəmişdi ki, qardaşlarıyla görüşüb, onlardan da halallıq alsın. Bir də istəmişdi ki... İstəmişdi ki, sevdiyi qızla vidalaşsın...

Bu necə görüş idi? Bu necə vidalaşmaq idi?... Nə adını bilirdi o qızın, nə də ki yerini. Bircə bilirdi ki, Bakıdadır o da...

«Gəlmişəm Bakıya... Xəbərin varmı? Yoxdu yəqin ki... Amma, bilirəm, sən də burdasan. Bu şəhərdə-

sən... Bəlkə də inanmazsan, amma bu mənə bəs edir. Elə qəribə hisslər keçirirəm ki...

Mən səni axtarıb tapa bilərdim. Axtarmadım. Çünki sən qəlbimə onun dolmuş vaxtında gəldin. Vətənimə məhəbbətlə dolmuşdu qəlbim. Elə indi də həmin məhəbbət hakimdi qəlbimə. Amma sən də gəldin. Gəlib bu məhəbbətə bir şirinlik qatdın. Vətənim daha da gözəlləşdi, daha da şirinləşdi nəzərimdə.

Səni axtarmadım. Çünki uşaqlığımdan bu günə kimi bir arzum olub. Gecə-gündüz bu yola düşüb gəlmişəm bu günə kimi. Bu yol məni bir qisas gecəsinə aparıb çıxarmalıdır. Səni axtarsaydım, gərək çıxaydım bu yoldan. Amma mən çıxmaq istəmədim. Axıra qədər getmək istədim bu yolu. O qisas gecəsinə yetişmək üçün. Məni, səni, bütün millətimizi dərdə salmış düşməndən qisas almaq üçün. Mən bunu etməsəm ürəyim rahat olmaz, bu dünyada baş girləyib yaşaya bilmərəm. Sənə qovuşub səni də, özümü də xoşbəxt edə bilmərəm.

Etsəm... Bilirəm ki, sağ-salamat çıxmayacam o gecədən. Deməli, sənə qovuşmağım mümkün olmayacaq heç vaxt. Hamısı da o şərəfsizlərin ucbatından. Onlar bizim torpaqlarımıza göz dikməsəydi, belə olmazdı. Hər şey yaxşı olardı. Çox yaxşı!

Başqa yolum yoxdur mənim. Onlardan dəhşətli





qisas almaq qərarına gəlmişəm və bunu edəcəm! Edəcəm ki, heç olmasa, ruhum rahatlıq tapsın.

Daha lap az qalıb... Tezliklə hamı kimi sən də eşidəcəksən mənim haqqımda. Amma, yəqin ki, tanımayacaqsan məni. Eşidəcəksən ki, Mübariz adlı bir oğlan...

Bəlkə onda sən də fəxr edəcəksən mənimlə. Səni neçə ildən bəri ürəyimin gizli guşəsində gəzdirdiyimi bilmədən. Deyəcəksən ki, hər kimdisə, Allah rəhmət eləsin o oğlana. Həm də kədərlənəcəksən ölümümə. Nə etmək olar?... Mənə elə bu da bəsdir.

Sabah səninlə son dəfə vidalaşıb Bakıdan gedəcəm. Çox istəyirəm ki, sən sevəcəyin biri ilə ailə qurub xoşbəxt olasan. Uşaqların olsun. Onları vətənpərvər böyüdəsən və onlarla söhbət edəndə hərdən mənim də adımı çəkəsən. Deyəsən ki, Mübariz adlı bir oğlan var idi Azərbaycanda. İnan, ruhum elə sevinər ki...»

Gecənin bir aləminə kimi Bəhruzla oturub ordan-burdan söhbət etmişdilər. Mübariz indi o söhbətləri xatırlayanda özünə də qəribə gəlirdi. Özündən beş yaş böyük qardaşına nəsihət verib demişdi ki, subay gəzdiyi bəsdir, evlənsin. Demişdi ki, nigah ən müqəddəs işlərdən biridir. Ona mələklər də sevinirlər, əl çalırlar. Sonra Bəhruzdan soruşmuşdu ki, bir bəyəndi-

yi, sevdiyi varmı? Bəhruzun deməyinə görə kənddə bir qız varmış, atası da, anası da bəyənibmiş onu. Mübariz bu xəbərə sevinmişdi. Xeyir-dua verib demişdi ki, əgər onlar bəyənibsə, Bəhruz mütləq həmin qızla evlənsin.

Səhəri gün Bakı-Biləsuvar arasında sərnişin daşıyan bir kişinin minik avtomobilində rayona gəlirdi. Şəhərdən çıxan kimi, nə düşündüsə, maşını qəfil saxlatdı. Sürücünün təəccüblü baxışları altında yerə enib maşından aralandı. Üzünü şəhər səmtinə tutub onu bir müddət qəmli baxışlarla seyr etdi. Sonra isə lap astadan, pıçıltı ilə:

– Əlvida! ... – dedi və cəld geri qayıdıb maşına əyləşdi.

Doğma Bakı ilə vidalaşırdı, ya bu şəhərdə yaşayan, ilahi məhəbbətlə sevdiyi qızla?... Bunu heç Mübariz özü də deyə bilməzdi. Amma, qəlbi yaman sıxılmağa başlamışdı, həmin anlarda.

* * *

Kəndə gələndən sonra atasını və anasını son dəfə doya-doya görmək, onlarla daha çox vaxt keçirmək istəmişdi. Fikri qəti idi. Səngərə qayıdandan sonra düşməndən qisasını alacaqdı.





Məzuniyyətə buraxılmazdan bir neçə gün əvvəl səngərdə olmuşdu. Amma nəzərdə tutduğu əməliyyatı həyata keçirmək üçün hələ bir müddət müşahidələr aparmalıydı.

Onun səngərdə olduğu bir neçə gün müddətində erməni tərəfi iki dəfə atəşkəsi pozmuşdu. Mübariz və yoldaşları cavab atəşi ilə onları susdurmuşdular. Bir həftə əvvəl, kəndə gəldiyi gün orada gördüklərini valideynlərinə danışdı.

– Təsəvvür edirsiniz, – dedi. – Başımızın üstündən güllələr necə uçuşurdular.

Anası bu sözlərdən yaman narahat olmuşdu. Ortaya ağır sükut çökdü. Bunu hiss edən Mübariz anasından:

– Sənə nə olub? Niyə qanın qaradır? – deyə soruşdu.

– Nə olacaq? – atası məzəmmətlə dilləndi. – Elə danışdın, anan da qorxuya düşdü.

– Düz deyirsən... – Mübariz pərt oldu. – Gərək danışmayaydım.

Dünən eşitdiyi acı xəbər Mübarizi yaman sarsıtmışdı. Hərbi hissədəki yoldaşlarından biri telefon açmışdı ona. Əhmədin ölüm xəbərini vermək üçün... Sən demə ermənilər növbəti dəfə səngəri atəşə tutan-

da başından güllə yarası alan Əhməd elə yerindəcə keçinibmiş.

Deməli, anası daha onu gözləyə bilməyəcəkdi. Gözlərini dünyaya Əhmədsiz yumacaqdı.

«Bu da sənin insanlığının, humanistliyinin cavabı, Əhməd! – deyə düşünmüşdü. – Ermənıyə də rəhmin gəlirdi. Deyirdin, onların da anası var, balası var. Müharibə istəmirdin. Bu da düşməninin sənə cavabı...»

Sabah evdən çıxıb birbaş Tərtərdəki hərbi hissəyə gedəcəkdi. Ona görə bu gün mütləq atasının son halallığını almalı idi. Gərək atası onu ürəklə Vətənə qurban verdiyini, başına bir iş gələrsə, yəni şəhid olarsa dərd çəkməyəcəyini, əksinə, qürur duyacağını dilinə gətirəydi.

Ata xeyir-duası almadan indiyədək heç nə etməmiş Mübariz bu son addımını da onun razılığı olmadan atmaq istəmirdi. Atası gərək özündə güc tapıb onu qurban verəydi. Bakıda gördüyü o şikəst qadın oğlunu şəhidlik üçün böyüdüb necə qurban vermişdisə, bax eləcə...

Atası xeyir-dua verməsə, onun nəzərdə tutduğu iş yarımçıq qala bilərdi. Düşməndən qisas almadan vurular, ya da ki, əsir düşərdi. Yox, mütləq atasının halallığını almalıydı. Mütləq!





Ağakərim Şamama xanımla və bacısıyla həyətdəki masanın arxasında oturub söhbət edirdi. Mübariz özünü toplayıb ona yaxınlaşdı:

– Ata, bilirsən ki, mən həmişə səninlə fəxr etmişəm. Çünki qeyrətli adamsan, həmişə Vətənini sevmisən. Mənə də Vətəni sevməyi sən öyrətmisən.

– Nə demək istəyirsən? – atası gülümsədi.

– Sabah gedirəm. Səngərdə olacam. İstəyirəm mənə halallıq verəsən.

Ağakərim təəccübləndi:

– Mən ki sənə halallıq vermişəm!?

– Vermisən, ancaq... – Mübariz duruxdu. Hər şeyi açıq demək də istəmirdi. İstəyirdi ki, atası özü başa düşsün onu.

– Nə ancaq?

– De ki, məni Vətənə qurban verirsən.

Anası ilə bibisi heç nə demədən, narahat halda ona baxırdılar. Ağakərim isə bir anlıq fikrə gedib, oğlunun mərdanə üzünə baxdı:

– Vətənə bizim hamımızın canı qurban olsun! Sən ki, özün bu saat dedin, mən həmişə vətənimə, torpağıma sadiq olmuşam.

– Yox, ay ata! – Mübariz başını buladı. – Bunlar hamının dediyi sözlərdir. Sən ürəklə de ki, Mübariz, səni Vətənə qurban verirəm!

– Sizə nə olub? – həyəcanlanmış bibi dilləndi. – Elə danışırsınız ki, guya əməlli-başlı müharibə gedir.

– Nə olub, Mübariz? – anası da narahatlığını bildirdi.

– Siz buna fikir verməyin. – Ağakərim dedi. – Həmişəki kimi mənimlə zarafat edir.

– Ay ata, – Mübariz üz-gözünü turşutdu. – Mən zarafat etmirəm. İstəyirəm ki, sən o sözü deyəsən. Neçə dəfə demişəm sizə, övlada bu qədər bağlanmaq olmaz. Günahdı, vallah! Özün məndən yaxşı bilirsən ki, günahdır. De, sənə qurban olum, de ki, məni fəda edirsən Vətən yolunda. Sonra da mənə xeyir-dua, halallıq ver ki, arzuma çatım.

Ana ilə bibi deməyə söz tapmırlar kimi susub dayanmışdılar. Ağakərim isə yenə fikrə getdi. Oğlunun dil açıb yalvaran baxışlarından bəzi şeyləri oxuya bilirdi. Mübariz sözlə demədiklərini bu baxışları ilə deyirdi. Deyirdi ki, anamın yanında hər şeyi açıb-ağartmaq istəmirəm, ancaq, sən başa düşməlisən istəyimi. Daha dözə bilmirəm. Qisas almaq istəyirəm. Deyirdi ki, sənin xeyir-duan olmasa muradım ürəyimdə qalar.

Nə edəcəyini, nə deyəcəyini bilmirdi Ağakərim. Bu dəqiqə əlinə avtomat verib «Get vuruş!» desəydilər, sevinə-sevinə gedərdi. Ali Baş Komandan savaş





əmri versəydi, oğullarının üçünə də xeyir-dua verib yola salardı. Ancaq bu Mübariz ondan istədiyi sözü qopartmaqla nə etmək istəyir görəsən? Axı bu saat ciddi döyüşlər getmir!? Nə etmək istəyir onun şir ürəkli oğlu?..

– Səni gözləyirəm, ata! – Mübarizin səsində bu dəfə daha çox qətiyyət var idi.

Ağakərim birdən-birə öz ulu babasını xatırladı. O Ulu Babanı ki, verdiyi sözü tutmaq üçün, kişilik yolunda, qeyrət yolunda doğma oğlunu tərəddüd etmədən qurban vermişdi. Ona görə qurban vermişdi ki, bunu etməsəydi, elin-obanın üzünə dik baxa bilməyəcəkdi. Özü də sonrakı ömrünü qeyrətsiz yaşayacaqdı, elə həmin oğlu da...

Daha oğlunu çox incitmək istəmədi:

– Səni mənə verən Allahdır. Mən də səni Allah yolunda, Vətən yolunda qurban verirəm!

Atasından bu sözləri eşidən Mübariz sevincindən özünü itirdi:

– Həqiqi?

«Həqiqi?...» Bu söz Mübarizin uşaqlıqdan çox tez-tez işlətdiyi söz idi. Üzündə bir uşaq təmizliyi, uşaq sadəliyi oxunurdu. Sanki uşaq idi, atası onun üçün təzə ayaqqabı alacağını bildirirdi. O da sevincək olub atasının bu fikrini dəqiqləşdirmək istəyirdi: «Həqiqi?...»

Ağakərim nə qədər həyəcanlı olsa da oğlunun bu sözünə gülümsədi və:

– Hə! Həqiqi! – dedi.

– Bircə dəqiqə dayan!

Mübariz bunu deyib evə qaçdı və oradan əlində tutduğu mobil telefonu ilə qayıtdı. Videoçəkən düyməsini basıb, telefonu atasına uzatdı:

– Bir də təkrar elə o sözləri.

Şamama xanım oğlunun bu hərəkətinə başını buladı:

– Uşaq ki uşaq!

Ağakərim isə ona tuşlanmış kameraya ciddi nəzərlərlə baxırdı. Sanki bu saat bütün dünyanın qarşısında çıxış edəcəkdi. Bircə anlıq duruxub ayağa qalxdı:

– Oğlum Mübarizi Vətən yolunda qurban verirəm!

Mübariz telefonun kamerasını söndürdü:

– Ay sağ ol! Bax, yazıldı ha! Sözündən qaça bilməzsən!

Sonra birdən-birə ciddiləşdi. Üz-gözünə anlaşılmaz bir kədər qondu. Atasının qarşısında dizi üstə çöküb, onun ayaqlarını qucaqladı. Başını dizlərinə sürtüb astadan:

– Sənin bu sözlərin mənim üçün çox vacib idi. – dedi.





Bu təsirli səhnəyə dözə bilməyən Şamama xanım qalxıb evə keçmişdi. Mübarizin hərəkətlərindən təsirlənən bibi isə gözlərinin yaşını silirdi. Ağakərim oğlunun başını sığallayıb kövrək səslə dilləndi:

– Çalış, özbaşına işə cəhd etmə. Səbrli ol! Mən də hər gün sənin üçün Allaha dua edəcəm.

Səhəri gün yaxın qohumlarından bir neçəsi Mübarizi yola salmağa gəlmişdilər. Onu Tərtərə aparacaq maşın artıq küçədə dayanmışdı.

Həyətdə gəzişib hər şeyə sonuncu dəfə baxan Mübariz çalışırdı ki, özünü ələ alsın. Ata-anasına, qohumlarına heç nə hiss etdirməsin.

Atasının əkdiyi ağaclara göz gəzdirdi, «idman meydançası»na yaxınlaşıb, bir vaxtlar burada həvəslə etdiyi məşqləri xatırladı. Otağına keçib bir qədər dayandı. Boks əlcəklərini əlinə alıb onlara bir xeyli baxdı.

Həyətə çıxıb yenə ətrafına boylandı. Anası da, qohumlar da darvazanın yanına yığışmışdılar. Atası onların arasında görünmürdü. Deyəsən, evdə tək idi. İstədi onun yanına gedib, hər şeyi açıq danışsın. Ölümə getdiyini deyib bir daha halallığını alsın. Qucaqlayıb üz-gözündən doyunca öpsün.

Ancaq tez də fikrindən daşındı. Bildi ki, baş tutan iş deyil bu. Bildi ki, əsl məqsədindən söhbət açsa, bu

ayrılığın əbədi ayrılıq olduğunu desə, canından çox sevdiyi atası, bəlkə də ağlayacaq. Ağlayacaq və sözsüz ki, onu da ağladacaq. Sonra isə anası, qohumları xəbər tutacaq bu məsələdən.

Bunu düşünən Mübariz elə indidən kövrəlməyə başlamışdı. Asan deyildi onun üçün doğma atasından, anasından ayrılmaq. Çox sevirdi onları. Çox! Bilirdi ki, onlar üçün də çətin olacaq onun ayrılığına dözmək.

Bu ayrılığın əsl səbəbkarı olan düşmənləri xatırladı. Qarşısına qoyduğu məqsədini xatırladı. Qərara gəldi ki, atasına heç nə deməyəcək. Nə özü kövrələcək, nə də ki, atasını ağladacaq. Eləcə öz işinin, vəzifəsinin dalınca gedirmiş kimi çıxacaq evdən. Sanki bir azdan yenə qayıdacaqmış kimi...

Atası da gəldi və hamı Mübarizi yola salmaq üçün küçəyə çıxdı.

Birinci anasına yaxınlaşıb onu bərk-bərk qucaqladı. Bütün qüvvəsini toplayıb çalışdı ki, kövrəlməsin:

– Özündən muğayat ol, ana!

Şamama xanım da ətrafındakıların təəccübünə səbəb olan bir təmkinlilik göstərdi:

– Get, bala, Allah işini avand eləsin! Südümü sənə halal edirəm!





Anası onun arxasınca atmaq üçün evdən bir qab su gətirmişdi. Mübariz istədi desin ki, su atma arxamca, onsuz da bir daha geri qayıtmayacam. Amma, deyə bilmədi. Deyə bilmədi və birdən...

Birdən anasının baxışlarında elə bir şey hiss etdi ki... Elə bir məna oxudu ki bu baxışlarda...

Yəni, doğrudanmı, anası onun məqsədini duymuşdu? Yəni, doğrudanmı, onun nə etmək istədiyini bilib ürəyində saxlamışdı indiyədək? Axı Mübariz qəlbində çoxdan gəzdirdiyi qisas arzusunu anasından gizlətməyə çalışmışdı həmişə!? Atasına bildirmək istəmişdi, amma onu da bacarmamışdı.

İndi isə... Anasının lal baxışları ona çox şey deyirdi. Deyirdi ki, sənin nə istədiyindən xəbərim var, bala. Məndən gizlətməyə çalışsan da, xəbərim var...

Anasının bu qədər mətin, bu qədər dözümlü olduğunu təsəvvür etməzdi Mübariz. Oğlunun qisas arzusundan xəbərdar ola-ola susmuşdu neçə vaxtdan bəri. Susmuşdu və deyəcəyi son sözü bu ayrılıq anına saxlamışdı: «Get bala, Allah işini avand eləsin! Südümü sənə halal edirəm!»

Nəsə demək istədi canından artıq sevdiyi anasına. Demək istədi ki... Amma tez də fikrindən daşındı. Daha heç bir sözə ehtiyac yox idi burada.

Anası hər şeyi baxışlarıyla demişdi. Dilinə gətirməsə də, oğlunu ürəyində qurban vermişdi Vətənə. Gizlincə köksünü ötürüb, gözünü anasının baxışlarından çəkdi.

Atası ilə qucaqlaşsaydı, kövrələcəkdi. Lap yəqin bilirdi bunu. Odur ki, ona yalnız əl uzatdı:

– Salamat qal, ata!

– Yaxşı yol, oğul!

Sadəcə əl tutdular. Sanki harasa bir günlüyə gedirdi Mübariz. Sanki, bir gündən sonra yenə qayıdıb gələcəkdi.

Tez kənara çəkildi ki, atası onu qucaqlamasın. Başını qaldırıb sonuncu dəfə evlərinə baxdı və dönüb onu gözləyən maşına tərəf addımladı. İndi onun beynində yalnız bircə fikir dolaşırdı:

– Vətən sağ olsun!...





## DOQQUZUNCU BÖLÜM

***Səngərləri basaq keçək,***
***Türk bayrağın asaq keçək.***
***Yeni tarix yazaq keçək,***
***Qoy qayıtsın şöhrət-şanım,***
***«İrəli!» de, komandanım!***
***(E.E.)***

Artıq qəti qərara gəlmişdi. Uşaqlığından bu yana ürəyində gəzdirdiyi gizli məqsədini hökmən bu gecə həyata keçirməliydi. İyun ayının 18-dən 19-a keçən gecə. Bu gecə qisas gecəsi olmalı idi.

Hava çoxdan qaralmışdı. Masanın üstündə yanan neft lampası kazarmanın kiçik otağını güclə işıqlandırırdı. Çarpayısının üstündə oturub dərin fikrə getmiş Mübariz birdən-birə həyəcanlanmağa başladı. Görən, atasına zəng vursunmu? Zəng vurub desinmi birbaşa düşmənlərin səngərinə getmək istədiyini?

Yox, deyə bilməyəcəkdi. Əslində, ürəyində tutduğu və evdən gəldiyi altı gün müddətində ciddi hazırlaşdığı əməliyyatı dünən gecə həyata keçirəcəkdi.

Dünən, elə bu vaxtlar atasına zəng vurdu və həmin anda da anladı ki, heç nə deyə bilməyəcək. Nə deyəydi axı? Necə deyəydi indicə qalxıb ölümə gedəcəyini?

Ölümə?!...

Axı o ölməyə yox, öldürməyə getmək istəyirdi!? Düşməndən qisas almağa. Qisas! Neçə il idi ki, bu qisas arzusu şiddətlənərək ürəyini yeyib-dağıdırdı. Neçə il idi ki, bu qisas gecəsinə doğru yol gəlirdi Mübariz. Amma, bu yoldan sağ-salamat qayıtmaq mümkün idimi? Əgər məqsədi beş-on düşmən əsgərini öldürüb geriyə dönmək olsaydı, bəlkə də mümkün idi. Ancaq o sonadək getmək istəyirdi. Bəli, sonadək! Yəni, nə qədər ki, əli silah tutacaqdı, nə qədər ki, nəfəsi sinəsində gedib-gələcəkdi, vuruşmaq istəyirdi. Vuruşmaq və düşmən əsgərlərini mümkün olan qədər çox qırmaq!

Mümkün deyildi axı, mümkün deyildi ki, Mübariz təkbaşına qarşısına çıxan bütün düşmən ordusunu məhv edib Qarabağa yetişsin. Xankəndinin mərkəzində durub, «Bura mənim torpağımdır!» – deyə nərə çəksin. Ağıla batan şey deyildi bu. Deməli, geriyə addım atmaq fikri yox idisə, onu yarı yolda vuracaqdılar. Ya bir az tez, ya bir az gec. Axır ki, vuracaqdılar...

Demək, ölümə gedirdi o! Öldürüb, sonra ölməyə.





Öldürməyiylə də, ölməyiylə də düşmənləri lərzəyə salmağa gedirdi.

Kaş ki, ölənədək istədiyi qədər qıra biləydi düşmənlərdən. Kaş ki, arzusuna çatmamış, ermənilərin ara xəttindəki dərə-təpəyə basdırdıqları minalardan birinə düşməyəydi, ya təsadüfi güllənin qurbanı olmayaydı...

Dünən axşam evə zəng vuranda da belə həyəcanlanmışdı. Atasının səsini eşidəndə bildi ki, ona heç nə deyə bilməyəcək. Özündən qətiyyən asılı olmadan, bir qədər kobud ahənglə:

– Anam yanındadır? – deyə soruşdu.

– Hə! Verim telefonu? – atası dedi.

– Ver!

Anasının narahat səsi gəldi:

– Axşamın xeyir, Mübariz! Nə olub? Necəsən?

Nə deyəydi yazıq anasına? Nə deyə bilərdi axı?..

– Lap yaxşıyam. – dedi. – Siz özünüzdən muğayat olun. Mənim barəmdə fikirləşməyin. Məndən ötrü darıxmayın. Ancaq durmadan mənim üçün dua edin. Dua edin ki, arzularıma çatım. Sədəqə verin yetim-yesirə.

Sonra yenə atası aldı telefonu. Ürəyinə nəsə damıbmış kimi yenə nəsihət verməyə başladı:

– Mübariz, oğlum, bax yenə deyirəm. İntizamı

gözlə, əmrlərə tabe ol. Qətiyyən özbaşınalığa cəhd etmə. Cəhdi Allah da sevməz.

Xeyli danışdı. Mübariz isə ona qulaq asa bilmirdi. Deyəcəyi sözləri ürəyində götür-qoy edirdi. Amma atası sözünü yekunlaşdırıb, birdən:

– Sağ ol, oğlum! – dedi. – Gecən xeyrə qalsın. Üzümüzə gələn sabah hamımız üçün xeyirliyə açılsın!

Nahaq dedi bu sözləri atası. Oğlunu ürəklə Vətənə qurban vermişdisə, gərək belə deməyəydi. Yazığı gəldi atasına. Əgər sabahın xeyirlə açılmasını istəyirsə, qoy onun üçün xeyirlə açılsın bu sonuncu sabah da. Qoy bir gün də dərdsiz-sərsiz yaşasın sevimli atası.

Beləliklə, fikrini dəyişib, nəzərdə tutduğu işi bu gecəyə saxladı.

Yox, daha bu dəfə zəng vurmayacaqdı! Birdən atası bu dəfə də nəsə deyib onu ruhdan sala bilərdi. Onun üçün nə qədər ağır olsa da, atasının, anasının səslərini son dəfə eşitmək üçün alışıb-yansa da zəng vurmayacaqdı.

Əsgərlərdən hansısa otağın qapısını açdı. Heç görə də bilmədi kim olduğunu. Acıqlı səslə:

– Qapını örtün! – dedi və ayağa qalxıb əlindəki telefonu kiçik taxta masanın üstünə atdı.





Sonuncu dəfə namaz qılmaq istəyirdi. Sonuncu dəfə...

* * *

Namaz onu xeyli sakitləşdirdi. Sanki, atasını-anasını, bütün qohum-əqrəbasını, bir sözlə, hamını unutmuşdu. İndi qəlbi ancaq Ulu Tanrı ilə döyünürdü.

Bütün qayda-qanunu ilə qıldığı namazdan sonra əllərini göyə açıb öz doğma türk dilində dua etməyə başladı:

– Allah, sənə qurban olum, məni arzuma çatdır! Mən bu gecə erməni kafirlərdən qisas almaq istəyirəm. Onların mənim millətimə etdiklərini hamıdan yaxşı sən bilirsən. Daha ürəyim dözmür onların həyasızlığına. Mənə güc ver, Allahım! Güc ver ki, düşmənə kim olduğumu göstərə bilim. Məni adi ölümdən qoru, şəhidlik zirvəsinə qaldır. İmkan ver, qisasımı alım!

Duadan sonra masanın arxasındakı kətildə oturub qarşısına bir vərəq qoydu. Ata-anasına telefonda deyə bilmədiyini məktubda yazacaqdı. Yenə həyəcanlanmağa başladı. Amma bayaqkı qədər yox. Na-

mazdan sonra xeyli rahatlanmış, fikri tamam qətiləşmişdi.

Yazdığı bir neçə cümlə xoşuna gəlmədi. Vərəqi cırıb atdı. Qarşısına yeni ağ vərəq qoyub, bu dəfə daha təmkinlə yazmağa başladı:

***«Canım atam və anam!***

***Məndən ötrü darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə ürəyim dözmür. Allah xatirinə bunu etməliyəm. Ən azı ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəm. Şəhid olsam, ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin.***

***Allah böyükdür! Vətən sağ olsun!***

***Oğlunuz Mübariz»***

Yazdıqlarını diqqətlə oxudu. Sonra nə fikirləşdisə, məktubun sonuna qısaca olaraq əlavə etdi:

***«Haqqınızı halal edin. İbrahimov Mübariz.»***

İmzalayıb, vərəqi dörd yerə qatladı və əynindəki hərbi pencəyin cibinə qoydu.

Bu zaman birdən-birə sevdiyi qızı xatırladı. Görəsən, o indi haradadır? Nə edir? Bəlkə də yatıb. Amma, saat 10-dur, ola bilsin, yatmayıb. Nə işlə məşğuldur görəsən? Bəlkə evdə ata-anası ilə oturub televizora baxır. Nəyə baxır, görəsən? Konsertə, filmə, ya hansısa verilişə... Ya, bəlkə də tələbədir, imtahanlara hazırlaşır...





Sabah, ya uzağı birisigün o qız da Mübarizin qəhrəmanlığı barədə eşidəcəkdi. Amma heç bilməyəcəkdi ki, bu həmin oğlandır. Bakıdakı hərbi hissənin həyətində gördüyü oğlan. O qız heç bilmirdi ki, Mübariz onu sevir. Bilmirdi və heç vaxt da bilməyəcəkdi. Kimisə sevib, ona ərə gedəcəkdi nə vaxtsa. Təki xoşbəxt olsun. Təki pis gün görməsin, üzü gülsün həmişə.

Mübarizə qismət olmadı sevdiyi qıza qovuşmaq. Qismət ola da bilməzdi. Çünki, nə qədər ki, tapdaq altında olan torpaqlar geri qaytarılmamışdı, nə qədər ki, düşmənlərdən bu torpaqlarda etdikləri vəhşiliklərə görə qisas alınmamışdı, Mübariz evlənmək barədə düşünməyəcəkdi.

Birdən məzuniyyətdə olarkən evlərində qeyd dəftərçəsinə çəkdiyi bir şəkil yadına düşdü. Adını bilmədiyi, amma ülvi məhəbbətlə sevdiyi qızı düşünərkən, qeyri-ixtiyari çəkmişdi o şəkli. Ürək və onu dəlib keçmiş ox rəsmi...

Peşman oldu o rəsmi çəkməyinə. Ya gərək, heç olmasa, cırıb ataydı o vərəqi. Ata-anası oğullarının ölümünü biləndən sonra nə vaxtsa vərəqləyəcəkdilər

qeyd dəftərçəsini və həmin şəkli görəcəkdilər. Onun sevmiş olduğu qızın kim ola biləcəyini düşünüb dərd çəkəcəkdilər. Anası daha çox göz yaşı axıdacaqdı.

Amma daha gec idi...

Mobil telefonunu əlinə götürüb onun yaddaşındakıları bir-bir yoxladı. Burada sirr sayıla biləcək, pozulmalı heç nə yox idi. Atasının, qardaşlarının, dostlarının telefon nömrələri, fotoları. Musiqi bölməsində isə dini mahnılar, türkülər:

– Əgər ölərəmsə, sağ olsun Vətən,

Məzarıma qapanıb ağlama, ana!

Nəhayət, telefonu söndürüb, onu da pencəyinin cibinə qoydu. Ayağa qalxıb qapıya yaxınlaşdı. Heç bir səs-səmir gəlmirdi. Əsgər yoldaşları artıq yatmışdılar. Kazarma lal sükuta qərq olmuşdu.

Daha yubanmaq istəmədi. Qətiyyətli hərəkətlə pencəyini soyunub divardakı mıxdan asdı. Dizini yerə ataraq dünəndən otağına gətirib, çarpayısının altında gizlətdiyi avtomat sandıqçalarını, tank əleyhinə işlədilən qumbaraları çıxartdı. Güllələrlə dolu sandıqçaları əsgər çəkmələrinin boğazına keçirib, qumbaraları yaxasında gizlətdi. İri əsgər bıçağını qınına taxıb, səbrlə kəmərindən asdı. Avtomatını əlinə götürüb son dəfə otağa göz gəzdirdi. Sonra isə neft lampasının işığını xeyli azaldıb, qaranlığa qərq olmuş otağı tərk etdi.





* * *

Hərbi hissədən çıxıb öz səngərlərinə yetişənə kimi bir qədər yol getməli idi. Çalışırdı ki, bu yolda heç kəs onu görməsin. Amma kazarmadan beş-altı addım aralanmışdı ki, Ülvi adlı əsgərlə rastlaşdı.

– Mübariz, bu vaxt hara gedirsən? – Ülvi soruşdu.

Ondan rütbəcə kiçik əsgərlər xətrini bir qardaş kimi əziz tutur, onu adı ilə çağırırdılar.

– Heç! – Mübariz əsgərin üzünə baxmadan cavab verdi. – Səngərdəki uşaqlara baş çəkib qayıdacam.

– Mən də gəlim səninlə?

– Yox, sən get, yat!

Ülvi təəccüblə çiynini çəkib kazarmaya doğru getdi. Hər halda, deyəsən, Mübarizə inanmışdı. Yəqin düşündü ki... Nə isə! Nə düşünür, düşünsün! Mübariz daha heç nə barədə fikirləşmək istəmirdi.

Gəlib arxa tərəfdən səngərin içinə girdi. Postdakı əsgərlərin yerini dəqiq bilirdi və çalışırdı ki, onları duyuq salmasın. Düşmən səngərinə qədər gedəcəyi yolun istiqamətini də son dörd-beş gündə durbinlə apardığı müşahidələrdən müəyyən etmişdi.

Dar və dərin səngərin içində bir anlıq dayanıb ət-

rafı dinlədi. Tam sakitlik idi. Əsgər yoldaşları ondan azacıq aralıda, öz postlarında ayıq-sayıq dayanıb düşmən səngəri tərəfə baxırdılar. Gərək elə ehtiyatla hərəkət edəydi ki, yoldaşları onu görməsinlər.

Səngərin içiylə gedib, nəzərdə tutduğu yerə çatdı. Zülmət qaranlıqda dayanıb həyəcanını boğmağa, özünü toparlamağa çalışdı və tezliklə buna nail oldu.

O, indi daha əvvəlki mehriban, ürəyi yumşaq, üzündə həmişə uşaq təbəssümü gəzdirən Mübariz deyildi. Sifəti sərtləşib daşa dönmüşdü, sanki. Bu dəqiqələrdə ürəyində düşmənə olan nifrətdən və qisas həvəsindən başqa heç nə yox idi.

Avtomatını boynundan asdı. Bir daha ətrafı dinləyib astadan:

– Ya Allah! – dedi və cəld hərəkətlə dırmanıb səngərdən çıxdı.

Bu zaman ayağının altından sürüşüb səngərə tökülən xırda daş-kəsəyin xışıltısından başqa heç bir səs eşidilmədi.





## ONUNCU BÖLÜM

**«Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəm...»**

**Mübariz**

Ağakərim namazı bitirib o biri otağa keçdi. Həyat yoldaşı ilə üz-üzə gələndə onun narahat halı nəzərindən qaçmadı.

– Nə olub, Şamama? – deyə soruşdu.

– Heç nə... – kövrəlmiş Şamama xanım üzünü yana çevirdi.

– Yox, nəsə birtəhər görünürsən.

– Nə bilim... Mübariz yadıma düşdü. Ürəyim yaman narahatdır.

Ağakərim dərindən köksünü ötürdü:

– Narahat olma. İndi Mübariz yatıb, yəqin ki.

– Telefonuna zəng vur, bir xəbər bilim. – Şamama xanım dedi.

– Bəlkə yatıb, niyə narahat edək?

– Zəng vur! Ürəyimə damıb nəsə...

Ağakərim daha etiraz etməyib cib telefonu ilə oğ-

lunun nömrəsinə zəng vurdu. Mübarizin telefonu bağlı idi...

– Bağlıdır. – dedi. – Orada çox vaxt telefon çəkmir. Ya da, ola bilsin, yatdığı üçün özü söndürüb.

Ana yanıqlı bir ah çəkib, başını buladı:

– Yazıq balam! Neçə gün yanımda oldu, doyunca qulluq eləmədim ona. Ürəyi istəyən xörəkləri bişirə bilmədim. Vaxt elə tez gəlib keçdi ki...

– Darıxma, bu dəfə məzuniyyətə gələndə ürəyin istəyən kimi qulluq edərsən.

– Görəsən, təzədən xəstələnməyib ki? – Şamama xanım dilləndi. – Soruşanda da o saat deyir ki, yaxşıyam. Bilmirsən doğru deyil, ya...

Mübariz məzuniyyətə çıxıb kəndə gələndə bir az soyuqlamışdı. Anası iki gün onun qulluğunda durdu. Kürəyinə bankə qoydu. Tərlədib, tez-tez paltarını dəyişdi. İndi də daha çox Mübarizin xəstəliyinin qayıtmasından narahat idi, yəqin ki.

– Mübarizdən birdən-ikiyə yalan eşitmisən? – Ağakərim gülümsədi.

– Yox, eşitməmişəm. Körpə uşaq kimi təmizdir mənim oğlum.

Şamama xanım bunu deyib otaqdan çıxdı. Yatmağa hazırlaşan Ağakərim isə çarpayısının üstündə oturub corablarını soyunmağa başladı.





O, arvadını, öz aləmində, yaxşı anlayırdı. Düşünürdü ki, ana ürəyi çox həssas olur. Balasının ən kiçik narahatlığını özünə dərd edir. Ancaq, hər halda, Ağakərimin fikrincə, Şamama xanım oğlunun ürəyindəkilərdən xəbərsiz idi. O, yalnız oğlunu hərbi xidmətə göndərmiş başqa analar kimi narahatlıq keçirirdi. Narahatlıq keçirirdi ki, oğlu soyuq səngərdə xəstələnə bilər. Qorxurdu ki, ermənilər atəşkəsi pozarkən atdıqları təsadüfi güllə oğluna dəyə bilər.

Amma Ağakərim... Əslində o da oğlunun nə etmək istədiyini tam anlamamışdı. Ürəyi ona deyirdi ki, atasından dönə-dönə halallıq alan, Vətənə qurban verildiyini eşidəndə uşaq kimi sevinən Mübarizin ürəyində ciddi bir məqsəd var. Nə idi görəsən onun məqsədi? Nə etmək istəyirdi? Bax, bunu heç cür anlaya bilmirdi Ağakərim.

Şamama xanımın içəri qayıtmadığını görüb corablarını yenidən geyindi və qalxıb həyətə çıxdı. Gecə olduğu üçün hava bir qədər soyumuşdu. Evin pəncərələrindən həyətə çox zəif işıq düşürdü. Alaqaranlıqda ətrafa boylandı. Şamama xanım həyətin o biri tərəfində, arxası ona tərəf dayanmışdı.

Arvadına doğru yeridi:

– Burada niyə dayanmısan?

Heç bir cavab almadı.

– Səninlə deyiləm? Niyə evə girmirsən?

– Ağakərim, – əllərini qoynuna qoymuş Şamama xanım dönüb ərinə baxdı. – Tərtər buradan hansı tərəfdədir?

Ağakərim arvadının səsindəki titrəyişdən təsirləndi. Bir anlıq düşünüb, əlini qabağa uzatdı:

– Bax, o tərəfdə. Niyə soruşursan? Gəl gedək içəri, paltarın nazikdir, soyuqlayarsan.

Şamama xanım bir müddət qaranlıqda ərinin göstərdiyi istiqamətə baxıb, dodağının altında nəsə pıçıldadı. Ağakərim onun qolundan tutub evə tərəf aparanda isə titrək səslə ucadan dilləndi:

– Bizdən nə istəyirlər bu kafirlər, Ağakərim? Niyə qoymurlar sakit yaşayaq?

– Darıxma, hər şey yaxşı olacaq. Gəl evə!

Evə girdilər. Şamama xanım:

– Sən yat. – dedi. – Mən yenə dua edəcəm.

Ağakərim daha ona etiraz etmədi və soyunub yatağına girdi. Şamama xanım isə otağın işığını söndürüb, canamazı xalçanın üstünə sərdi. Əllərini göyə açıb pıçıltıyla dua etməyə başladı.

Bir qədər sonra Ağakərim yuxuya getməsəydi, arvadının nisbətən ucadan dediyi sözləri eşidər və lap yəqin ki, bu sözlərdən heyrətlənərdi:





– Oğlum kafirlərin üstünə gedir, ya Rəbbim. Nəzərini onun üstündən çəkmə!

* * *

Sürünərək səngərdən iyirmi-otuz metr uzaqlaşmış Mübariz qaranlıqdan istifadə edib ayağa qalxdı və qarşıdakı alçaq təpəyə doğru yüyürməyə başladı.

Qisas gecəsi gəlib çatmışdı, deyəsən...

Buna heç özünün də inanmağı gəlmirdi. Gör neçə illərdir bu günün arzusu ilə yaşayırdı. Neçə illərdir indicə tərk etdiyi bu səngərə yetişmək üçün can atırdı. Can atırdı ki, səngərə buraxsınlar onu və gecələrin birində pələng kimi sıçrayıb çıxsın bu səngərdən. Çıxsın və birbaş yağı düşmənin üstünə yerisin. Şükür! Şükür ki, arzusunu ürəyində qoymadı Uca Tanrı.

Avtomatını sağ əlində tutub, əsl idmançılara məxsus inamlı yerişlə qaçırdı. Hava sərin idi. Yan tərəfdən əsən meh qolsuz əsgər köynəyindən çıxmış çılpaq, əzələli qollarına toxunduqca özünü yüngül və rahat hiss edirdi.

Təpəni aşandan sonra dayanıb nəfəsini dərdi. Artıq birinci mərhələni keçmişdi. Yəni, yoldaşları-

nın gözündən yayınıb doğma səngərdən uzaqlaşa bilmişdi.

Yoluna düzəlib bir qədər ehtiyatla yeriməyə başladı. Getdikcə düşmən səngərinə yaxınlaşırdı. Həm də, ən əsası, ermənilər tərəfindən minalanmış ərazidən keçəcəkdi.

Ölümünü gözünün önünə aldığı üçün heç bir qorxu hissi keçirmirdi. Qorxduğu bircə şey var idisə, o da təsadüfən minaya düşmək qorxusu idi. Belə olardısa onun ölümü çox ucuz və mənasız bir ölüm olacaqdı. Deyəcəkdilər ki, bir gizir gecə, hansı məqsədləsə, düşmən tərəfə keçərkən minaya düşərək həlak olub.

Bax, bu əsl faciə, dəhşətli bir məğlubiyyət olardı. Düşməndən qisas almadan ölmək! Bunu düşünəndə həyəcandan bədənini tər basdı. Yenə üzünü göyə tutub Allaha yalvardı:

– Mənim qisas almağıma kömək elə, ya Rəbbim! Özün bilirsən ki, bu ədalətli qisasdır. İmkan vermə ki, qisasımı almadan ölüm.

Həftələrdir ki, hər ibadətində bu sözləri demişdi. İndi də dedi və Allahına inamı ona yenidən qüvvət verdi. İnandı ki, Allahın nəzəri onun üstündədir.

Nə yaxşı ki, hələ Ay çıxmamışdı. Hər tərəf qaranlıq idi. Yoxsa düşmən səngərindən onu görə bilərdi-





lər. Seyrək ot bitmiş şoran torpaqla səs salmadan irəliləyirdi. Bu torpaq onun öz doğma torpağı idi, o heç kəsin torpağına qanunsuz soxulmamışdı və bu hissin özü də ona qeyri-adi güc verirdi.

Nəhayət, düşmən səngərinə lap yaxınlaşdığını anlayıb yerə uzandı. Gözü qaranlığa alışdığı üçün, çətinliklə də olsa, səngərin qarşısında uzanıb gedən alçaq torpaq təpəciklərini görürdü. O, indi bu təpəciklərdən on-on beş metr məsafədə idi. Son dərəcə ehtiyatla daha bir neçə metr irəliyə doğru süründü və erməni əsgərlərinin səngərin hansı nöqtələrində postda durduğunu aydınlaşdırdı.

Hər halda, o özünə ən yaxın olan iki postun yerini dəqiq bilirdi. Sağ tərəfdəki postda, pulemyotun torpaq təpəciyin yarığından çıxmış ucunu belə görə bilirdi.

Amma alçaq ot topalarının arasında uzanmış Mübarizi hələ görə bilməmişdilər. Səngərdən heç bir səs-səmir gəlmirdi. Uzandığı yerdə dayanıb gözlədi. Bundan irəli getmək çox qorxulu idi. Onu görüb, dərhal atəş aça bilərdilər.

Bir neçə dəqiqə beləcə keçdi. Sağdakı postda dayanmış əsgər ucadan səslənib erməni dilində nəsə dedi. Sol tərəfdə və bir qədər uzaqda dayanmış əsgər onun səsinə səs verdi. Sonra birinci əsgər mahnı

oxumağa başladı. Hansısa əcaib bir mahnının qolqabırğasını qıraraq oxuyurdu.

Mübariz avtomatını ehtiyatla sol əlinə aldı, sağ əliylə, kəmərindən asılmış bıçağı çıxarıb daha bir qədər irəli süründü. O, səngərdən qazılıb çıxarılmış və səngərin qarşısına yığılmış torpaq zolağına çataraq oradan səs-küy salmadan səngərə girmək istəyirdi.

Amma, bu mümkün olmadı. Pulemyotun arxasında dayanmış əsgər birdən-birə mahnısını kəsib, həyəcanla yoldaşını səslədi. Artıq şübhə yox idi ki, o beş-altı metr qabaqda sürünərək gələn Mübarizi görmüşdü.

Belə bir şeyi qətiyyən gözləməyən erməni əsgəri qorxub, özünü itirmişdi, yəqin ki. Bir neçə saniyə, cəmi bir neçə saniyə kifayət idi ki, o özünə gəlib nə baş verdiyini anlasın və pulemyotu işə salıb, qurd ürəyi yemiş Azərbaycan əsgərinin bədənini xəlbirə döndərsin.

Amma Mübariz bu bir neçə saniyəlik imkanı verməd ona. Düşmənini heyrətə gətirən bir cəldliklə yerindən sıçrayıb, pulemyotun qaranlıqda güclə görünən lüləsinə doğru şığıdı və bircə an da tərəddüd etmədən, onun üstündən uçaraq səngərə atıldı. Onun bu hərəkətini yalnız göydən öz ovunun üstünə şığıyan qızılquşun, yaxud cəngəllikdən çıxıb göz qırpımında ovunu qamarlayan pələngin hərəkəti ilə müqayisə etmək olardı.





Dərin və qaranlıq səngərin içinə düşən kimi, pulemyotun arxasında dayanmış əsgər qeyri-ixtiyari ona tərəf döndü və bundan istifadə edən Mübariz əlində tutduğu bıçağı dəstəyinə kimi onun sinəsinə yeritdi.

Zərbə çox qüvvətli alınmışdı. Gənc əsgərin dilindən yalnız qırıq bir heyrət nidası qopdu və dərhal ağzından qan axmağa başladı. Sonra Mübariz bıçağı onun sinəsindən çıxartdı. Ölmüş əsgər səngərin döşəməsinə yıxıldı.

Bu, Mübarizin həyatı boyu öldürdüyü ilk insan idi. Bircə anlıq həyəcanlansa da, özünü çox tez ələ aldı. O, düşmən səngərinin içində idi və buraya qisas almağa gəlmişdisə sayıqlığını heç cür itirməməliydi. Yoxsa, hər şey yarımçıq qala bilərdi.

Qanlı bıçağı əlində hazır tutaraq ikinci əsgərin səsi gələn tərəfə irəlilədi. Səs getdikcə yaxınlaşırdı. Deyəsən, bu əsgər yoldaşından səs çıxmadığını görüb, öz postunu buraxaraq ona tərəf gəlirdi.

Səngərin içində qəfil üz-üzə gəldilər. Avtomatını boynundan asmış Mübariz bircə saniyə də itirmədən sol qoluyla düşmənini qamarlayıb, bıçağı onun boğazına çəkdi.

Ermənin boğazından sıçrayan isti qanı əlində

hiss edəndə qurbanını itələyib yıxdı və üstündən keçərək qabağa yeridi. İndi o, həqiqi mənada, qızmış pələngə dönmüşdü. Qarşısına kim çıxarsa, onunla əlbəyaxa döyüşə hazır idi. Ürəyi də, sanki, qollarının qüvvətli əzələləri kimi daşa dönmüşdü. Heç kəsə, heç kəsə rəhm etmək fikrində deyildi.

Bu dəfə qarşısına birdən-birə üç əsgər çıxdı. Yəqin ki, onlar da yoldaşlarının başına nə iş gəldiyini öyrənmək istəmişdilər. Qabaqda gələn və Mübarizin qəfil hücumunu gözləməyən erməni də sərrast bıçaq zərbəsinin qurbanı oldu.

Bıçağı düşməninin sinəsindən çıxarmağa imkan tapmayan Mübariz ikinci əsgərin üstünə atılıb onun başından yapışdı və peşəkar bir hərəkətlə burub boynunu sındırdı. Üçüncü əsgər bərkdən çığırıb qaçmaq istəyəndə, arxasından atılıb vurduğu amansız zərbə ilə onu da yerə sərdi və ayağını boğazına dirəyib nəfəsini kəsdi.

Bu zaman arxa tərəfdən səs-küy eşitdi. Avtomatını hazır tutaraq səngərin torpaq divarına söykəndi və gözləməyə başladı. Sinəsi aramla qalxıb enirdi. Bilirdi ki, indi onu qarşıda daha çətin döyüş gözləyir. Amma, azacıq da olsun, qorxu hissi keçirmirdi. Qisas eşqi beynindən hər şeyi qovub çıxarmışdı.

Yüyürə-yüyürə gələn bir neçə əsgər onun bərabə-





rinə çatdılar. Qabaqda gələn erməni yerdəki meyidə ilişib səntirlədi və az qaldı ki, yıxılsın. Bundan istifadə edən Mübariz şir kimi nərə çəkib özünü irəli atdı. Amansız bir əlbəyaxa döyüş başladı. Qarışıqlıq olduğu üçün düşmənlər də atəş açmırdılar. Qorxurdular ki, güllə yoldaşlarına dəyər.

Mübariz birinci əsgəri qüvvətli boks zərbəsi ilə yerə sərdi. Sonra isə o birilərlə əlbəyaxa döyüşə girişdi. Fiziki hazırlıqları ondan qat-qat zəif olan həmin əsgərlər də qarşısında tab gətirə bilmədilər. Bircə dəqiqə keçməmiş, hər ikisi səngərdə uzanıb zarıyırdılar.

Mübariz yerə yıxdığı ermənilərin kürəyinə avtomatın qundağı ilə zərbə endirdi. Sonra silahını əlində hazır tutub səngər boyu qətiyyətlə yeriməyə başladı. İndi ətrafa tam sakitlik çökmüşdü. Belə çıxırdı ki, səngərdə salamat düşmən əsgəri qalmayıb.

Sağ tərəfə yol ayrıldığını görüb, ora buruldu və üstü örtülmüş sığınacağa girdi. Buradakı kobud taxta masanın üstündə neft lampası yanırdı. Masada açılmış süfrə yemək qalıqları ilə dolu idi. Hətta bir boş araq şüşəsi də diqqəti cəlb edirdi.

Masaya yaxınlaşanda arxadan hənirti eşidib geriyə çevrildi. Girişin ağzında dayanmış silahlı əsgəri görən kimi cəld atəş açdı. Güllələri boşa çıxmamışdı. Əsgər yaralı vəziyyətdə yerə sərildi.

Mübariz ehtiyatı əldən vermədən, silahını hazır tutub ona yaxınlaşdı. Yaralı əsgər torpaq döşəmədə qıvrılıb inildəyirdi. Onun Mübarizə dikilmiş gözlərində qeyri-adi bir heyrət və qorxu nişanəsi var idi.

Əyilib onun avtomatını yerdən götürdü. Üzünə nifrətlə baxıb:

– Mənim torpağımda sənin nə işin var idi axı? – deyə soruşdu.

Erməni əsgəri onun nə dediyini anlamamışdı. Öz dilində nəsə deyib, yalvarmağa başladı. Yəqin ki, öldürülməməsi üçün yalvarırdı. Mübariz ona bir müddət sakitcə tamaşa edib sığınacağın o biri başına getdi.

Burada səhra telefonu, bəzi silahlar və güllə dolu yeşiklər diqqəti cəlb edirdi. Birinci növbədə bıçaq tapıb, telefonun məftilini kəsdi. Sonra bir neçə avtomat sandıqçası, tank əleyhinə qumbaralar götürüb kəmərinə taxdı. Hər çiynindən bir avtomat asaraq, iri və ağır qumbaraatana bir qədər tamaşa edəndən sonra onu da götürdü.

Sonra dayanıb qalib nəzərlərlə ətrafına baxdı. O, artıq düşmən səngərini basmışdı. İndi buradan çıxıb, ermənilərin ən yaxın hərbi hissəsinə getmək olardı.

Səngərə açılan qapıya baxdı. Bu qapıdan çıxıb səngərdən qalxaraq öz doğma hərbi hissəsinə qayıda





bilərdi. Amma o, geriyə qayıtmaq üçün gəlməmişdi buraya. Düşmənin üstünə axıradək gedəcəkdi. Məktubda necə yazmışdısa, eləcə. Şəhid olanadək...

Dönüb əks tərəfdəki qapıya doğru yeridi. Bu zaman ürəyinə qəfil dolmuş hansısa bir naməlum duyğu onu ayaq saxlamağa vadar etdi. Ona elə gəldi ki, anasının səsini eşidir:

– Bəsdir, oğul, sən öz intiqamını aldın. Qayıt geri!

– Yox, ana! – dodağının altında pıçıldadı. – Mənim qisasım hələ çox ağır olacaq. Kim olduğumu göstərəcəm bu şərəfsizlərə!

– Qayıt, Mübariz! – yenə o səs gəldi qulağına.

Anasının xəyalını beynindən uzaqlaşdırıb, qəti addımlarla yeraltı sığınacağı tərk etdi. Hər yer zülmət qaranlığa qərq olmuşdu. Amma, yəqin ki, bir azdan Ay çıxacaqdı...

# ON BİRİNCİ BÖLÜM

***«Türkləri öldürmək olar, amma əsla məğlub etmək olmaz.»***

**Napoleon Bonapart**

*(Böyük fransız sərkərdəsi və imperatoru)*

Gecə saat on biri keçmişdi...

Bu gecə Bakının sakinləri üçün, Azərbaycanın digər azad şəhər və kəndlərinin sakinləri üçün adi gecələrdən biri idi. Bir çoxları yatağına girib yatmışdı artıq. Hər şeydən xəbərsiz şirin yuxuda idilər.

Amma, hələ yatmayanlar da az deyildi. Səngərlərdə dayanmış əsgərlər gözlərini bir an da qırpmadan, əllərini bir an da avtomatın tətiyindən çəkmədən düşmən mövqeləri tərəfə baxırdılar. Qarşıdakı imtahanlara hazırlaşan tələbələr masanın arxasında oturub kitab oxuyurdular. Hələ yatmayan adamların bir çoxları isə televizorun qarşısında əyləşib gözlərini ekrana zilləmişdilər. Baxdıqları əyləncəli verilişlərdən vəcdə gəlib qışqırışır, əllərini heyrətlə bir-birinə vururdular.

Gecənin bu saatı toyların da qızışmış vaxtı hesab





olunurdu. Dəbdəbəli şadlıq saraylarında artıq meydançalar rəqs edənləri tutmurdu. Hamı yeyib doymuşdu, hamı içib hallanmışdı və rəqs edib enerjisini sərf etmək istəyirdi. Bir azdan toy süfrələrinə aş gələcəkdi...

Gecə saat on biri keçmişdi...

İşğal olunmuş Azərbaycan torpaqlarında isə qorxunc bir ölü sükutu hökm sürürdü. Artıq iyirmi ilə yaxın idi ki, bu torpaqlar mənfur düşmənlərin tapdağı altında qalmışdı. Gündüzlər erməni əsgərləri bu torpaqlarda hərbi təlimlər keçir, öz murdar ayaqları ilə müqəddəs torpağı tapdalayıb murdarlayırdılar. Gecələr isə həmin torpaqlar gündüz aldıqları yaraların təsirindən asta-asta inildəyir, səhərədək uyumayıb sirli bir səslə nalə çəkirdilər.

Tərtərin bu geniş düzənliyi də eləcə...

Ay təzəcə çıxıb öz sehrli işığını ətrafa səpələmişdi. Ucsuz-bucaqsız düzənlikdə heç bir canlı gözə dəymirdi. Yalnız hərdən yaxın meşələrdə ulaşan canavarların, çaqqalların səsi bu yerlərdə həyat olduğundan xəbər verirdi.

Ay işığına bürünmüş düzənlikdə qəflətən tək bir adam göründü. Sanki xəyal idi o... Sanki neçə illərdən bəri düşmən əsarətində olan torpağın yuxusundan çıxıb gəlmişdi. Başını dik tutaraq düzənliyin or-

tası ilə, düz istiqamətdə, ağır-ağır irəliləyirdi. Onun gecənin bir aləmində bu düzənlikdə olmasından Allahdan başqa heç kəsin xəbəri yox idi.

Amma bu adama yaxından baxan olsaydı, onun xəyal olmadığını dərhal görərdi. Əynində qolsuz hərbi köynək, başında Azərbaycan əsgərinə məxsus hərbi beret... Hər iki əlində avtomat, boynundan asılmış ağır qumbaraatan, kəmərində tank əleyhinə qumbaralar...

Başdan-ayağa silahlanmış bu gənc iyirmi iki yaşlı Mübariz İbrahimov idi. O, düşmən səngərini təkbaşına basaraq, postda dayanmış əsgərləri məhv etmişdi və indi birbaş düşmən hərbi hissəsinin yerləşdiyi kəndə doğru irəliləyirdi.

Üstündə yeridiyi bu torpaq ona məxsus idi və həmişə də onun olmuşdu. Amma hazırda düşmən əsarətində əzab çəkirdi bu yerlər. Çoxdandı buraya vətən oğullarının ayağı dəymirdi. Onlara yasaq olunmuşdu bu torpağa ayaq basmaq.

O isə heç kəsdən qorxmadan, tam qətiyyətlə ayaq basmışdı bu torpağa və qətiyyətlə də yeriyirdi. Ona elə gəlirdi ki, ayağını hər dəfə yerə basanda torpaq sevinir. Düşmən tapdağından əzilmiş sinəsində doğma balası gəzdiyi üçün sevinir. Hətta sevinc dolu sirli səsini də eşidə bilirdi torpağın:





– Oxxay! Can! Can, mənim balam! Can, Mübarizim!

Az qala gözləri dolacaqdı bu fikirdən və ürəyində torpağın cavabını verdi:

– Can sənə, Anam mənim! Can sənə! Sənin uğrunda canımı verməyə gedirəm. Heç darıxma, səni azad edəcəklər bu şərəfsizlərin əlindən. Azad edəcəklər. Mən isə sənə vurulan yaraların qisasını alacam bu gecə. Analarını ağlar qoyacam o kafirlərin!

Ona elə gəlirdi ki, Allahın göndərdiyi mələklər bu saat başının üstündə uçub ona yol göstərir, onu hər cür təsadüfi təhlükədən qoruyurlar. Çünki, etdiyi hərəkətin ədalətli bir hərəkət olduğuna inanırdı. Bilirdi ki, bu torpağa zorakılıqla girmiş yağıların qanını tökməyə haqqı var.

* * *

Gəlib alçaq bir qayalığın üstünə çıxdı. Buradan baxanda qayalığın altından keçən maşın yolu aydın görünürdü. Mübariz neçə gündən bəri xəritədə müşahidə etdiyi bu yerləri yaxşı tanıyırdı. Bilirdi ki, bu yol erməni hərbi hissəsinin yerləşdiyi kənddən gəlib birbaş səngərə gedir. O səngərə ki, Mübariz bir az əvvəl həmin səngəri basıb gəlmişdi.

Göydə parlayan Ay yola işıq saçırdı. Amma yolun üstündəki daşlı sıldırıma qayalığın kölgəsi düşdüyü üçün ora qaranlığa qərq olmuşdu. Fikirləşdi ki, yola enməsin və kəndə yolun üstüylə, daha xəlvət yerlərlə getsin.

Amma bu zaman uzaqdan gələn maşın səsini eşidib dayandı. Səs erməni hərbi hissəsinin yerləşdiyi kənd tərəfdən gəlirdi və getdikcə yaxınlaşırdı. Bu nə olardı, görəsən? Bəlkə, səngərdə baş verənlərdən xəbər tutmuşdular?

Qəfil ağlına gələn fikri həyata keçirmək üçün yer tapıb sıldırımla aşağı enməyə başladı. Amma yola çox da yaxınlaşmaq istəmirdi. İri bir daşın arxasında dayandı. Burada rahat gizlənmək olardı. Boynundan asdığı ağır qumbaraatanı da, avtomatları da yerə qoyub gözləməyə başladı.

Nəhayət, gurultu səsi lap yaxınlaşdı və kənd tərəfdən gələn iri hərbi maşın yolda göründü. Daha sonra onun arxasınca ikinci belə maşın. Hər iki maşının kuzovu silahlı əsgərlərlə dolu idi.

Mübariz vəziyyəti dərhal anladı. Bildi ki, erməni qərargahı səngərdəki əsgərlərin məhv edilməsindən xəbər tutub. Ya səngərdəki yaralılardan kimsə qərargaha xəbər verib, ya da qərargahdan səngərə





zəng vurulub və cavab verilmədiyi üçün əl-ayağa düşüblər.

Qumbaraatana baxdı. Burada arxası qayalığa dirəndiyi üçün ondan istifadə edə bilməyəcəkdi. Kəmərindəki əl qumbaralarından bir neçəsini çıxarıb daşın dalında gizləndi.

Deyəsən, yenə həyəcanlanmağa başlamışdı. Amma özünü tez də ələ aldı. Tamam sakitləşdi və hətta ağlından keçirdiyi fikirdən gülümsədi də: «İndi bunlar, yüz faiz fikirləşir ki, bizimkilər səngərə hücuma keçib. Ancaq ağıllarına gətirmirlər ki, üstlərinə tək gəlmişəm..»

Birinci maşın gəlib Mübarizin gizləndiyi yerin bərabərinə çatdı. Mübariz onun daha bir neçə metr qabağa getməsinə imkan verib ayağa qalxdı və «Ya Allah!» deyib əlindəki qumbaraların ikisini kuzovda oturmuş əsgərlərin içinə tulladı.

Dəhşətli partlayışın səsi əsgərlərin qışqırıq səslərinə qarışdı. Bu zaman ikinci maşın Mübarizin qarşısına çatmışdı və o, əlindəki o biri qumbaraları da bu maşına tullayıb, daşın dalına yatdı.

Yaralı əsgərlərin çığırtısı ətrafı bürümüşdü. Qarışıqlıqdan istifadə edən Mübariz avtomatın birini götürüb salamat qalanlara atəş açmağa başladı. İlk olaraq birinci maşının kabinəsindən yerə enən sürü-

cü vuruldu. Daha sonra qaçmağa cəhd edən komandir. Daha sonra bir başqası...

Tək-tək sağ qalmış ermənilər qəfil basqından başlarını itirib pərakəndə atəş açır, amma tezliklə Mübarizin atdığı gülləyə tuş gəlib yerə sərilirdilər.

Nəhayət, atəş səsləri kəsildi. İndi yolda ancaq yaralı əsgərlərin zarıltı səsi eşidilirdi. Mübariz daha bir qədər gözləyib, silahlarını götürərək ayağa qalxdı. Qaranlıq cığırla ehtiyatla enib yola çıxdı.

Maşınların ətrafı düşmən meyidləri və yaralılarla dolu idi. Mübariz bir dəqiqəyə qədər dayanıb onlara tamaşa etdi. Bu zaman onun sərt üzündə heç bir rəhm duyğusu oxunmurdu. Əksinə, qalib bir ifadə var idi baxışlarında.

O, demək olar ki, nəzərdə tutduğu qisasını almışdı. Amma dayanmaq, geri qayıtmaq fikri də yox idi. «İrəli, yalnız irəli!» deyə düşünürdü. Özü şəhid olanadək düşmənlərinin üzərinə gedəcəkdi.

Meyidlərin üstündən keçərək hadisə yerindən aralandı və cəsarətli addımlarla düşmən qərargahının yerləşdiyi kəndə doğru yeriməyə başladı.

* * *





Kənd görünəndə yoldan çıxıb özünü iri kolluqların arxasına verdi. Heç yorulmamışdı. Üstündəki silahların ağırlığını da hiss etmirdi, sanki.

Xəlvət və qaranlıq yerlərlə bir qədər gedəndən sonra düşmənin kazarmasını görə bildi. Oraya gizlin yaxınlaşmaq üçün ağaclıqların ətrafından böyük bir sahədə dövrə vurmağa məcbur oldu.

Bu zaman qulağına qarışıq səslər gəlməyə başladı. Ehtiyatla irəliləyib kiçik təpəciyin arxasında gizləndi. Budur, bu da kazarma kimi istifadə olunan köhnə məktəb binası... Uzandığı yerdən kazarmanın qapısı və onun qarşısındakı meydança əl içi kimi görünürdü. Bu meydançaya xeyli silahlı əsgər toplaşmışdı. Bir qədər kənarda iki hərbi maşın gözə dəyirdi.

Vəziyyəti soyuqqanlıqla qiymətləndirən Mübariz özünə rahat və qismən təhlükəsiz bir mövqe seçdi. Buna onun vaxtı da, imkanı da var idi. Çünki, kazarmanın qarşısına toplaşmış ermənilər qurd ürəyi yemiş bir Azərbaycan əsgərinin səngərləri basıb keçərək, düz qulaqlarının dibinə qədər gəlib çıxa biləcəyini xəyallarına belə gətirmirdilər. Onlar yalnız səngərdə nəsə baş verməsi barədə xəbər eşitmişdilər və lazım gələrsə, oraya göndərilmiş iki maşın dolusu əsgərlərin dalınca getmək üçün əmr gözləyirdilər.

Kazarmanın işıqları yanırdı və içəridə də əsgərlər görünürdü. Tək-tək adamlar hərdən tələsik addımlarla oraya girib-çıxırdılar.

Mübariz avtomatlarından birini və dörd güllə sandıqçasını seçdiyi mövqedə gizlədərək yerini dəyişdi. Sürünərək gəlib çıxdığı ikinci mövqe birincidən azı iyirmi metr uzaqda idi. İndi o, kazarmanın yan tərəfində dayanmışdı. Əsgərlərin yığışdığı meydança buradan da aydın görünürdü.

Dizini yerə qoyub ağır qumbaraatanı çiyninə qaldırdı və meydançadakı əsgərlərin sıx topasını nişan aldı. Barmağını tətiyə aparanda hansısa bir daxili hiss onu dayanmağa məcbur etdi. Nə qədər qətiyyətli və soyuqqanlı olsa da alnını həyəcan təri basmışdı.

Qarşıda onu qanlı və təhlükəli bir döyüş gözləyirdi. Qeyri-adi bir döyüş. Bu döyüşdə o təkbaşına böyük düşmən dəstəsinə qarşı vuruşmalıydı. Bu idimi Mübarizin tərəddüdünə səbəb olan? Buna görəmi barmağını tətiyin üstündə saxlayıb durmuşdu?

Yox, o bura qisas almağa, həm də şəhid olanadək vuruşub qisas almağa gəlmişdisə, heç bir təhlükə qorxusundan söhbət gedə bilməzdi. Onu bir anlıq tərəddüd edib dayanmağa məcbur edən səbəb isə tamam başqa idi.

Mübariz düşünürdü ki, bu əsgərlər onun burada





olmasından xəbərsizdilər. Düşünürdü ki, əgər tətiyi çəkərsə, meydançaya toplaşmış bu əsgərlərin çoxu bircə anda parça-parça olacaq. Ölənlər öləcək, ölməyənlər şikəst qalacaq. Uşaqlığından ürəyində yer almış rəhm duyğusu az qaldı qisas eşqinə güc gəlsin. Düşündü ki, bu əsgərlər də insandırlar, onların da ata-anası, bacısı, başqa gözləyənləri var evlərində...

Amma...

Bu düşmən əsgərləri onun doğma torpağını zəbt etmişdilər. Sabah bunlar səngərə gedib yenə atəşkəsi pozacaqdılar. Azərbaycan mövqelərini atəşə tutacaqdılar. Yenə Azərbaycanın şəhərlərinə, kəndlərinə ağzı bağlı əsgər tabutları gedəcəkdi.

Bakıda söhbət etdiyi şikəst qadını xatırladı. Yalın ayaqları qaynar suda bişirilmiş, sonra isə paslı mismarlarla mismarlanmış qadın qucağındakı körpəsini xilas etmək üçün çığıra-çığıra qaçırdı. Arxadan ona tamaşa edən ermənilər gülməkdən uğunub getmişdilər.

Həmin qadınla söhbət etdiyi günün axşamı yuxusuna girmiş Ermənininin həyasız danışıqlarını xatırladı. Onun arxasında dayanmış kişilərin istehzalı baxışlarını xatırladı.

Sonra xəyalı lap uzağa getdi. Bir məscid gördü bu xəyalında. Ermənilərin əlindən qaçıb məscidə pənah

gətirmiş dörd yüz arvad-uşağı gördü. Gözlərini qan tutmuş ermənilər məscidin qapılarını bağlayıb ona od vurdular. Qışqırıq, nalə səsləri az qaldı ki, qulaqlarını deşsin.

Qəhrəman türk gəncinin dodaqları titrəməyə başladı:

– Siz insan deyilsiniz, əclaflar, şərəfsizlər! Sizin kökünüzü kəsmək lazımdır!

Dəhşətli partlayışın səsi kazarmanın binasını da silkələdi. Meydançada toplanmış əsgərlərin parçalanmış meyidləri ətrafa səpələndi. Yaralıların naləsi salamat qalanların qorxu dolu qışqırığına qarışdı.

Mübariz daha vaxt itirməyib ayağa qalxdı və özü ilə gətirdiyi əl qumbaralarını bir-bir kazarmanın pəncərələrinə tolazladı.

Vay-şivən səslərindən qulaq tutulurdu. Bir an da keçdi və salamat qalmış, əli silah tutan əsgərlər qapıdan çıxaraq kazarmanın yan tərəfinə, Mübarizin gizləndiyi yerə tərəf atəş açmağa başladılar.

Çox güman, onlar Azərbaycan ordusunun qəfil hücuma keçdiyini zənn edirdilər. Qaranlıqda kazarmanın yan tərəfindəki ağaclığı kor-təbii atəşə tutmuşdular.

Bunu qabaqcadan düşünmüş Mübariz nəzərdə tutduğu yolla sürünüb, özünü birinci mövqeyinə çatdırdı. Həyətdə ora-bura qaçışan əsgərlər buradan aydınca görünürdü. Mübarizin bu mövqeyinə atəş açan yox idi. Hamı qumbaraların atılmış olduğu tərəfi hədəfə götürmüşdü.





Uzandığı yerdən vəziyyəti sakitcə müşahidə edən Mübariz bu zaman bir neçə erməni əsgərinin necə yerə sərildiyini gördü. Özlərini itirib kazarmadan yenicə çıxmış əsgərlər daha əvvəl ağaclığa tərəf qaçmış əsgərləri Azərbaycan əsgəri hesab edib onları atəşə tutmuşdular. Bəli, ermənilər qorxudan şoka düşüb bir-birlərini qırırdılar...

Bunu anlayan Mübarizin sərtləşib daşa dönmüş üzündən acı bir təbəssüm keçdi:

– Qorxaq tülkülər! Baxın, busunuz siz! Hələ mən təkcə gəlmişəm sizin üstünüzə. Onca nəfər gəlsəydik, axırınıza çıxardıq hamınızın.

Avtomatı götürüb, kazarmanın qarşısındakı işıqda aydın görünən əsgərlərə atəş açdı. Bir neçə əsgər yerə yıxıldı. Digərləri isə qışqırıq salıb qaçmağa, qaranlıqda, hara gəldi, pərakəndə atəş açmağa başladılar. Deyəsən, Azərbaycan əsgərləri tərəfindən mühasirəyə alındıqlarını zənn etmişdilər.

Mübariz yaranmış əlverişli vəziyyətdən istifadə edib daha qətiyyətlə döyüşməyə başladı. Damarlarında axan türk qanı içindəki qurd cəsarətini üzə çıxarmışdı. Üstünə yağan güllələrə tuş gələ biləcəyin-

dən ehtiyat etmədən, inadla vuruşur, sürətlə yerini dəyişərək düşmənlərini çaş-baş salırdı.

* * *

Ağakərim yuxudan qəfil ayılıb ətrafa boylandı. Həyat yoldaşı yataqda deyildi. Dikəlib, otağa göz gəzdirdi. Şamama xanım xalçanın üstündə dizi üstə çöküb əllərini göyə açmışdı. Katilin üstünə qoyduğu telefonunda saata baxanda təəccübləndi. Saat beşin yarısı idi. Bir azdan səhər açılacaqdı.

– Sən nə edirsən? – deyə soruşdu.

Şamama xanım astadan dua etdiyi üçün cavab vermədi.

– Hələ yerinə girməmisən?

Hə, deyəsən belə idi. O, demək olar, bütün gecəni ibadətlə keçirmişdi.

Ağakərim yataqdan qalxıb arvadına yaxınlaşdı:

– Dur, keç yat! Belə eləmə, xəstələnərsən. Nə olub axı?

– Bilmirəm... – Şamama xanım nəhayət dilləndi. – Ürəyim çox narahatdır, Ağakərim. Mübariz üçün...

– Mübariz indi rahatca yatır. – Ağakərim onun sözünü kəsdi. – Gəl, yat sən də. Boş yerə özünü üzmə.

Şamama xanım ərinin sözünü yerə salmayıb





qalxdı. Yorğun halda yatağına girib yorğanı sinəsinə çəkdi. Alaqaranlıqda gözlərini tavana zilləyib dodaqaltı pıçıldadı:

– Ya rəbbim! Mübarizin ürəyi həmişə səninlə olub. Onu nəzərindən salma, qurbanın olum!

Bunları deyib bir qədər sakit dayandı. Sonra isə ərinə tərəf çevrilmədən:

– Saat neçədir? – deyə soruşdu.

– Beşə qalıb. – Ağakərim dedi. – Heç nə fikirləşmə. Çalış, heç olmasa, bir-iki saat yatasan.

Amma Şamama xanım fikirləşməyə bilmirdi. İndi də yadına Mübarizin uşaqlıq illəri düşmüşdü. Üç-dörd yaşı olardı onda. İkinəfərlik çarpayıda onunla Ağakərimin arasında yatırdı həmişə. Gah atasının boynunu qucaqlayırdı, gah da onun. Deyirdi, gəlin mən sizə layla deyim, yatın. Başlayırdı layla deməyə. Yəni, əslində, layla da demirdi. Eşitdiyi mahnıları səhv ya düz, özü bildiyi kimi oxuyurdu:

– Vətən məni yetişdirib yolladı,
Bu torpağa qurban dedi...

Ananın dodaqlarında təbəssüm göründü. Ona elə gəldi ki, Mübariz hələ dörd yaşındadır. Bu dəqiqə atası ilə onun arasında uzanıb layla deyir.

Beləcə, özünün də xəbəri olmadan gözləri yuxuya getdi...

* * *

Mübariz vuruşa-vuruşa kəndin içərilərinə doğru çəkilmişdi. İndi lap yaxınlığında pəncərələrindən işıq gəlməyən kimsəsiz bir ev görünürdü.

Neçə saat vuruşduğunun fərqində deyildi. Yaman yorulmuşdu. Üstəlik, gülləsi də qurtarmaq üzrə idi.

Hava yavaş-yavaş işıqlaşırdı...

Arxadan atəş səsləri eşidəndə mühasirəyə alındığını başa düşdü. Düşmənlərə haradansa əlavə dəstələr köməyə gəlmişdi. Onlar azalmaq əvəzinə getdikcə çoxalırdılar.

Geri çevrilib onu nişan almış bir erməniyə atəş açdı. Çarəsiz qalıb mövqeyini tərk etdi və qaçaraq yaxındakı evin arxasına keçməyə çalışdı.

Bu zaman sol böyrünün sanki alışıb-yandığını hiss edib səntirlədi. Bəli, axır ki, onu vura bildilər. Mübariz bunu döyüşə başladığı andan gözləyirdi. Bilirdi ki, gec-tez ona da güllə dəyəcək. Yıxılmamaq üçün bütün qüvvəsini toplayıb, qaçaraq özünü binanın arxasına çatdıra bildi. Bu tərəfdə hələ ki, düşmən əsgəri görünmürdü.

Divara söykənib əlini yarasına toxundurdu. Qana bulaşmış əlinə baxıb, onu köynəyinin yaxasına





sildi və həmin anda da avtomatını qaldırıb tində görünən əsgərə atəş açdı. Ölmüş erməni əsgəri yerə yıxıldı.

Vəssalam! Sonuncu güllələri də belə getdi. Bir anlıq təəssüf hissi ilə boş avtomatına baxıb onu yerə tulladı. Yarasından dayanmadan qan axdığı üçün ayaq üstə durmaq çətinləşirdi. Amma yenə də özünü toparlayıb, öldürdüyü əsgərin silahını götürmək üçün qabağa yeridi.

Arzuladığından da çox düşmən əsgərini məhv etməsinə baxmayaraq, yenə vuruşmaq istəyirdi. Bədənindəki qan axıb qurtarana kimi, son damla qanı qalana kimi vuruşmaq istəyirdi.

Meyidə doğru bir neçə addım atmışdı ki, binanın tinindən beş-altı erməni çıxıb silahlarını ona tuşladılar.

Mübarizin qan itirməkdən avazımış üzünə dərin bir kədər çökdü. İyirmi iki yaşı yenicə tamam olmuş, həyatın əsl ləzzətini görməmiş, torpaqları hələ də düşmən əsarətində qalan bir gəncin kədəri idi bu acı kədər. Çox sevdiyi, özünə ideal seçdiyi Mehdi Hüseynzadəni xatırladı. Əfsanəvi qəhrəman Mixaylonu... Qəmli-qəmli gülümsəyib, onun son anda demiş olduğu sözləri təkrar etdi:

– Bu da axırı...

Ermənilərdən biri qabağa gəlib, Mübarizin üç-dörd addımlığında dayandı. Silahını onun başına tuşlayaraq erməni dilində nəsə çığırmağa başladı.

Mübariz gülləsi qurtarmış avtomatını tullamağına peşman oldu. Onu silahsız görüb, əsir ala bilərdilər. Əsir düşməyi isə ağlına belə gətirmək istəmirdi. Yox! Onu əsir almaqlarına imkan verməyəcəkdi! O bura döyüşüb şəhid olmağa gəlmişdi, əsir düşməyə yox!

Hər iki əlini yarasının üstünə basıb, bir qədər əyilmiş vəziyyətdə düşmənlərinə baxırdı. İndi gözlərində kədər yox, qələbə oxunurdu, düşmənlərinə sonsuz nifrət oxunurdu.

Başını nişan almış erməni isə elə hey ucadan çığırır, dəhşət içində eyni sözü təkrarlayırdı. Lap yəqin, Mübarizin dizi üstə çökməyini tələb edirdi.

Açıq-aydın görünürdü ki, ondan qorxurlar. Bəli, silahsız və üstəlik də yaralı olmasına baxmayaraq, ondan qorxub yaxına gələ bilmirdilər. Beş saata yaxın bir müddətdə qeyri-adi qəhrəmanlıqla vuruşub onlara xeyli təlafat vermiş bu gəncə qorxunc bir qüvvə kimi, möcüzə kimi baxırdılar.

Qabaqdakı erməninin əli tətiyin üstündə titrəyirdi. O, yenə də qorxu dolu həyəcanla qışqırıb eyni əmri təkrar etdi.





«Ay siz öləsiniz! – Mübariz ürəyindən keçirdi. – Mənim dizlərim ancaq öləndən sonra yerə dəyəcək. Qisasımı aldım sizdən. Öldürdüyümü öldürdüm, siz isə qorxudan xəstəliyə tutulacaqsınız. Siz hamınız! Bütün millətiniz! İndi isə ölümüm də öz əlimdədir. Məni diri tutub heyfinizi çıxa bilməyəcəksiniz...»

Başa düşürdü ki, bu qorxaqların üstünə bircə addım atsa, onu vuracaqlar. Bunu onların qorxudan titrəyən əllərindən, ağarmış sifətlərindən görürdü.

Düşündü ki, vaxtdır daha. Qanaxmadan zəifləyib yıxıla bilər. Ya da bunların yoldaşları gəlib çıxar və aralarında bir cəsarətlisi tapılıb onu əsir götürər.

Başını ağır-ağır yuxarı qaldırıb, yenicə işıqlanmağa başlamış səmaya baxdı və pıçıltıyla kəlmeyi-şəhadətini gətirdi. İndi daha ölməyə hazır idi. Bircə addım atacaqdı və həmin anda da ruhu bədənini tərk edib göylərə uçacaqdı.

Başını nişan almış erməni həyəcanlı səslə qışqırırdı...

Amma...

Həyat hamı kimi Mübariz üçün də şirin idi. O da yaşamaq istəyirdi. O da Allahın ona verdiyi həyatdan ləzzət almaq istəyirdi. Atasını, anasını xatırladı... Qardaşlarını, qohumlarını xatırladı... Sevdiyi, amma adını belə bilmədiyi qızı xatırladı...

Saniyələr keçir, Mübarizin ayaq üstə durmağı çətinləşirdi. Ona ən yaxın dayanıb başını nişana götürmüş erməni dəhşətlə çığırırdı.

Daha bir neçə saniyə yaşamaq istədi...

Ətrafına boylanıb, uzaqda görünən doğma dağlara, meşələrə baxdı. Səhərin təmiz havasını acgözlüklə ciyərlərinə çəkdi. Yarası yaman ağrıdır, nəfəs almağı çətinləşirdi. Yox, daha bir neçə saniyə keçsəydi, huşunu itirib yıxıla bilərdi.

Bunu düşünən kimi əllərini yarasının üstündən götürdü. Bədənində qalmış son gücünü sərf edib qollarını yana açdı.

– Vətən... sağ... olsun!.. – deyib yaralı pələng kimi düşmənlərinin üstünə yeridi.

Onun bu qəfil hərəkətindən qorxub bağrı yarılmış erməni əsgəri özünü itirib dərhal tətiyi çəkdi...





# ON İKİNCİ BÖLÜM

***«O bir mələk idi. Yerdə çox yaşaya bilməzdi...»***

**(Mübarizin atası Ağakərim bəyin dediklərindən.)**

Seyid Ağakərim sübh namazından sonra qalxıb həyətə çıxdı. Tövləyə baş çəkib, həyətdə məqsədsiz halda gəzişməyə başladı. Burada bir neçə yerə dəmir borular və bəzi başqa tikinti materialları yığılmışdı. Nə vaxtdır ki, evin qarşısında böyük bir çardaq düzəltmək istəyirdi. Yay aylarında kölgəsində oturmaq, həm də vaxt çatanda oğlanlarının toy məclislərini keçirmək üçün. Bir də darvazaya yaxın yerdə təzə hamam tikəcəkdi. Mübariz məzuniyyətə gələndə iş təzəcə başlamışdı. Baş qarışdı, hər şey yarımçıq qaldı. Mübariz gedəndə demişdi ki, əvvəlcə hamamı tikin, çardağı sonra yavaş-yavaş düzəldərsiniz.

Ağakərim çox istəyirdi ki, oğullarına növbə ilə toy eləyib, evə gəlin gətirsin. Maraqlıdır ki, bunu Mübariz ondan da çox arzulayırdı. Tez-tez deyirdi ki, qardaşlarımı evləndirin. Amma özü barədə danışanda evlənmək fikrində olmadığını bildirirdi. Deyirdi, tor-

paqlarımız nə qədər ki, ermənilərin əlindədir, evlənməyəcəyəm.

Əkdiyi nar və heyva ağaclarına bir qədər tamaşa edəndən sonra kiçik idman guşəsinə tərəf getdi. Mübariz burada necə də həvəslə məşq edirdi. Saatlarla, yorulmadan. Ən böyük arzusu idmanda Azərbaycanın bayrağını göylərə qaldırmaq idi. Torpaqları bütöv, azad bir ölkənin idmanında... Amma sonra tez də anladı ki, üçrəngli müqəddəs bayraq əvvəlcə işğal olunmuş torpaqlarımızda qaldırılmalıdır. Bu yolu seçdi. Bu yolla getdi.

Cib telefonu zəng çalanda xəyalları pərən-pərən olub yoxa çıxdı. Son vaxtlar həmişə telefonu səslənəndə, qeyri-ixtiyari olaraq, səksənib həyəcanlanırdı. Cəld ekrana baxdı. Zəng tanımadığı nömrədən gəlmişdi. Telefonu açdı:

– Bəli?

Yad və bir qədər acıqlı kişi səsi eşidildi:

– Ağakərimdi?

– Bəli... – Ağakərimin ürəyini narahatlıq bürüdü. – Kimdir danışan?

– Hərbi hissədəndir. Oğlunuz haradadır?

– Mübariz?.. – Ürəyi az qaldı yerindən çıxsın. – Başa düşmədim. O harada olmalıdır ki?

Naməlum kişi səsi bir az da sərtləşdi:





– Mübarizin kənddə bir düşməni-filanı var?

– Yox... Nə olub axı?

– Oğlunuz bu gecə silahını da götürərək kazarmanı tərk edib. Heç yerdə yoxdur. Deməli, deyirsiniz ki, kəndə gəlməyib?

Ağakərim artıq nəsə anlamışdı. Deməli, neçə illərdən bəri buna görə səngərə can atırmış Mübariz... Bir qədər susub, hüznlü səslə dilləndi:

– Silahını götürüb çıxıbsa, siz onu o biri tərəfdə axtarın, burada yox. Onun ermənidən başqa düşməni yox idi.

– Necə yəni?!

– O, düşmən tərəfə gedib. Vuruşmağa... – Ağakərimin səsi titrədi. – Xahiş edirəm, ona təcili kömək göndərin. Çox xahiş edirəm!

– Nə kömək, a kişi? Biz heç bilmirik ki, o hara gedib.

– Ona kömək göndərin!

Telefonu qapadılar...

Həyəcanlanmış ata nə edəcəyini bilmədən bir müddət əlindəki telefona baxıb qaldı. Sonra tələsik ətrafına boylanıb üzünü Tərtər rayonu istiqamətində tutdu. İndi Mübariz üfüqün o tayında, ondan xeyli uzaqda... Kim bilir, bəlkə də...

Özündən asılı olmayaraq, ucadan:

– Mübariz!! – deyə çağırdı.

Sanki, oğlu bu uzaq məsafədən eşidəcəkdi onu...

Özünə gəlib, cəld hərəkətlə evə doğru qaçdı. Arvadına heç nə demədən, geyinib, birbaş Tərtərə getmək üçün evdən çıxdı.

* * *

Hərbi hissədə onu Mübarizin taqım komandiri qarşıladı:

– Ağakərim əmi, Mübariz gecə heç kəsə bir söz demədən, silahlanaraq ermənilərin üstünə gedibmiş...

Bəli... Belə də olmalıydı. Ağakərim bunu duymuşdu artıq. Bu heç də təsadüfi bir şey deyildi. Mübariz neçə il idi ki, bu məqsədinə çatmaq üçün çalışırdı. Neçə illər idi ki, bu qisas gecəsinə doğru gecəgündüz yol gəlirdi. Çünki, haqq yolu idi bu yol... Ədalətli qisas yolu idi...

Qərargaha xeyli adam yığılmışdı. Hərbi müstəntiq də burada idi. Ağakərimə oturmağa yer göstərdilər. Ağır-ağır addımlayıb göstərilən kətildə əyləşdi. Qaraqabaq müstəntiq əlində tutduğu vərəqi ona göstərdi:





– Bu məktub oğlunuzun pencəyinin cibindən tapılıb.

Sonra Mübarizin gecə kazarmadan çıxarkən yazıb qoyduğu məktubu oxumağa başladı:

«Canım atam və anam! Məndən ötrü darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə ürəyim dözmür. Allah xatirinə bunu etməliyəm. Ən azı ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəm. Şəhid olsam, ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Allah böyükdür. Vətən sağ olsun!

Oğlunuz Mübariz.»

Ağakərimə elə gəlirdi ki, bu saat müstəntiqin yox, oğlunun öz səsini eşidir. O mehriban, sevimli səsini. Son vaxtlar silinməz bir qəm-qüssə qarışmış gözəl səsini...

Müstəntiq məktubu oxuyub qurtardı və onu kədərdən büzüşmüş ataya uzatdı:

– Baxın görək, bu oğlunuzun öz xətti ilə yazılıb, ya yox?

Ağakərim dərindən köksünü ötürərək məktubu aldı. Onu ciyər dolusu qoxulayıb öpdü və:

– Baxmağa ehtiyac yoxdur. – dedi. – Bunlar hamısı onun sözləridir. Ancaq o deyə bilərdi bu sözləri.

Otağa dərin bir sükut çökdü. Heç kəs dinmirdi. Deməyə, danışmağa heç bir söz qalmamışdı, elə bil. Hiss olunurdu ki, Mübarizin etdiyi qeyri-adi hərəkətin əsl mahiyyətini hələ də tam mənası ilə anlaya bilməmişdi buradakılar. Hələ bircə onu bilirdilər ki, Vətənin dar günündə ürəyi dözməyən iyirmi iki yaşlı gizir Mübariz İbrahimov gecə ikən səngəri aşaraq birbaş yağı düşmənin üstünə gedib. Qisasını alaraq Allah yolunda, Vətən yolunda şəhid olmaq üçün.

Yaranmış sükutu birinci olaraq gənc taqım komandiri pozdu. Yaxınlaşıb əlini Ağakərimin çiyninə qoydu və kədərlə dilləndi:

– Başınız sağ olsun, Ağakərim əmi!

Bu sözləri, yəni sevimli oğlunun ölüm xəbərini kiminsə dilindən eşitmək ata üçün ən ağır bir iş idi. Ancaq, eşitdi... Özünü aldadıb, Mübarizin sağ-salamat olmasına inanmaq istəsə də eşitdi. Bəlkə də bu bəd xəbər onun belini bükəcəkdi bir anda. Amma Mübariz birdən-birə gözləri önünə gəldi. Üzünü atasına tutub gülə-gülə son vaxtlar tez-tez dediyi sözləri təkrar etdi:

– Ay ata, övlada bu qədər bağlanmaq olmaz. Siz övladınızı Allahdan da, Vətəndən də çox istəyirsiniz. Bu günahdır. Vallah, günahdır!





Xəyal tez də çəkilib getdi...

Ağakərim düşündü ki, Mübariz kimi oğulun atası başını aşağı dikməməlidir, ağlamamalıdır. Başını qaldırıb gənc komandirin üzünə baxdı və bütün otaqdakıları təsirləndirən bir sakitliklə dilləndi:

– Vətən sağ olsun!...

# EPİLOQ

«Canım atam və anam,
məndən ötrü darıxmayın.
İnşallah, cənnətdə görüşəcəyik...»
Mübariz.

Bir neçə gün sonra bütün dünya Mübariz İbrahimovun qeyri-adi qəhrəmanlığından xəbər tutdu. Müxtəlif dövlətlərin televiziya və radioları, qəzetlər, internet səhifələri iyirmi iki yaşlı bu türk gəncinin ağlasığmaz igidliyindən danışır, onun göstərmiş olduğu şücaətə heyrətlərini ifadə edirdilər.

Düşmən ölkəsi isə açıq-aşkar dəhşətə gəlmişdi. Sən demə, həmin gecə ermənilərin Tərtərdəki hərbi qərargahı, həqiqətən də, Azərbaycan Ordusunun qəfil hücuma keçdiyini zənn ediblərmiş. Sonra biləndə ki, səngərdə keşikçiləri peşəkarlıqla aradan götürüb əsgərlə dolu hərbi hissəyə basqın edən yalnız tək bir gənc olub, xəcalətlərindən yerin altına belə girməyə hazır imişlər.

Buna görə də öz eyiblərini ört-basdır etmək üçün





internet vasitəsilə bütün dünyaya yalan məlumat yaydılar:

«Gecə saat 2.30 radələrində Azərbaycan Ordusunun xüsusi təyinatlı çevik alayı qəflətən üstümüzə basqın etmişdir. Qeyri-bərabər döyüşdə hər iki tərəf çox ciddi tələfat verib...»

Erməni rəhbərliyi ölkədə üç günlük matəm elan etdi. Rüsvayçı məğlubiyyətə görə iki general və daha bir neçə yüksək rütbəli hərbçi işdən qovuldu.

Azərbaycanın həmişə sülh istədiyini, daha çox sülh danışıqlarına önəm verdiyini görüb, onun savaşdan çəkindiyini düşünən düşmən tərəf sarsılmışdı. Həm də çox dərindən sarsılmışdı. Əgər Azərbaycan ordusunun adi bir giziri belə döyüşməyə qadir idisə, deməli, bu orduya qalib gəlmək heç cür mümkün deyildi.

Mübariz öz hərəkəti ilə bunu dünyaya sübut etdi. Həm də göstərdi ki, ermənilərin Azərbaycanda etdikləri vəhşiliklərin qisası alına bilər.

Qorxudan özünü itirib, dəhşətə gəlmiş düşmənlər hətta Mübarizin meyidinin qollarını bağlamışdılar. Bu qorxu onların xəbis ürəklərindən hələ neçə-neçə illər çıxmayacaqdı. Hələ neçə-neçə illər şir kimi nərə çəkib üstlərinə gələn qisasçı türk gənci yuxularına girib onları dəli eləyəcəkdi.

Seyid Ağakərimin evinə isə hər yerdən dəstə-dəstə insanlar axışmaqda idilər. Hamı bu müqəddəs ocağı ziyarət etməyə, Mübariz kimi qəhrəman övlad böyütmüş Ağakərim ataya, Şamama anaya başsağlığı verməyə tələsirdi.

Ağakərim gələn qonaqların hamısını təmkinlə qarşılayıb, təmkinlə dinləyir, cavabında isə yalnız bunu deyirdi:

– Vətən sağ olsun!

Respublikanın prezidenti cənab İlham Əliyev Mübarizə Azərbaycanın Milli Qəhrəmanı adı verilməsi haqqında sərəncam imzaladı. Onun bu sərəncamı düşmən ölkəni və onun havadarlarını ikinci, həm də çox kəsərli bir sillə kimi tutdu. Hamı bütün Azərbaycanın Mübarizlə həmrəy olduğunu, onun əməlinə haqq qazandırdığını görüb, bu xalqın öz düşməninDən gec-tez dəhşətli qisas alacağına inandı.

Ermənilər onlara ağır itki vermiş qəhrəmanın meyidini heç cür qaytarmaq istəmirdi. Bununla da öz murdar, xain xislətlərinə sadiq qalır, eyni zamanda, Mübarizin onlara necə böyük bir dağ çəkdiyini təsdiq edirdilər.

Azərbaycan gəncləri bu hərəkətdən hiddətlənmişdilər. Milli Ordunun gənc zabiti Fərid Əhmədov Mübarizin cəsədini geri almaq üçün dözə bilməyib





düşmənin üstünə getdi. Qəhrəmanlıqla döyüşüb şəhid oldu...

Nəhayət, dövlət başçısının özü beynəlxalq səviyyədə danışıqlar apararaq hər iki qəhrəmanın cəsədini geri ala bildi.

Xalq həmin gün öz şəhid övladlarını qarşılamaq üçün yollara çıxdı. Onların gəldiyi yolların hər iki tərəfinə tər çiçəklər düzdü. Qəhrəmanlar doğma Bakı şəhərində torpağa tapşırıldılar.

Bir az sonra dünya sularında gövdəsinə «Mübariz İbrahimov» adı yazılmış böyük bir gəmi üzməyə başladı. İndi bu gəmi yan aldığı bütün limanlarda insanlara Mübariz adlı qəhrəman haqqında əfsanəyə bənzər həqiqətlər danışır. Mübariz haqqında, bir də dünyanı heyrətə gətirmiş bir qisas gecəsi haqqında.

Bu qisas gecəsi, əslində, Azərbaycanın öz düşmənlərinə xəbərdarlığı idi. Belə gecələr hələ çox olacaqdı. Düşmən əsarətindəki torpaqlarda işıqlı azadlıq səhəri açılana kimi...

**S O N**

*26 oktyabr – 26 dekabr 2010-cu il.*
*Bakı şəhəri*

## Mündəricat

MÜƏLLİFDƏN ........................ 5
PROLOQ ........................ 14
BİRİNCİ BÖLÜM ........................ 19
İKİNCİ BÖLÜM ........................ 30
ÜÇÜNCÜ BÖLÜM ........................ 52
DÖRDÜNCÜ BÖLÜM ........................ 62
BEŞİNCİ BÖLÜM ........................ 78
ALTINCI BÖLÜM ........................ 88
YEDDİNCİ BÖLÜM ........................ 95
SƏKKİZİNCİ BÖLÜM ........................107
DOQQUCUNCU BÖLÜM ........................121
ONUNCU BÖLÜM ........................131
ON BİRİNCİ BÖLÜM ........................144
ON İKİNCİ BÖLÜM ........................163
EPİLOQ ........................170



**ELXAN ELATLI**
**(Elxan Əbdürrəhman oğlu Osmanov)**

# Qisas gecəsi

*Nəşriyyatın yaradıcısı*
***Qoşqar İsmayıloğlu***

NƏŞRİYYAT REDAKTORU
**Akif DƏNZİZADƏ**

RƏSSAM: **Yaşar Rəhimov**

TEX. REDAKTOR: **Ellada Səfərəliyeva**

OPERATOR: **Elnurə Abuşova**

ÇAPA MƏSUL: **Alpay Paşa**

# ELXAN ELATLI



19 dekabr 1962-ci ildə Şamaxı rayonunda anadan olub. 1985-ci ildə BDU-nin mexanika-riyaziyyat fakültəsini bitirib. Azərbaycan Yazıçılar birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatıdır. Üç şeir, iki riyazi məntiq məsələləri, "Yeddinci mərtəbədə qətl", "İtmiş qızın axtarışı" detektiv kitablarının, "Pəncərədə görünən kölgə", "Xəyanət", "Qan ləkəsi", "Bakıdan gələn səs", "Dilənçi qadının sirri", "Görünməyən izlər", "Arxalı canavar", "Qisas gecəsi" romanlarının müəllifidir. Bakı şəhərində yaşayır.

Evlidir. Bir övladı var.

ISBN 978995244711

9 789952 447118

Kitabın bütün hüquqları qorunur.
Satışa məsul şəxsin razılığ olmadan
təkrar nəşri və yayılması qəti qadağandır.